RAMİZ ABDULLAYEV

# *Ana yurdum*
# *Mənim Azərbaycanım!*

**Bakı-2011**

**Rəyçilər:**

Söhrab Tahir AZƏR-AZƏR,

**Xalq şairi, Prezident təqaüdçüsü;**
Mədəd ÇOBANOV,
Nyu-York Elmlər Akademiyasının akademiki,
filologiya elmləri doktoru, professor.

**Naşiri və redaktoru:**
Müşfiq BORÇALI.

**Korrektoru:**
Günel CEYHUNQIZI.

# Sevgidən açılan ilham yelkəni

Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, "Abdulla Şaiq", "Nəriman Nərimanov", "Qızıl Qələm", "Qızıl Buta" mükafatları laureatı, "XXI Əsrin Ziyalısı" Fəxri adına və "Vətən övladı" Qızıl medalına layiq görülmüş nəğməkar şair və istedadlı dramaturq Ramiz Abdullayev imzası artıq kifayət qədər Azərbaycan oxucusuna tanışdır. İndiyənədək onun işıq üzü görmüş pyesləri, şeir kitabları bizə bunu deməyə əsas verir. Bu gün isə Ramiz müəllim "Ana yurdum mənim Azərbaycanım!" adlı yeni şeirlər kitabı ilə siz oxucuların görüşünə gəlir. Burada müəllifin yurd sevgisindən bəhs açan, ana yurdunu vəsf-tərənnüm edən misralarının, gözəlliyi tərifə çəkən nümunələrinin sehrinə düşəcəksiniz, ülvi sevgi duyğularının öz ilham yelkənini açdığının şahidi olacaqsınız. Bir sözlə, kitabdakı şeirlərin hamısının bir ana qaynağı var - yurda sevgi, gözələ sevgi, gözəlliyə sevgi.

Adının sonluğu canla bağlıdır,
Şəhidlərdən axan qanla bağlıdır.
Dünyada şöhrətin şanla bağlıdır,
Ana yurdum mənim Azərbaycanım!

Bənddəki vurğuya fikir verək: Azərbaycan adlı məmləkətimizin adındakı son heca "can" hissəciyi ilə bitir. Ramiz Abdullayev bu ifadəni elə-belə gəlişi gözəl mənada, daha doğrusu, təsadüfi hissəcik hesab etmir.
Ramizin şairanə qəribəliyi bu şeirdə buradadır ki, "can" tərkibinə başqalarından fərqli şəkildə, tamamilə fərqli məzmun verir. Bu məzmunun sirrini ikinci misrada birbaşa ifadə edir: "Şəhidlərdən axan qan"la bağlayır bu mənanı. (Başqa sözlə, Azərbaycan kəlməsindəki "can" sözünü şəhidlərin canı ilə bağlayır.) Belə bir fikir hasilə gəlir ki, Azərbaycan adlı vətənimiz şəhidlərin canından var olub, şəhidlərin canından axan qanla vətən yaşayıb, yaşayır. Bəli, bu, doğrudan da, belədir, əgər torpaq uğrunda ölən olursa, o yurd, o torpaq vətən olur, vətən statusu qazanır. Bax bizim vətənimiz, Azərbaycanımız da, uğrunda qurban gedən qəhrəmanlarının, şəhidlərimizin al-qanı hesabına mövcud olub, mövcuddur...

Bax, Ramiz Abdullayevin vətən sevgisi yuxarıdakı misraların ruhundan bu cür ifadə olunur, birmənalıdır.
Bax beləcə, vətən sevgisində bu cür saf və səmimi olduğu kimi, gözəllərə qarşı ilqarında, məhəbbətində də başqa cür israrlıdır, təmizdir.
"Güldür məni, gülsün o qara gözlərin, ey gül" misrası üstündə başlayan bir nümunədə də biz aşiqanə, lirik mövzunun sehrinə düşürük:
Safdır sənə qarşı olan bu eşqi məhəbbət,
Qoyma ki, baxa gözləri gözəllərin, ey gül.
Ramiz, gedirəm mən görüşə yar ilə xəlvət,
Olmaz səbri-qərarı dözənlərin, ey gül.

Burada bir incə nüansa diqqəti çəkmək istərdik: "qoyma ki, baxa gözləri gözəllərin, ey gül" misrası. Yəni lirik aşiq obrazı öz sevgilisini qısqanır və həm də özünü öz sevgilisinə qısqandırmaq məqsədilə: "qoyma mənə başqa gözəllər də baxsın, ey gül" deyə müraciət edir. Maraqlıdır ki, qısqanmaq hər bir sevən

qəlb üçün təsir əlamətidir. Amma qısqandırmaq özü bir “kəşfdir”- yəni özünü istədiyinə qısqandırmaq istəyi artıq sevgidəki, eşqdəki ifrat saflığa dəlalət edən amildir. Bax, Ramiz Abdullayevin misralarından süzülən sevgi fərqi yoxdur, bu sevginin obyekti istər gözəl olsun, istər vətən olsun, istər təbiət olsun, beləcə pakdır və ifrat dərəcədə qısqanclıq doğuran saf sevgidir.
Yaxud da bir başqa nümunədə Ramizin sevgi anlayışına münasibətinə fikir verək:

Bəlkə də bir qədər qəribə gələ,
Vardır min sevənin, birisi də mən.
Etiraf edənlər onlardı hələ,
Susub, lal-dinməzdi, ölüsü də mən.

“Susub lal-dinməzdi, ölüsü də mən.” Bir qədər qəribə məntiqlə ifadə edilsə də, məsələnin məğzi belə qoyulub ki, gözələ xitabən bildirilir ki, bu gözəlliyə valeh olub vurulanların biri də mənəm. Bununla gözəlin pərəstişkarlarının çox olduğu bildirilir, yəni hədsiz gözəldir ki, bu qədər müştərisi, sevəni var, bunlardan biri də mənəm deyə etiraf edir.
İlk baxışdan düşünürsən ki, hə, nə olsun ki: “birisi də sən”. Amma digər iki misrada fikir tündləşdirilir, sevgisini açıb etiraf edənlər onlarladır, yüzlərlədir, amma susub lal-dinməz olanları da var. Çünki əsl sevgi dilsiz olur, aşiq susub, lal, dinməz olur. Lakin bu susmağın içində daha susqun birisi var ki, o nəinki susub, lal olub, hətta “ölüb də”- ölü kimi lal olub. Bax bu mübaliğə üsulundan müəllif yetərincə istifadə edib deyir ki, bu susanların “ölüsü də mən”əm. Ona görə növbəti bənddə bildirilir ki, hətta sözləri hüzurunda dayanıb, söyləmək üçün əzbərləsəm də, yenə də bu sevgi sözünü dilə gətirə bilmərəm.
Yekun bənddə isə Ramiz Abdullayev birbaşa açıqlayır ki:

Sənsiz bu dünyada buz tək donaram,
Etiraf etməkçün sənə sözümü.
İztirab, əzabdan heykəl quraram,
Sənə göstərməkçün eşqin özünü.

“Sənə göstərməkçün eşqin özünü.” Bəli, buz tək donub heykəlləşəcəyini dilə gətirir. “Eşqin özünü göstərmək üçün” sevgi yolunda çəkdiyi zillət və əzabdan “heykəl qurar”- heykələ dönər fədakar aşiq obrazı. Heykəl isə dinib-danışmaz, bu, məlum həqiqətdir.
Ramiz Abdullayev qəzəl janrına müraciət edəndə də təbii ki, gözələ olan ülvi sevgidən yanıqlı-yaralı bir aşiq fədakarlığı ilə bəhs edir.
Bir baxışı ataş yaxır, digər baxır çox sadəcə
Bəlkə də hiss etməyib, yaydan atır ox sadəcə...
Bu cümlə ilə başlayan “sadəcə” rədifli qəzəldə çox maraqlı bir səhnə təsvir olunub. Baxışın birindən sevgi ataşinin ələyib yağdığını göstərməklə, fikrindən sadəcə soyuqluq yağdığını ifadə eləməklə əslində bir təzad kontrast yaradıb. Bu təzadlı qütblərin fonunda öz şairanə duyğularını daha emosianal tərzdə ifadə etməyə şans qazanır. Növbəti bir bənddə yazır ki:
Bir mələkdi, cənnəti tərk eyləyib gəlmiş bura
Heç kəsə bildirmədən məftun edir bax sadəcə.
Müəllif sevdiyi gözəlin cənnəti tərk edib, insanların arasına gəlib girmiş huri mələk olduğunu iddia edir, özü də bu gözəl elə bir xoş simalı bəxtəvərdir ki, nə bu sirrini kimsəyə bəyan edir, nə də kimisə öz eşq oduna salıb yandırdığını bürüzə

verir.

Amma bu gözəlliyə məftun olub vurulan fədakar aşiq, məcnun özünə qapılıb sevgi əzabını çəkir, özü də bu əzab ona görə həm də acıdır ki, bu dərdi içində xəlvəti çəkir və dərdini bölüb yüngülləşməyə özünə bir həmdərdi, sirdaşı da yoxdur.
Bax, Ramiz müəllimin qeyri-adi ifadə üsulları ilə dediklərindən bu məzmun üzə çıxır. Daha sonra isə bir yerdə qeyd edir ki:
Dünya ləzzət etməz idi, olmasa sən tək gözəl
Ver mənə ləzzət sonunda, çarmıxa tax sadəcə.

Yəni aşiq gözəlin yolunda nə qədər sevgi hicrində yanıb-qovrulsa da, bundan kədərlənmir, əksinə belə qənaətdədir ki, belə gözəl olmasa dünya adama dadsız, ləzzətsiz kimi görünərdi. Bax, aşiq fədakarlığını, özünü bu cür təzahür etdirir. Lakin sonda gözələ qovuşmağı arzulayıb, “məni çarmıxa çəkməklə bu dünyanın ləzzətini göstər” deyə iddia qaldırır. Əlbəttə, bu iddia ikibaşlı mənaya yönləndirilir ki, aqil oxucu özü üçün burdan istər sufi-mistik mənanı, romantik sevgini qavrayıb nəticə çıxarır, istərsə də sədəcə buradakı hərfi mənanın təsiri ilə dünyəvi eşqə qovuşmanın cismani ləzzət gətirəcəyini vərəvurd edib anlayır. Hər iki halda müəllif istər platonik sevgini, istərsə də həqiqi dünyəvi eşqi təbliğ,-tərənnüm etməklə oxucuya bu dünyanın şirinliyini, sevib-sevilməli olduğunu anladır.

Ramiz, məcnun yada düşdü, vurğun oldum əlbəəl,
Durma artıq, sən zəhərdən dodağa yax sadəcə.
Məqtə beytdə isə sevgidə məcnunluq həddinə yetişdiyini dilə gətirir. Burada göründüyü kimi, müəllif yenə xəyalı-məcnunanə eşqə meydan verir.
Ümumiyyətlə, Ramiz Abdullayevin arzularındakı sevgi anlamında dünyəvi eşqlə sufiyanə eşqin təsvir tərənnümü paralel istiqamətdə düşünülür, yəni onun misralarında dərindən düşünüləndə ikibaşlı mənalar özünü daha çox sezdirir: Bu sətirin üst qatından görünən real-həqiqi məna, bir də misranın alt yapısından boy göstərən məcazi məna.

Digər bir nümunədən aşağıdakı beytlərə dərindən diqqət etsək, dediyimizin təsdiqini görərik:

Nazı-qəmzən də mənim canıma dərman olsun
Əridək dərdi-qəmi, arzulara dönmək üçün
Cam gətir damlası bal tək, içi şərbət dolsun
Etiraz eyləməsən, tən yarıya bölmək üçün.
Bu beytlərdə fikrin həqiqi və məcazi məna çalarları müvazi şəkildə düşünülə bilər, hər bir halda sevgi qanadının yelkənlərinin açılıb ilham pərlərini hərəkətə gətirdiyi açıq-aşkar duyulur.

Bir sözlə, Ramiz Abdullayev sevgi tərənnümçüsüdür, bu tərənnümün ifadəçisi olan lirik aşiq obrazı sənsən, mənəm, odur, bizik, bizim hər birimizdir; oxucularına sevgi duyğularını aşılayan müəllifin isə pərəstişkarları həmişə var...
Başqa bir yerdə isə:

Tapmacaya dönüb çıxdın qarşıma,

Harda dolanıram, orda sən varsan,

- deyərək sevgilisini bir sirli, sehrli həyat tapmacasına bənzədir və “bir bəla olmusan mənim başıma” - deyərək sevdiyinə ərkyana minnət qoyur. Əlbəttə ki, bu da bir cürə priyomdur, komplimentdir ki, bunu da Ramiz müəllim özünəxas şəkildə işlədə bilir. Beləcə özünəxas deyimi, duyumu ilə Ramiz Abdullayev oxucularının üzünə bir sevgi dünyası açır.
Sevgi isə müqəddəsdir, bu müqəddəsliyə tapınanlar özləri də müqəddəsdirlər.
Sevginiz qismətiniz olsun, əziz oxucularımız!
Ramiz Abdullayevin sevgi dünyası ilə üz-üzə qalıb onun yeni kitabını oxumaq da sizlərin ixtiyarınızdadır... Müəllifə isə uzun ömür, möhkəm cansağlığı və yeniyeni yaradıcılıq uğurları arzulayırıq!

**Söhrab Tahir AZƏR-AZƏR,**
**Xalq şairi, Prezident təqaüdçüsü;**
**Mədəd ÇOBANOV,**
**Nyu-York Elmlər Akademiyasının akademiki,**
**filologiya elmləri doktoru, professor.**

Ana yurdum mənim  Azərbaycanım!

Adını çəkərkən qəlbimdə qürur,
Gözlərimdə sevinc, göz yaşı dolur,
İnsanlar adınla ayağa durur,
Ana yurdum mənim Azərbaycanım!

Adının sonluğu canla bağlıdır,
Şəhidlərdən axan qanla bağlıdır.
Dünyada şöhrətin şanla bağlıdır,
Ana yurdum mənim Azərbaycanım!

Sənlə bu dünyada xoşbəxtəm inan,
Milyon illər keçmiş, kecəçək zaman,
Çicəklən, qüdrətlən sən zaman-zaman
Ana yurdum mənim Azərbaycanım!

Zəhmətkeş xalqımla çat nəaliyyətə,
Göstər sən özünü bəşəriyyətə,
Apar arzuları əbədiyyətə
Ana yurdum mənim Azərbaycanım!

## Ü r ə k

Səndən namə gəldi, gördüm bir ürək,
Təsvir olunmuşdu torpaq üstünə.
Fələk suyun çəkmiş boğarkən dilək,
İmdadla baxırdı mənim hüsnümə.

Səsini duyurdum, sükut içində,
O ürək elə bil, bütöv mənimdi.
Tanrı yaratmışdı, eyni biçimdə,
Buna ruhum ilə cismim əmindi.

Səni xilas etsəm, xilasam özüm,
Etməsəm məhv olub, gedərəm gülüm.
Sevirəm mən səni, budur son sözüm,
Ramiz tək seçərək, yolunda ölüm.

Qoyma ürəyimi o, nadan ala

Bir qaxılıb otursana yerində,
Dingildəyə, dingildəyə gəzirsən.
Küləklərin qucağında, yelində,
Çox qəlbləri, əllərinlə əzirsən.

Bir cəlladsan, yox qalxanın, yox baltan,
Addımlayıb geriyə də dönmədən.
Çox ürəklər eyləmisən sən, al qan,
Korlar təki, etdiyini görmədən.

Öyünürsən özündən çox, xeyir ola?
Bu dünya ki, sənin deyil əbədi.
Ramiz, qoyma ürəyimi o ala,
Fərq eyləməz, baxıb deyər bu nədi?

Sən baldan da şirin olan sevgilim

Qızılgül kolundan boylanır tər gül,
Söyləyir ki, getmə, dayan sevgilim.
Sənə boyun əyər inan ki, hər gül,
Sən baldan da şirin olan sevgilim.

Dəyər nazı qəmzən mənim ömrümə,
Gətirər bu sevgi həlim ömrümə.
Çəkdiyin bəs eylər qəmim ömrümə,
Sən baldan da şirin olan sevgilim.

Dünyanın iqlimi on bir olsa da,
Doqquzu vətənə meyl salsa da.
Arılar güllərdən şirə alsa da,
Sən baldan da şirin olan sevgilim.

İndi nə faydası bu yalvarmağın

Gənc ikən bilmədin, qədir qiymətin,
Təmənnasız canın, tanrı zinətin.
Yıxdı xəyanətin, yıxdı niyyətin,
İndi nə faydası bu yalvarmağın.

Baxdın ətrafına çox nazlı-nazlı,
İçdin bulaq suyun, onu da qazlı.
Uçmaq istəyərdin, göylərə azı,
İndi nə faydası bu yalvarmağın.

Boylan keçmişinə taparsan özün,
Orda şəkillərdə, görəcək gözün.
Yalanmış, yalandan qurulub sözün,
İndi nə faydası bu yalvarmağın.

Sənə mələk deyərdim

Yadındamı, sənə mələk deyərdim,
Sən mələk olmadın, bir kələk oldun.
Yanımda olsaydın ələk deyərdim,
O, xırda gözlükdə sən kəpək oldun.
Tozunu üfürmək lazımdır sənin,
Əsərkən hər şimal küləklərində.
O zaman xoşuma gəlmişdi nəyin?
Məni çaşdıraraq diləklərimdə.

Ey mələk simalı, şeytan cüssəsi,
Yolunub qanadın, cüllütsən artıq.
Ramiz, bu mələyin zəhər büsəsi,
Ürək bulandıran, həm olub sırtıq.

Tamam

Məni yandıranı yandırsın Allah,
Başına gətirsin mənə edəni.
Şahmatda mat olub, gedərkən bir şah,
Yensin taxtu-taca haqsız seçəni.

O, özü qazdığı quyuda batsın,
Çıxmağa taqəti olmasın tamam.
Oyanıb yatarkən dərdiylə yatsın,
Tərsinə dövr etsin onunçün zaman.

Məni yandıranı yandırsın Allah,
Gözləri ovcuna dikilib baxsın.
Çəkəcək ahuzar, o içində ah,
Gözündən qəlbinə çıxmadan yaxsın.

Məhəbbət sönməz

Görəsən yenidən sevsəm, sevilsəm,
Başıma bir qaxınc olmazmı mənim?
Başqa bir sevgidə sevinclə gülsəm,
Tükənib üstümdən gedərmi qəmim?

Deyirlər məhəbbət sönməz yaşardır,
Yaşamaq boşluqda çətindir çətin.
Hardasa gözləyir, mənimçün vardır,
Odur ki, gözləyib, oluram mətin.

İnanıram eşqə, oda, atəşə,
Yanar dağ, atəşgah, sönməz məşələ.
Deyir ki, ümidsiz olmayım hələ,
Sübh çağı oyanan parlaq günəşə.

Rəssam olsaydım əgər

Rəssam olsaydım əgər, gözlərini çəkərdim,
Baxan baxışlarında görmək üçün bir anı.
Yalan, ya düz dediyin, sözlərini çəkərdim,
Tərəzinin gözündə tutmaq üçün zamanı.

Rəssam olsaydım əgər, görərdim ağ qaranı,
Kor olmazdım, görməzdim, bu rəngləri bayağı.
Bağa səhra deməzdim, bilməzdim dağ, aranı,
Səhv etməzdim əl ilə, cana möhtac ayağı.

Rəssam olsaydım əgər, çəkib hüsnünü tamam,
Portretin önündə, saatlarla durardım.
Cizgiləri tapmaqçün, tutaraq əlimdə şam,
Bir əlimdə tutub ox, həmin yerə vurardım.

Rəssam olsaydım əgər, mən görərkən xəyanət,
Çalın çarpaz xətt çəkib portreti pozardım.
Yenidən o gözləri, çəkərdim yəqin əlbət,
Dəvət edib Ramizi, qəmli sətir yazardım.

Sən demə

Səninlə bərabər olan illərdə,
Dünyanın xoşbəxti bildim özümü.
Sənin ucbatından qərq oldum dərdə,
Deyə bilməyirəm artıq sözümü.

Sənli səhərlərin gəlişi üçün,
Gecəni yatmadım gözlədim sübhü.
Sevincdən könlümün gülüşü üçün,
Sən demə səhv edib izlədim sübhü.

Yalanlar qoynuna ataraq məni,
Uydum o sevginə bilmədən belə.
Mən inan beləcə sevmirdim səni,
Nə üçün qəsdimə çıxdın sən belə.

Mübarək yetmişin, Arif Qazıyev!

Təsvir etmək olmur, sənsiz muğamı,
Muğam teatrı deyərkən hamı.
Yandırdın əlinlə, yüzlərlə şamı,
Yetişdin yetmişə Arif Qazıyev.

İlk dəfə səsinlə səsləndi nəğmə,
Cücələrim oldu, fəxr oldu qəlbə.
Oxundu Şimalda, Cənub, Şərq, Qərbdə,
Yetişdin yetmişə Arif Qazıyev.

Qaldırdın keçmişi arxivimizdən,
Çəkdin çox filimlər tariximizdən.
Danışdın kamandan, tar, dəfimizdən,
Yetişdin yetmişə Arif Qazıyev.

Bu gün dostlarının əhatəsində,
Sağlıqlar toplanıb hər badəsində.
Keçmişlə bu günün vəhdət səsində,
Yetişdin yetmişə Arif Qazıyev.

Sevinc, səadətli qoy olsun ömrün,
Xoşbəxt həyat yaşa, yaşa günbəgün.
Mübarək yetmişin, mübarək bu gün,
Yetişdin yetmişə Arif Qazıyev.

**Bundan gözəl nə var, Mədəd müəllim!**

*Professor Mədəd Çobanovun*
*70 illik yubileyi münasibətilə*

**Dünya tərəfindən tanınan alim,**
**Vətənin adını yüksəltdin daim,**
**Fədakar zəhmətə, qovuşub elim,**
**Bundan gözəl nə var, Mədəd müəllim.**
**Dayaqsan gənclərə, örnəksən bizə,**
**Həqiqət amalın, məsləkdir düzə,**
**Bilirik məqsədin çatmaqdır yüzə,**
**Bundan gözəl nə var, Mədəd müəllim.**
**Şerimə, sözümə verib qiyməti,**
**Söylədin yaz, yarat, dayanma qəti,**
**Tanrı bəxş eylərkən, halal neyməti,**
**Bundan gözəl nə var, Mədəd müəllim.**
**Azərbaycan adlı gözəl ölkədə,**
**Sevilə-sevilə çatdın hörmətə,**
**Yetərkən bu yolda şana şöhrətə,**
**Bundan gözəl nə var, Mədəd müəllim!**
**Yetmiş bir bəhanə, ömür yolunda,**
**Yuz qolların açıb, görür yolun da,**
**Dostlar ürəyi tən, bölür yolunda,**
**Bundan gözəl nə var, Mədəd müəllim!**

## Aldatdın məni

Günlərim keçərkən səninlə birgə,
Sanırdım tükənməz, bitməz bir daha.
Ataraq sən məni qəmimlə birgə,
Köksümdə nəfəsi döndərdin aha.
Yalan oldu sevgin, aldatdın məni,
Yalan oldu sevgin, sən, atdın məni.
Yalan oldu sevgin bil, satdın məni,
Köksümdə nəfəsi döndərdin aha.

Mənimlə bərabər ruhumda varsan

Sənin şux ətrin yenə də qalıb,
Mənim otağımdan getməyib hələ.
Havanı dərindən köksümə alıb,
İçimdə bəsləmək istədim belə.

Bihuş eyləmisən gözəlliyinlə,
Ətrin cənnətin duası qədər.
Məni saxlamadın sən əllərinlə,
Bircə baxışların buna bəs edər.

Elə bilmə yoxsan yanımda mənim,
Mənimlə bərabər ruhumda varsan.
Olmusan ömrümə günümə qənim,
Saçıma tökülən illərcə qarsan.

## Mənim Pakizəm

Ana təravətin bəxş edir balam,
Keçmişi qaytarıb nəxş edir balam.
Ürəkdən sevinir, qəşş edir balam,
Mənim bir dünyamdır, mənim Pakizəm.

Onun bənzəri yox, dünya üzündə,
Tanrının sevgisi parlar gözündə.
Yaşadır anamın adın özündə,
Mənim bir dünyamdır, mənim Pakizəm.

Uçur, pərvazlanır ürəyim hər gün,
Qarşıma qaçarkən gərəyim hər gün.
Xoşbəxtlik, səadət, diləyim hər gün,
Mənim bir dünyamdır, mənim Pakizəm.

Dərin düşüncəli ol

Dərin düşüncəli ol, tələsmə söz deməyə,
Deyərkən, dəyərli de, uyma şeytan fələyə.
Ağlın, səbrin, düşüncən, bil gələcək köməyə,
Bel bağlama kimsəyə, bil düşərsən tələyə.

Dərin düşüncəli ol, nə qədər zaman keçir,
Aqil olmaq fürsəti, sənə də bir yol seçir.
Tanrı, insan sözünü, əməliylə tən biçir,
Biri baldan dadarkən, birisi zəhər içir.

Dərin düşüncəli ol, aqil dəyər verəndir,
Kamil xoşbəxt olandır, cahil günah edəndir.
Yer kürəsi eyni an, gecə gündüz böləndir,
Ləyaqət həm şəxsiyyət, bu insana önəmdir.

## Sevəcəyəm mən səni

Ürəyimdə yaratdın bu eşqin səltənətin,
Gözlərimə baxarkən, sənlə görüşən zaman.
Əsirəm yarpaq təki, ucaltmaqçün şöhrətin,
Uğrunda mübarizəm, qorumaqçün anbaan.

İnanmazdım bu qədər sevəcəyəm mən səni,
Mən bilməzdim əvvəllər, sevgi, məhəbbət nədir.
Buluda döndərmisən, göydə görərsən məni,
Kövrək olmuşam tamam, yağış, seldi məbədi.

Sənə xəyallarımla, özüm şərəflə gəldim,
Pərvaz edib uçaraq, sənin o qollarına.
Büsbütün vücudumla, vurulan dəli qəlbim,
Sərilcək inan ki, keçdiyin yollarına.

Sevgidən söz düşərkən, gülərdim özgələrə,
İndi susuz səhraya, dalınca mən gələrdim.
Qısqanıram əzizim, ətrafında hər şeyə,
Sənsiz bəlkə həyatda, yaşamazdım ölərdim.

Taleyim üzümə gülməyir daha

Bu gün verdiyini səhəri alır,
Yaşamaq, yaratmaq, çox dərdə salır.
Gözlərim hələ də yollarda qalır,
Taleyim üzümə gülməyir daha.

Yoxa çıxıb gülüş, nəfəsdə artıq,
Arzular çırpınır, qəfəsdə artıq.
Yorulub qalmayıb, həvəs də artıq,
Taleyim üzümə gülməyir daha.

Dözür bu taleyə bu dünya nədən,
Mənasız, məntiqsiz, ömürdür gedən.
Məni başqasına hər gün qul edən,
Taleyim üzümə gülməyir daha.

Həyatım, sən məni unutma heç vaxt

Ölümlü, durumlu bu dünya hələ,
Var-dövlət ötürür çox əldən ələ.
Verir tam sərbəstlik, həm qurur tələ,
Həyatım, sən məni unutma heç vaxt.

Tanrının sevgisi var yanımızda,
Eyni məhəbbətdir bil canımızda.
Ürəkdə sevgi var, həm qanımızda,
Həyatım, sən məni unutma heç vaxt.

Bilirəm, bu dünya nələr istəyir,
Pisə-pis, yaxşıya rəğbət bəsləyir.
Bu qəlbim çırpınır, səni səsləyir,
Həyatım, sən məni unutma heç vaxt.

Tək tənha səhrada

O qəlbdə yanaram, məşəl təki mən,
Onun duyğuları düşüncəm olsun.
Fərq etməz deyilən, qəm olsa da, şən,
Tək tənha səhrada, bir gecəm olsun.

Həmin səhralıqda yaratsam cənnət,
Baxsan da görməzsən, hiss olunmaz bu.
Mənim gözlərimlə baxsaydın əlbət,
Xırda qum dənəsi, dönüb olar su.

Dəniz istəyirsən, nəyinə gərək,
Əllərində qalmaz, suyu içilməz.
Səni şübhələrə salan o mələk,
Bilmir ki, şübhədən, don da biçilməz.

Hər şeyin bir dərdi, bir arzusu var,
Elə o səbəbdən fərqlidir sonlar.
Birində gözəllik, birisində qar,
Musiqi sədası yaradır onlar.

İnsafsız olma

Səni sevmək zülüm, sevməmək zülüm,
Sönməsin atəşim, uçmasın külüm.
Həyatım, büsbütün sənindir gülüm,
Nə olar, bu qədər insafsız olma.

Sən mənim köksümdə çırpınan ürək,
Gəl sənlə bərabər bir ömür sürək.
Qəm olsa ağlayaq, şad olsaq gülək,
Nə olar, bu qədər insafsız olma.

Qoymaram qəzəbdən, şimşək çağlasın,
Buludlar hıçqırıb, yağış ağlasın.
Ay səni Allahın özü saxlasın,
Nə olar, bu qədər insafsız olma.

Xəzər sahilində

Toplaşır hər bazar dostlar bir yerə,
Xəzər sahilində manqal yandırır.
Uçurum sahildə yerləşən dərə,
İnsanı elə bil göyə qaldırır.

Artır çöhrələrdə gülüş qəhqəhə,
Roma kababçı da, şişə ət taxır.
Ətiri yayılır, dönür bəh-bəhə,
Diqqətlə manqal da, alova baxır.

Soyuq sərt küləklər tüğyan edərkən,
Xəzər ləpələri çırpır sahilə.
Yanvar öz şaxtasın bəyan edərkən,
Tutqun göy üzündə görünmür heç nə.

Burdakı insanlar qürurlu, mətin,
Soyunur, atılır xəzər qoynuna.
Başqaları üçün olsa da çətin,
Bunlarçün məqsədli, dönüb oyuna.

İradəsi ilə qışın sərtliyin,
Yoxlamaq istəyir, yenə də Marif.
Bəxtiyara, Raufa, uzaq getməyin,
Necə də ləzzətdir, söyləyir Vaqif.
Hacıağa, Ramiz də sahildən baxır,
Başlarında papaq, əynində palto.
Bəsdir, çıxın daha, güclü qar yağır,

Əllərində atıb, tutur qar topu.

Çıxırlar sahilə bir-bir astaca,
Ağ qarın üstündə, ləpirlər qalır.
Oturub daşların üstə ehmalca,
İsti çaydan içib, təkrarın alır.

Baxaraq dəhşətə gəldi vücudum,
Nə qədər qüdrətə malikdi bunlar.
Elə bil qış deyil, baharı duydum,
Qətifə altından çıxırdı qollar.

Qalxarkən badələr yenidən göyə,
İçinə dolurdu qar dənələri.
Eləcə içərək, kabab çörəyə,
Yenidən uzadıb çılpaq əlləri.

Sağlıqlar deyilir, mövzular fərqli,
Doğmalar, əzizlər bir-bir yad olur.
Eləsi də olur, qüssəli, dərdli,
Vətən atəşindən, gözdə yaş dolur.

Şıxov sahilində, bu qayalıqda,
Tamam unudursan şəhər səs-küyün.
Elə bil çox uzaq, başqa diyarda,
Qoxusun duyursan, sən nərgiz gülün.

Qorxuram unudub, atarsan məni

Ölürəm səninçün həsrətdən gözəl,
Mən belə deyildim çox illər əzəl,
Sən oldun taledə ən öndən özəl,
Uzanıb yerimdə düşündüm səni,
Qorxuram unudub, atarsan məni.

Qarşına qoyduğun hər amalının,
Valehi olmuşam, bil kamalının,
Qoxusu getməyib, gül camalının,
Uzanıb yerimdə düşündüm səni,
Qorxuram unudub, atarsan məni.

Sinəm vulkan təki, yanar qalıbdır,
Fəqət baxışların dərdə salıbdır,
Gözlərin şimşəkdən qüdrət alıbdır,
Uzanıb yerimdə düşündüm səni,
Qorxuram unudub, atarsan məni.

O zaman sevgimə qibtə edərdin

Qapasam da gözü, açsam da gözü,
Hüsnün gözəlliklə qarşımda durur.
Çırpınır sinəmdə ürəyin özü,
Səninçün əbədi bir məskən qurur.

Sənin gözəlliyin qarşısında mən,
Diz çöküb, hər zaman, səcdə gedərdim.
Bilsəydin nə qədər sevdiyimi sən,
O zaman sevgimə qibtə edərdin.

Əgər sən bilsəydin, təkcə səninəm,
Bütün bu varlığım sənədir məxsus..
O zaman Ramizdən soruşmazdın sən,
Bu sevgi kimindir, o, kimdir əfsus?

Sev məni, necə ki, sevirəm səni

Tanrıdan hədiyyə, oldun bəxtimə,
İnan ki, dünyanın xoşbəxti mənəm.
Gəlişin sevinclər səpdi qəlbimə,
Yolunda qurbanlıq, bil ki o mənəm.

Yuxun şirin olsun, gecən xeyirli,
Xoşbəxtlik daima izləsin səni.
Səndən bir ricam var, mənə dəyərli,
Oyaqkən, yatarkən, unutma məni.

Sev məni, necə ki, sevirəm səni
Səni sevə-sevə əzab çəkirəm
Ramizin köksündə alışıb, yanan
Alovlu bağçada çiçək əkirəm.

## Tanrı payımsan

Tale hədiyyəsi, tanrı payımsan,
Sənsiz bu həyatım, tamam boş olar.
Sən sönməz səmada günüm, ayımsan,
Parlaq bəxt ulduzum sənsiz daş olar.
Bilirəm sevirsən, sevirsən məni,
Sən mənim bir dünyam olandan bəri.
Sevmişəm, sevirəm hər zaman səni,
Sənsən həyatımın məlhəm cövhəri.
Çiçəkdən gözəlsən, günəşdən gözəl,
Ətrinlə gül çöhrən əsiriyəm mən.
Səni gözləyirdim çox illər əzəl,

Əlvida olmasın heç zaman gülüm

Hələlik deyirsən ayrılan zaman,
Əlvida olmasın heç zaman gülüm.
Hicranı yox edək, verməyək aman,
Sənli qoşa olsun hər gələn günüm.

Ürəyimin gözəl bir guşəsi var,
O guşəni zəbt etmisən, əzizim.
Bülbül naləsindən incə səsi var,
O cənnət bağıdır hər ikimizin.

Səni de, unutmaq olarmı gülüm,
Bu dünya uçular mənim başıma.
Günəş əbədidir, solarmı gülüm,
Günahkar yazarlar qəbir daşıma.

## Susdum

Susdum ki, qızıla dönmək üçün mən,
Saraldım üstümü örtdü duman, çən.
Bulaqdan vermədin, bir ovuc su sən.
Partladı dil dodaq, parə-parə tən.

Firavan istədim olam həyatda,
Mən gəzdim piyada, sən çapdın atda.
Elə bil zamanım, durub, saat da,
Donub vaxt dövranım, olub o saxta.

Əlləri qaldırıb tanrı səslədim,
Sənin bu sevginə ümid bəslədim.
Çoxları dedilər sənsən qismətim,
Gəzişdim şaxtada, lakin əsmədim.

Dünya gözəlliyə qərq olan zaman,
Mənimçün zülmətə dönmüşdü hər yan.
Sən cəllad deyilsən, gəl bir ver aman,
Toxunma Ramizin qəlbinə dayan.

**Sənin qollarında ölmək istədim**

**Düşünərək səni uzandım yatam,**
**Röyada hüsnünü görmək istədim.**
**Yorğun gündüzümün əzabın atam,**
**Sənin qollarında ölmək istədim.**

**Hər gecə təkrara dönür səhnələr,**
**Əllərim çöhrəndən saçları yığır.**
**Dəniz sahilini yuyur ləpələr,**
**Mənim göz yaşımı gözləyir baxır.**

**Bu gecən xeyirli qoy olsun sənin,**
**Sabahın sübh çağı mənli açılsın.**
**Ramiz, süz badənə mey dolsun sənin,**
**İç ki, sübh dumanlı, çənli açılsın.**

Qoyma bu sevgimə, ümidsiz məni

Çəmənlik laləzar, çiçəklə dolu,
Tanrımın bəxş edən qismətdi yolu.
Əlindən öpəcəm, sən qaldır qolu,
Qoyma bu sevgimə, ümidsiz məni.

Budaqlar əyilib torpaq üstünə,
Gözlər də kor olur, duman, tüstünə.
Qoysalar tərs baxar, hamı büstümə,
Qoyma bu sevgimə, ümidsiz məni.

Bulaqlar çağlayır, daşmaq istəyir,
Könlüm bu dağları aşmaq istəyir,
Ağlım düşüncəmlə çaşmaq istəyir,
Qoyma bu sevgimə, ümidsiz məni.

Yox etdin ağlımı

Gözəllik hüsnündə cəm olub sənin,
Bütün çalarlarla bil ağuşunda.
Qarşında çiçəklər tam solub sənin,
Yox etdin ağlımı neyçün başımda.

Sənli bu dünyadan ilham alaraq,
Yaşamaq, yaratmaq istəyir könlüm.
Hər dəfə qarşımda donub qalaraq,
Ruhumu cismimdən qopardın gülüm.

Onsuz da büsbütün varlığım sənin,
Sənsiz mövcudluğum nəyimə gərək.
Əlində ölümüm, sağlığım sənin,
İnsafla davran ki, sevgini görək.

O varsa, axı mən kiməm

Gözləyirsən dindirməyə,
Ürək sözün bildirməyə,
Əlin gəlmir söndürməyə,
O varsa, axı, mən kiməm,
Yolun üstə nazik siməm.
Qırıb atmağa nə var ki,
Qoyub satmağa nə var ki,
Burub yatmağa nə var ki,
O varsa, axı, mən kiməm,
Yolun üstə nazik siməm.
Hər cürə zaman görmüşəm,
Dərdimə yanan görmüşəm,
Bəzən də yalan görmüşəm,
O varsa, axı, mən kiməm,
Yolun üstə nazik siməm.

Kim bilir sənsiz, mən necə olardım

Düşünürəm səni yerli, ya yersiz,
Sən hər ikisində, varsan yanımda.
Bu ağ buludlardan yüksəkdir hədsiz,
Allaha şükür var, mənim canımda.

Şükürlər edirəm sənli qismətə,
Kim bilir sənsiz mən necə olardım.
Valehəm hüsnündə olan ismətə,
Kimsəsiz, bəlkə də tənha qalardım.

Tanrımla sən mənə kömək edərək,
Cənnəti bəxş etdiz, mənə dünyada.
Tale yollarını birgə gedərək,
Keçmişlə bu günü salıram yada.

**Bu dünya sənsiz heç, hədər**

**Mən sevginin bil bəxtiyəm,
Zamanının bir vaxtıyam,
Camalının gül taxtıyam,
Səninçün ölməyə dəyər,
Bu dünya sənsiz heç, hədər.
Zülmət qaranlığa möhtac,
Meyvələr budağa möhtac,
Şəlalələr dağa möhtac,
Səninçün ölməyə dəyər,
Bu dünya sənsiz heç, hədər.
Tutmaz xəbər, ac da toxdan,
Sinəmə taxdığın oxdan,
Əzab çəkir qəlbim çoxdan,
Səninçün ölməyə dəyər,
Bu dünya sənsiz heç, hədər.**

Tale tanrıdandır, bəxş edir o bəxt

Əlvidaya bənzər yazdığın sətir,
Tələsik nəticə çıxartma heç vaxt.
Mənli o günləri göz önə gətir,
Tale tanrıdandır, bəxş edir o bəxt.

Yat ki, yuxuların qoy şirin olsun,
Çalış ki, məni də gör bu röyada.
Mayası mənalı, həm dərin olsun,
Sevgi çələngini hör bu röyada.

Canımın içində, sən qanımdasan,
Gözləmə bu zaman geri dönəcək.
Xəyalən Ramizin sən yanındasan,
Söz verib röyada səni görəcək.

Sənsiz də ürəyim, bil səninlədir

Düşünüb, daşınmaq həvəsindəyəm,
Sənli bir əhatə qəfəsindəyəm.
Sinənə çəkdiyin nəfəsindəyəm,
Sənsiz də ürəyim, bil səninlədir.

Bülbül ayrılarmı, güldən, çəməndən,
Həyatın sevincin alıram səndən.
Sən elə düşünmə uzaqsan məndən,
Sənsiz də ürəyim, bil səninlədir.

Hər gün asta-asta girdin qəlbimə,
Gözə görünməyən sirrdin qəlbimə.
Qızılgül ləçəyin sərdin qəlbimə,
Sənsiz də ürəyim, bil səninlədir.

Allaha sevginlə yaşa dünyada

Kədərlə örtülmüş gözlərində nur,
Yeni bir həyatı, sən qəlbində qur.
Bissimillah edib, sən ayağa dur,
Allaha sevginlə yaşa dünyada..

Ötən xatirələr getməyib qalmış,
Hüsnündə gözəllik yuxuya dalmış.
Sevgini, sevinci, əlindən almış,
Allaha sevginlə yaşa dünyada.

Kimin, kimliyi də bilinər onda,
At kədər libasın, gəzmə bu donda.
Qarşında bədxaqlar diz çökər sonra,
Allaha sevginlə yaşa dünyada.

Şeirlərin tacı, bil ki, qəzəldir,
Bu gün son deyil, hər gün gözəldir.
Bütün sevgilərdə tanrı əzəldir,
Allaha sevginlə yaşa dünyada.

## O yağış deyil

O yağış deyil ki, göz yaşlarımdır,
Ayrılıb buluddan düşürlər yerə.
Şahid gözlərimə kiprik, qaşımdır
Bir zaman ağlarkən düşmüşdü belə.

Dözməyib daş üstə, buxara dönmüş,
Pərvaz eyləmişdi səma qoynuna.
Elə ki, kədəri çöhrəmdə görmüş,
Düşür dözməyərək, zaman oyununa.

Nə göydə, nə gözdə, yaşlar dözməyir,
Hər iki məkanda, o var dünyada.
Birisi səmadır, o birisi yer,
İnsan yaşadıqca, dövr edir o da.

## G ü n d ə l i k

Gündəlik tutmuşdum şeirlərindən,
Ağlıma gəlməzdi bunlar sənindi.
Feyziyab olmuşdum sətirlərindən,
O kövrək duyğular tamam mənimdi.

Elə bil sən mənim nəbzimi tutub,
Təsvir eyləmişdin həyat tərzimi.
Şeir dinləyərkən tamam unudub,
Qəhərdən boğurdun mənim səsimi.

Bu gün sən xəstəsən, mən də həkimin,
Sənə toxunarkən hissləri qovur.
Sənin yazdıqların daha de kimin,
Qəlbini mənim tək beləcə ovur.

Kaş sənin kimliyin bilinməyəydi,
Adi bir xəstə tək gəlib gedəydin.
Laləzar, Əminə şeir deyəydi,
Xəyallar qoynunda təqdim edəydin.

Azərbaycan uşaqları

Qarşısında durmaz bir sədd,
Gələcəyi eyləyər fəth.
Düşmən üçün olub bir dərd,
Azərbaycan uşaqları.

Tarixiylə fəxr edirlər,
Azad yolda bir gedirlər.
Ana yurdu çox sevirlər,
Azərbaycan uşaqları.

Ucaldırlar məğrur səsi,
Elm, idman təcrübəsi.
Məətəl qoyub hər bir kəsi,

Azərbaycan uşaqları.
Azərbaycan uşaqları,
Azərbaycan uşaqları,

Üzü nurlu.
Həm qürurlu,
Azərbaycan uşaqları.

Darıxır bu könlüm özünü yetir

Səni gözləyirəm sahildə tənha,
Dəniz də gözləyir gəlişini bil.
Sən deme ayrılıq daş-qaşdan baha,
Bunu sübut etdi ötüb keçən il.

Gəl, gör ay insafsız xırda ləpələr,
Necə də sahilə hey sığal çəkir.
Sənin o qəlbində yatan şübhələr,
Yalan, həqiqətə yenə dağ çəkir.

Bu səmanın nuru, dənizin səsi,
Barışıq istəyir, verərək dərsi.
Ümidsiz, biçarə olan hər kəsi,
Ayağa qaldırıb məlhəm nəfəsi.

Gəl, qara buludlar səma örtmədən,
Çırpınan könlümün sevincin gətir.
Gəl durna qatarı sənsiz ötmədən,
Darıxır bu könlüm özünü yetir.

Bu sevən ürəyi necə susdurdun

Elə bilirsən ki, rahatdı hər şey,
Sənə mən deyirəm, səninləyəm ey.
Hər gecə içirəm qəmli-qəmli mey,
Bu sevən ürəyi necə susdurdun.

Susdurmaq olsaydı nə vardı sənsiz,
Bu geniş küçə də olmazdı ensiz.
Dağ da yaranarmı, gəl söylə dənsiz,
Bu sevən ürəyi necə susdurdun

Əllərin qoysaydın sinəm üstünə,
Od tutub qarışar alov, tüstünə.
Qoymazlar gül, çiçək sənin büstünə,
Bu sevən ürəyi necə susdurdun.

Tutdun əllərimdən nədən insafsız

Günəş boylanarkən eşqin dağından,
Bülbül xəbər verdi bahar çağından.
Dərərkən meyvəni eşqin bağından,
Tutdun əllərimdən nədən insafsız.

Alıb-satan dünya tamam bazarkən,
Tənhalıq qoynunda hər gün azarkən.
Mən öz qismətimə əl uzadarkən,
Tutdun əllərimdən nədən insafsız.

Bədbəxtlik üstündə qurulan səadət,
Dağılar, yol verməz, bilginən adət.
Hər gün günahkarı göstərər afət,
Tutdun əllərimdən nədən insafsız.

Doymuram öpərkən bal dodağından

Dağa, dərələrə məni salmısan,
Belə şirinliyi hardan almısan.
Arı pətəyində yatıb qalmısan,
Doymuram öpərkən bal dodağından.

Sənlə tamamlanır ruhumun cəmi,
Hər bir pərdəsində cənnət məlhəmi.
Alaraq cismimdən, qüssəni, qəmi,
Doymuram öpərkən bal dodağından.

Qarışıb şərbətə dönmüsən nədən,
Əriyir qarşında büsbütün bədən.
Öpüb, asta-asta, çıxaraq gedən,
Doymuram öpərkən bal dodağından.

Qurbanlıq edərkən özümü sənə,
Dünya ləzzətini bəxş etdin mənə.
Ramiz, öldürəcək öpüşlə yenə,
Doymuram öpərkən bal dodağından.

Sənsiz bu dünyada tənha qalıram

Səni düşünməyə vardar edirsən,
Nədir bu möcüzən, tilsimin, varın?
Sən mənim dünyamı bil dar edirsən,
Buna necə çatır, de ixtiyarın.

Elə bil hər şeylə barışıb tamam,
Sənin istəyinlə nəfəs alıram.
Gündüzüm gecəmlə qarışıb tamam,
Sənsiz bu dünyada tənha qalıram.

De, nədən gizləndin yox idin əzəl,
Elə bil dünyanın cənnət bağısan.
Ey bihuş ətirli bənzərsiz gözəl,
Açılan sübh çağın, şəfəq çağısan.

S o n g ö r ü ş

Bu gün istəmədən son görüşümüz,
Gəlsə də könlümdür sənə əmanət.
Tükənməz arzumla durub üzbəüz,
Deməyə sevgimi tapdım cəsarət.

İllərlə bəslədim könlümdə səni,
Şirin xəyalların qucağında mən.
Unudan deyiləm ömrümdə səni,
Nə indi, nə gələn qocalıqda mən.

Dolub, boşalacaq gözlərimdə yaş,
Xəyalın qarşımda canlanan zaman.
Tanrı yaratsaydı əgər məni daş.
Bu qədər əzablar çəkməzdim inan.

Sənsiz nə edəcəm, necə olacaq,
Etibar etmirəm gələn sabaha.
Ramiz, bu məhəbbət mənlə qalacaq,
Həm yerdə, həm göydə ruhumla daha.

G ö z l ə y i r ə m

Mən sevgilim, Gədəbəyin özündəyəm,
Şır-şır axan sərin bulaq gözündəyəm,
Əhdi peyman edənlərin sözündəyəm,
Gözləyirəm şair gələ Gədəbəyə,
Ürəyimi açam deyəm Ramiz bəyə.

Onu gördüm, mən efirdə alovlandım,
Sevdim onu, şeirindən qidalandım,
Xoşbəxtliyi düşünmədən onda sandım,
Gözləyirəm şair gələ Gədəbəyə,
Ürəyimi açam deyəm Ramiz bəyə.

Ayaqyalın o dağlara mən getmişəm,
Haca qaya ocağına əhd etmişəm,
Çox arzuma həyatımda mən yetmişəm,
Gözləyirəm şair gələ Gədəbəyə,
Ürəyimi açam deyəm Ramiz bəyə.

Tutqun durma ay buludlar çıxın gedin,
Siz Bakıda şimşək çaxın, yağış edin,
Göz yaşı tək damla-damla düşün, deyin,
Gözləyirəm şair gələ Gədəbəyə,
Ürəyimi açam deyəm Ramiz bəyə.

D a r ı x ı r a m

Sıxılırdı qəlbim, darıxdım tamam,
Zəng etdim can sözün eşidəm səndən.
Nəfəsin eşitcək bil çıxdım tamam,
Sıxılmış məngənə çərçivəsindən.

Gülür gözlərimdə, kədər də çaşqın,
Nələr baş verdiyin hələ anlamır.
Elə bil sel axıb, gedərək daşqın,
Çöhrəmdə səsindən sevinc canlanır.

Çoxdan pərvazlanıb uçmurdu könlüm,
Bənzəri qəfəsdə bülbülə dönmüş.
Qara buludlarda yazılan ölüm,
Bu gün təravətli, bir gülə dönmüş.

Yox edib kədəri, bəxş etdin sevinc,
Demək sevinməyə layiqəm hələ.
Ramizin xəbəri qoy olmasın heç,
Qoruyub yaşadaq sevgini belə.

Solğun çiçəklər

Nifrətlə qalırsan yaddaşımda sən,
Səndən ayrılmaqçün bir gün seçirdim.
Əlvida deyirəm o keçmişə mən,
Səni unutmaqçun şərab içirdim.

Yenə də məstliyin yandırır səni,
Əhvalım xoş ikən, əzab çəkirsən.
Üstümdən qovuram dumanı, çəni,
Solğun çiçəkləri sənsə əkirsən.

Açan deyil artıq, solan çiçəklər,
Onun da bir dövrü, zamanı vardı.
Üstündə gəzərkən, sən tək böcəklər,
Dözmədi, bitdi yol, yox idi ardı.

Əsdin bir gilavar küləyi təki,
Qərarsız, məntiqsiz, yersiz, səbirsiz.
Yox olan ilanın ürəyi təki,
Süründün dağlarda, düzlərdə, fərsiz.

Mənim sübh çağımın yeni bir nuru,
İsidir ruhumu, cismimi tamam.
Onun xoşbəxt dolu, sevgi qüruru,
Düşübdür üst-üstə məhəbbəti tam.

Nə durmusan, baxırsan mat-mat mənə

Elə bilirsən işlərimiz yağ gedir,
Astarı qapqara üstü ağ gedir,
Tərpənirəm elə bil ki, dağ gedir,
Mən qaçıram sən də qaçıb çat mənə,
Nə durmusan, baxırsan mat-mat mənə.

Bura Bakıdı, elə bilmə, Çindəsən,
Oturmusan səhər, axşam tində sən,
Elə get otur, toyuq təki hində sən,
Mən qaçıram səndə qaçıb çat mənə,
Nə durmusan, baxırsan mat-mat mənə.

Tənbəl oğlu, çörəyi tən istədin,
Gözün görən kim oldusa pislədin,
Qəley çəkib guya ki, sən mistədin,
Mən qaçıram sən də qaçıb çat mənə,
Nə durmusan, baxırsan mat-mat mənə.

İstəsən can verib, sən sağaldarsan

Yenidən həyatda şən olmağımı,
Dağların üstündə çən olmağımı.
Sənli bu dünyada tən olmağımı,
İstəsən can verib, sən sağaldarsan.

Meyvəni budaqla əyərdim sənə,
Səni sevdiyimi deyərdim sənə.
İndi bir yük olub, bu dərdim sənə,
İstəsən can verib, sən sağaldarsan.

Zaman yetirəndə cana xəstəlik,
Hopub dövr eyləsə qana xəstəlik.
Məhəbbət odunda yana xəstəlik,
İstəsən can verib, sən sağaldarsan.

Gözlərin qoy baxıb öldürsün yenə,
Bircə şirin dilin bəs eylər mənə.
Demə ki, demədim, deyirəm sənə,
İstəsən can verib, sən sağaldarsan.

Sevgi qanadında dönəcək şaha

Bütün varlılardan daha varlısan,
Dövlətin məhəbbət, varın sevgidir.
Dağlar tək möhtəşəm başı qarlısan,
Varı istəməkdə məqsədin nədir?

Hansı bir varlını tanrı yaşatmış,
Bəlkə də, bilmirəm, sən bilən hanı?
Ən dərin quyuya kimsə daş atmış,
Məcbur eyləmə ki, çıxmasın canı.

Səhər açılanda şükürlər edib,
Sevinclə qalxırıq yataqdan bu an.
Dünyadan nə qədər insanlar gedib,
Məgər nişanəsi olmayıb zaman.

Var üstə dağılıb, tamahdan ölkə,
Napalyon, Çingizxan, Hitler səbəbkar.
Yanıb, talan olub gör neçə bölgə,
Odur ki, dövlətə olma tələbkar.

Sevgidir meyarı qoca dünyanın,
O varsa həyatda xoşbəxtsən daha.
Xəzinə istəyin, dövlətin, varın,
Sevgi qanadında dönəcək şaha.

Dost kimi qalmağın öz ləzzəti var

Sevgi, məhəbbətlə yaşamaq olar,
Necə ki, sevgidən ağac verir bar.
Dağa məhəbbətdən əlbət düşür qar,
Dost kimi qalmağın öz ləzzəti var.

O qısqanc baxışlar alışan zaman,
Saxla atəşini söndürmə bir an.
Sənə qurban olsun, bu cismimdə can,
Dost kimi qalmağın öz ləzzəti var.

Şübhələrdən uzaq bağçada gül ək,
Fırlan ətrafımda pərvanələr tək.
Yanmaq fikirindən sevgilim əl çək,
Dost kimi qalmağın öz ləzzəti var.

Əfsanə sanaraq bunu biləcək,
Biri qeybət edib, biri güləcək.
Biri baxa-baxa bizə öləcək,
Dost kimi qalmağın öz ləzzəti var.

Əlini üzdü əlimdən

Yox söylədi canan, əlini üzdü əlimdən,
Etdim onu yəqin narahat küsdü əlimdən.
Bir yaylığı qalmış, ətiri bihuşi cənnət,
Sərdim sinəm üstə, qoxusu dözdü əlimdən.

Min bir, ya nə qədər var Leyli, ya Məcnun,
Dünya bəşərin tək şərabın süzdü əlimdən.
Döydüm, buğda dənəsin ki, qalsın un,
Sındı dəyirman, çaxçax da bil susdu əlimdən.

Ancaq bilirəm qəlbinə hakim deyiləm mən,
Söz düşdükdə ki, məndən, dodağı büzdü əlimdən.
Ramiz buna tədbir, buna əncam edə bilsən,
Bəlkə o zaman, hərəyə şərbət, düzdü əlimdən.

Nə bilim

Söylədim ey gül sevirəm,
Çöhrədə ağ tul sevirəm.
Ağuşunda sülh sevirəm,
Söylədi canan, nə bilim.

Sevgini həsrətdi yıxan,
Sübh çağı günəşdi çıxan.
Zindanı zülmətdi sıxan,
Söylədi canan, nə bilim.

Həyatın eşq cövhəri var,
Hər gecənin səhəri var.
Arzusu var, gövhəri var,
Söylədi canan, nə bilim.

Gördükdə qalmayır halım,
Pətəkdə tükənib balım.
Nə deyirsən, gedim, qalım,
Söylədi canan, nə bilim.

Məşəlsən

Məşəlsən, yandırıb kül eyləyərsən,
Əgər əllərimlə toxunsam sənə.
Həyatsan, bagçanı gül eyləyərsən,
Bülbülün naləsin eşitsin yenə.

Utancaq çöhrəndə, qızaran yanaq,
Bağrımın qanı tək, eyni rəngdədi.
Əsirin oluram qarşında ancaq,
Sənin əllərində, həyat səndədir.

Ayrılıb gedirsən, gəldiyin kimi,
Lal olub, sükuta qərq oluram mən.
Alaraq kamanı, dartaraq simi,
Məni nişangaha döndərmisən sən.

Sən nə yaxşı ki, varsan

Çətinə duşdüyün an,
Açarkən sübhünü dan.
Sıxılarkən məndə can,
Sən nə yaxşı ki, varsan.

Çayda sellər axanda,
Göydə şimşək çaxanda.
Dönüb mənə baxanda,
Sən nə yaxşı ki, varsan.

Badəmə mey süzəndə,
Dodağını büzəndə.
Həyatdan əl üzəndə,
Sən nə yaxşı ki, varsan.

## Şeirdir şairin ilham mənbəyi

Şeirdir şairin ilham mənbəyi,
Onun düşüncəsi, beynin əməyi.
Hissləri tutmaqçün azacıq səyi,
Bəs edər görməyə, hər cür kələyi.

İstədiyi sözü min cür bəzəyib,
Sevdirir, sevilir, təqdim edərkən.
Hərdən zəncirləyib, hərdən dözməyib,
Etiraf eyləyir sevgi görərkən.

Nəyinə lazımdır dünyanın işi,
Əgər qarşısında ağ kağız varsa.
Yazır yeni tarix, sonra keçmişi,
Yaddaşa qaytarır, kimdə o, darsa.

Üç şeydən narahat olur həmişə,
Ağ kağız, bir qələm, bir də düşüncə.
Bunlar bir yerdəsə dönüb günəşə,
Qərq olur nuruna, həm də sevincə.

Ramiz də taleyin hökmüylə gedir,
Tanrı vergisiylə, qəlbin səsiylə.
Vətənədir amalı, qürur, fəxr edir,
Azərbaycan adlı öz ölkəsiylə.

Sən məni ağladıb, həm güldürürsən

Alırsan canımı səni görəndə,
Saçları sinənə sərib hörəndə.
Çaşıb məhləmizə hərdən gələndə,
Sən məni ağladıb, həm güldürürsən.

Çənəndə düzülən ikicə xaldır,
Çöhrən ağappaqdı, yanağın aldır.
Sözlərin həm tikan, həm də ki, baldır,
Sən məni ağladıb, həm güldürürsən.

Olmusan əl çatmaz, çox müşgül qala,
Dönmüsən şəkərə, noğula, bala.
Gülürəm özümə, düşdüyüm hala,
Sən məni ağladıb, həm güldürürsən.

Sual eyləsən ki, nöş ağlayırsan?
Axı sən sinəmi, bil, dağlayırsan.
Hara gedirəmsə, yol bağlayırsan,
Sən məni ağladıb, həm güldürürsən.

Canlanır qarşımda sənin surətin,
Gözündə imkan var, sözdə qüdrətin.
Səni qaçırdardım, olsa cürətim,
Sən məni ağladıb, həm güldürürsən.

**Kaş səni o gecə, mən görməyəydim**

**Bir axşam yıxıldın qarşımda yerə,
Buz idi şaxtadan, hər tərəf belə.
Təbiət insana qurmuşdu tələ,
Kaş səni o gecə, mən görməyəydim.**

**Tutub əllərindən qaldırdım səni,
Süzgün baxışlarla seyr etdin məni.
Elə bil sahilə üzürdü gəmi,
Kaş səni o gecə, mən görməyəydim.**

**Sən deme, dəniz tək, için təlatüm,
Çaşıb ilk görüşdə, dedin həyatım.
Molekul deyildin, sirli bir atom,
Kaş səni o gecə, mən görməyəydim.**

**Səhv etdim, əl verib, qaldıran zaman,
Əvvəldən qurulmuş, səhnəymiş o an.
Hər şey anlaşıldı, get kül olub yan,
Kaş səni o gecə, mən görməyəydim.**

**Deyilən kəlamın hikməti vardır**

**Suyun damlaları, daşı parçalar,**
**Kiçicik də olsa qüdrəti vardır.**
**Sözlər yersiz olsa, insan alçalar,**
**Deyilən kəlamın hikməti vardır.**

**Yer, kürə şəkilli, dövrü zamanda,**
**Tanrıdan güc alan dövləti vardır.**
**Gündüzlər günəşdən nuru alanda,**
**Gecənin qapqara zülməti vardır.**

**Dil açıb məhəbbət sevgi deyirsə,**
**Bunun lətafəti, qeyrəti vardır.**
**Aşiq səmadırsa, məşuq yerdisə,**
**Allahın möcüzü, heyrəti vardır.**

Səni düşünərək

Səni düşünərək uzandım yatam,
Röyada hüsnünü görmək istədim.
Yorğun gündüzümün əzabın atam,
Sənin gözlərindən öpmək istədim.

Gəldikdə röyama uzun saçından,
Səni mən özümə hörmək istədim.
Səhərin sübh çağı zərif əlindən,
Tutub bu dünyadan dönmək istədim.

Açdım gözlərimi tənha qalarkən,
Şam təki əriyib, sönmək istədim.
Röyalar qoynunda şərbət alarkən,
Bu səhər nədənsə ölmək istədim.

Bəlkə xoşbəxtliyim öz əlimdədir?

Nədən başlamalı, necə etməli?
Yollar eniş-yoxuş, necə getməli?
Arzular da çoxdu, necə yetməli?
Bəlkə xoşbəxtliyim öz əlimdədir?

Qapalı sandıq tək içimdə sirrlər,
Nədən bu qapağı açmayır əllər.
Keçir yavaş-yavaş beləcə illər,
Bəlkə xoşbəxtliyim öz əlimdədir?

Hər yana ümidlə baxır gözlərim,
Dil də başa bəla, çatmır sözlərim.
Tərsi-məssəb olur qalan izlərim,
Bəlkə xoşbəxtliyim öz əlimdədir?

Meyvə ağacından, qabıq soyuram,
Özümə söz verib, məqsəd qoyuram.
Sonra əməlimdən, bezib doyuram,
Bəlkə xoşbəxtliyim öz əlimdədir?

**Məni sevən çoxdur, bu qəlbim duyur**

Sənin gördüyün tək, heç də deyiləm,
İçimdə həm şaxta, həm atəş yatar.
Toxunsan donarsan bu buzlaqda sən,
Atəşim əhdimə, sevgimə çatar.

Səninçün buzlaqlı, bir məkanam mən,
Əgər meylin istər, buyur gəl yaxın.
Səninçün kol-koslu, bir tikanam mən,
İnanmasan cəhd et, əlinlə toxun.

Nə xeyirim vardır, nə də pisliyim,
Sənə bəxş eyləyəm, deyəm ki, buyur.
Ramiz, yaman tutur hərdən tərsliyim,
Məni sevən çoxdur, bu qəlbim duyur.

Səni niyə sevdim, sevgili canan

Səni niyə sevdim, sevgili canan,
Bəlkə bu tanrıdan qismətim olub.
Yolunda şam təki günbəgün yanan,
Sənə böyük sevgim həsrətim olub.

Ayrıla bilmirəm pərvanə təki,
Uçuram sevgimin cazibəsində.
İtir tarazlılıq, qalmayır çəki,
Adi söz eşitcək incə səsində.

Bir gün dözməyərək, yadında sənin,
And içdim, diz çökdüm, mən ki qarşında.
Böyük ehtiramla adına sənin,
Şeirlər yazıram, fikrin başımda.

Məni unutdurub tamam özümə,
Özümə, ağlıma hakim olmusan.
Ramiz, çox şübhəli dəyir gözümə,
Deyirəm ey canım, canım almısan.

Sevdalı gecə

Dünyada hər şeydən gözəldən gözəl,
Sənin gül çöhrəndi, gözəlliyindi.
Sən hələ həyata gəlmədən, əzəl,
Tanrıdan mənimlə bu taleyindir.

Gördüyün dənizdə titrəyən ləpə,
Səni sevdiyimi demək istəyir.
Ayağın altına ay nurun səpə,
Əsən meh nəğməsin bizə bəsləyir.

Məgər görməyirsən, səma kəhkəşan,
Libasa bürünüb sevdalı gecə.
Orda bir cüt ulduz, bizədir nişan,
Diqqət et, işığı parlayır necə.

Bu gün bir xatirə, bir də səadət,
Gecəsi qalacaq yaddaşında bil.
Ramiz, məhəbbətdə olurmu adət,
Şirindən şirindi, danışanda dil.

Mənim bu sevgimə qibtə edirsən

Cavanla oturub durmaq hələ ki,
Heç kəsə nə hörmət, izzət gətirmiş.
Onların sevgisi yalan belə ki,
Səninlə dövranı hədər keçirmiş.

Söyləsən bəs nədən, cavandan gəlir,
Deyirlər qocanı cavan saxlayan,
Xam, xəyal hisslərin uzağa gedir,
Doğmadır, vəfalı ömür bağlayan.

Bir nəfər söylədi, xəzinə tapdım,
Bir qızıl sandıqda, içində bir qız.
Onun paltarına bir sancaq taxdım,
Başına çevirdim düz üç dəfə duz.

Dedi: - neyləyirsən ey paxıl insan,
Mənim bu sevgimə qibtə edirsən.
Dedim: - o, bir şeytan, qoymayacaq can,
Bir gün görəcəksən, çılpaq gedirsən.

Belədir cavanın feylinə uymaq,
Səhv edib deyirlər, fərq etməz yaş da.
Qocalar cavana yedirdib quymaq,
Sonra iki qapaz, vururlar başa.

Qarşında sakitcə dururdum sənin

Yenə qarşılaşdıq sakit, sükutla,
Gözlərində qüssə, çöhrəndə kədər.
Ətrafda səs-küy idi, keçirdi kütlə,
Bizə bir nəfər də salmadan nəzər.

Diqqətlə baxaraq imdad içində,
Mənə eytiyacın duyurdum sənin.
Elə, mən özüm də, sən tək biçimdə,
Qarşında sakitcə dururdum sənin.

Qəfildən bilmədik kimsə toxundu,
İtələdi səni, tutarkən mən də.
Dilimdə ilk sözüm bağışla oldu,
Allah bağışlasın, söylədin sən də.

Artıq əllərimdə, ovcumda idi,
Bu, qısa zamanın, vaxt müddətində.
Ürək çırpınaraq hücumda idi,
Dözmürdü hərarət, həm şiddətində.

Bu gecən xeyirli, qoy olsun sənin,
Sabahın sübh çağı mənli açılsın.
Ramiz, süz badənə mey dolsun sənin,
İç ki,sübh dumanlı, çənli açılsın.

**Sənin pis vaxtına yəqin düşmüşəm**

**Baş aça bilmirəm, doğrusu səndən,**
**Sevgi, məhəbbəti, istədin məndən.**
**Olursan mehriban, həm qəddar nədən?**
**Sənin pis vaxtına yəqin düşmüşəm.**

**Bir gün can verirsən, bir gün zəhəri,**
**Atdan sən eşşəyə, qoyub yəhəri.**
**Bağışla deyirsən, günün səhəri,**
**Sənin pis vaxtına yəqin düşmüşəm.**

**Uşaq tək hərdənbir qaçıb yanıma,**
**Qurban eyləyirsən canın, canıma.**
**Hörmət eyləmədin adım, şanıma,**
**Sənin pis vaxtına yəqin düşmüşəm.**

**Düşərli, düşərsiz tale yolları,**
**Səninki hansıdır, açmış qolları.**
**Bəlkə seyr edəsən mənsiz onları,**
**Sənin pis vaxtına yəqin düşmüşəm.**

## Məni düşünürsən yağarkən yağış

Məni düşünürsən yağarkən yağış,
Sən də yaddaşımda daima varsan.
Seyr edib görmüşdüm, o, qısqanc baxış,
Sevgisin istəyir, çovğun, ya qarsa.

Verərdim sevgimdən dadmaqçün sənə,
Tərəddüd edirəm nədənsə hələ.
Qorxuram qəlbini həsr edib mənə,
Səninçün olaram, çıxılmaz tələ.

Darıxma ey gözəl gələr bir zaman,
Axar gözlərindən sevinc göz yaşı.
Bu yağan yağışlar, hərçənd anbaan,
Mum edər, əridər, qəlbindən daşı.

Gözü kor deyirlər, olur məhəbbət,
Qaranlıq dünyaya, baxmaq nə gərək.
Ramiz, qoy görüşək,o qızla xəlvət,
Sevgi bağçasında çiçəklər dərək.

Sevirəm deməyə tələsmə, sən sus

Minnətdar mənə yox, sən tanrıya ol,
Onun sevgisiylə görüşdük sənlə.
Nə fərq eylər, hara gedir yol,
Sonunda fikirlər bölüşdük sənlə.

Ayrı zamanlarda gəlsək də əfsus,
Eyni baxışlara malikik ancaq.
Sevirəm demeyə tələsmə, sən sus,
Çöhrəm al qırmızı, gözlər utancaq.

Təbəssüm yaranır dodaqlarında,
Gözlərin önünə gəldiyim zaman.
Qızılgül boylanıb budaqlarında,
Sənə valeh olur, baxarkən tamam.

Dünyanı sevməyə inan ki, dəyər

İstəyirəm sənlə danışam hər gün,
Bu gün tam bitməmiş səhər eşqiylə.
Sənsiz tənhalıqda oluram sürgün,
Sonsuz səhralarda su həsrətiylə.

Adın təkrar-təkrar çəkdikcə sənin,
Dönür, qabar olur dodaqlarım da.
Yox edir dağlarda, dumanla çənin,
Əks-səda edir qulaqlarım da.

Bircə yoxluğu da, yox etsək əgər,
Varlığın var olsa qarşımda mənim.
Dünyanı sevməyə inan ki, dəyər,
Okeanlar üzər yelkənli gəmim.

A y r ı l ı q

Ay üzü tutulmuş, görünmür hələ,
Narahat geyinir məhəbbət donu.
Allahın qisməti, istəyi belə,
Tale ayrılığı, beləymiş sonu.

Ayrılıq bir zindan, mən də məhbusu,
Varlığı var ikən, yoxluğu nədir?
Alıb əllərinə bir badəlik su,
Nə oldu, vermədi, gözlətdi məni.

İndi yoxsan, sən yanımda

Səni, səndən istəyirəm,
Necə məni məndən aldın.
Əməlini pisləyirəm,
Əllərinlə oda saldın.

Sakit keçən həyatımı,
Cəhənnəmə çevirdin sən.
Şahə qalxan bir atımı,
Cilovlayıb çevirdin sən.

Zamanımın ən pis vaxtın,
Sən yaratdın həyatımda.
Uçurdaraq eşqin taxtın,
Bayquş qaldın xəyalımda.

Niyə gəldin, neyçün getdin,
İndi yoxsan, sən yanımda.
Bəlkə bunu qəsdən etdin,
Şübhə yatır bu canımda.

Etdiklərin mənə bu gün,
Qayıdacaq bir gün sənə.
Diz çökərək sən günbəgün,
Yalvararsan inan mənə.

İncimə məndən

Bu gün necə oldu, yadımdan çıxdı,
Təbrik eyləmədim, unutdum səni.
Gecikən düşüncəm ürəyi sıxdı,
Qəfil yuxusundan oyatdı məni.

Bilirəm küsməyə haqqın da vardır,
Nə desən qəbulum olacaq bu gün.
Əlləri üzməyə haqqın da vardır,
Mərhəmət, xatirə qalacaq bu gün.

Bağışla, Allah da bağışlayandı,
Ad günü təbrikin qəbul et məndən,
Yanında olanlar alqışlayandı.
Rica eyləyirəm, incimə məndən.

Ü

rəyim yenə də səni istəyir

Yox elə bir insan yaşasın qəmsiz,
Şübhəli görünər qara saç dənsiz,
Yaşamaq çətindir inan ki, sənsiz,
Ürəyim yenə də səni istəyir.

Bu günə son deyib, sabah yenidən,
Düşünüb nigaran qalıram səndən,
Bəlkə də xəbərin heç yoxdu məndən,
Ürəyim yenə də səni istəyir.

Dəyişir günbəgün sevgidən halım,
İmdadla çırpınır, qəfəsdə canım,
Səninlə dövr edir, cismimdə qanım,
Ürəyim yenə də səni istəyir.

Nə üçün insafsız, olmusan belə,
Ümidim, ünvanım, səndədir hələ,
Cəzalandır məni, eşqinlə elə,
Ürəyim yenə də səni istəyir.

Çox mübarək, Oqtay Rza qardaşım

Səndə mətinlik var, həm də, cəsarət,
Şahin qürurun var, yoxdu əsarət.
Dostlar arzulayır, bu gün səadət,
Çox mübarək, Oqtay Rza qardaşım.

Həyat yollarında sən addım atdın,
Gecəni gündüzə beləcə qatdın.
Şükürlər olsun ki, arzuna çatdın,
Çox mübarək, Oqtay Rza qardaşım.

Şeirində Vətənə sevgilər yaşar,
Adınla o məğrur sərhədlər aşar,
Sinən bir çeşmədir o, dolub daşar.
Çox mübarək, Oqtay Rza qardaşım.

Ağarıbdır uca dağlar tək başın,
Vaxtında atmısan cavanlıq daşın,
Təbrik eyləyirəm yetmiş beş yaşın,
Çox mübarək, Oqtay Rza qardaşım.

Nə olar, sevgilim incitmə məni

Hər gün qoşa atdıq, yollarda addım,
Adınla bağlandı əbədi adım.
Öpdüyüm dodaqdan təkrar ver dadım,
Nə olar, sevgilim incitmə məni.

O, gözəl gözlərin gülümsəyəndə,
Dilin şirin-şirin canım deyəndə.
Diz çöküb qarşında qamət əyəndə,
Nə olar, sevgilim incitmə məni.

Bərabər doyünür bizim qəlbimiz,
Tanrıdan yoğrulub, safdır sevgimiz.
Bir yerdə biz olsaq, olmaz dərdimiz,
Nə olar, sevgilim incitmə məni.

Səni bəsləyirəm ürəyimdə mən,
Baxsan gözlərimə, bunu görərsən.
Laqeyd deyilsən bu sözlərə sən,
Nə olar, sevgilim incitmə məni.

Yenə də günahkar özüməm

Sənə toxunmaq da, toxunmamaq da,
Mənə bil günahdan, günahdır inan.
Sətirlər qarışıb oxunmamaqda,
Yenə də günahkar özüməm canan.

Günah eylədikcə qarşımda zaman,
Zamana qoşulub günah edirəm.
Zaman bilə-bilə, məndən alır can,
Qul olub onunla birgə gedirəm.

Sənə ayırmağa qalmayır vaxtım,
Zaman məhbusuna mən dönə-dönə.
Səninlə oyaqdı, yatmayıb bəxtim,
Onu görəcəksən, sən dönə-dönə.

İndi səhralarda tənha qalmışam

Səhra düzlüyünə bənzəyir yolum,
Burda nə cığır var, nə də çəmənlik.
Sanki bu səhrada açılmır qolum,
Bəlkə də bu səhra, deyildir mənlik.

Sən demə varlığın yaşadıb məni,
Zövq ilə şərəfi səndən almışam.
Yanımda olarkən, unudub səni,
İndi səhralarda tənha qalmışam.

Gəldiyim bu yolu, dönsəydim geri,
Görən, mən yenidən tapardım səni.
Tanrı göstərsəydi, əgər o yeri,
Diz üstə qarşında görərdin məni.

Sevgimi başımdan ata bilmirəm

Sevgilim sən yatdın, mən isə oyaq,
Neçə gecələrdi yata bilmirəm.
Nə üçün eşqimə olmadın dayaq,
Sevgimi başımdan ata bilmirəm.

İndi uzanaraq rahat yataqda,
Bəlkə də yadına düşmürəm sənin.
Mən isə narahat gəzib otaqda,
Yolun axtarıram sənli cənnətin.

Nə üçün, bu eşqin işgəncə verən,
Məni dəli divan eyləmisən bil.
Bir an sakitliyin olacaq görən,
Titrəyir dodaqlar arasında dil.

Səhər ümidiylə gecə keçəydi,
Arzum çin olaydı, sənli istəyə.
O gözəl gözlərin məni seçəydi,
Bir rəhmin gələydi, mən tək xəstəyə.

## Uzaqda olsam da

Uzaqda olsam da səninəm ancaq,
Aramızda olsa dənizin özü.
Sənin atəşində yanan bir ocaq,
İlk gündən olmusan ocağın gözü.

Sən mənim ruhumda canımda gəzib,
İxtiyar sahibim olmusan daha.
Uzaqda olsan da şəkərdən əzib,
Sən şərbət badəmə dolmusan daha.

Məhəbbət çırağı yandı o zaman,
Gözəl gözlərindən ildırım çaxdı.
Buludlar od tutub, yağarkən leysan,
Mənim gözlərimdən damlalar axdı.

Əlimdə olsaydı əgər ixtiyar,
Ürəyi çıxarıb təqdim edərdim.
Qəbul eyləsəydin, olub bəxtiyar,
Cənnətə səninlə birgə gedərdim.

Əbədi dünya

O dünya, bu dünya, əbədi dünya,
Allahın əlində qönçə çiçəkdir.
Var olan, yox olur, səhnədi dünya,
Tanrı sevgisində min bir ləçəkdir.

Gəlib qoxlamaqçün insan ətrini,
Nədən gəldiyini özü bilməyir.
Alın yazısı var, bircə sətrini,
Açmaq istəyənlər çözə bilməyir.

Dolu, möcüzəylə maraqlı dünya,
Yoxdur nə təqvimi, zamanı onda.
Ay, ulduz, günəşli, çıraqlı dünya,
Rəngləri ağ-qara seçib bu donda.

Donu kainatdır, yoxdur nöqtəsi,
Nələr görmək olar, görünməz yoxda.
Ramizin Allaha olan sevgisi,
Yaşadır ilhamın, tərtəmiz yoxda.

Sənin söylədiyin məhəbbət hanı

Susursan, çoxdandı gəlməyir səsin,
Elə bil mən yoxam, yoxdu heç kəsin.
Bəlkə xatirələr eyləyir bəsin,
Sənin söylədiyin məhəbbət hanı?

Nədən belə etdin, anlamadım heç,
Səhv edib yalvardın, günahımdan keç.
Keçdim, bağışladım, başqa yalan seç,
Sənin söylədiyin məhəbbət hanı?

İçində dövr edən, şaxta nədəndir,
Sözlər tək gözlərdə, saxta nədəndir.
Giley eyləyirsən, vaxta nədəndir,
Sənin söylədiyin məhəbbət hanı?

Mən əzab içində qalsam da yenə

Sən də canım olub, cananım olub,
Gəl yaşat nə olar xoşbəxt, firavan.
Sənin bu varlığın muradım olub,
Qoca görsənirəm, olsam da cavan.

Sən atan qədəmdən, tozlar qalxarkən,
Uduram havadan düşmədən yerə.
Gülürsən hər dəfə dönüb baxarkən,
Mən əzab içində qalsam da yenə.

Bilirsən sevgimin qədəri hədsiz,
Ölçüsü yoxdur ki, göstərəm sənə.
Yəqin istəmirsən saf, billur, təmiz,
Heç cürə meylini salmırsan mənə.

Gülüşün, qəhqəhən, hər yana uçur,
Odur ki, oturub gözləyəm gərək.
Harda şam yanırsa pərvanə uçur,
Deyirsən, alışıb yanmağın görək.

O, yəqin məhəbbət, nədir bilməyir

Hava da soyuqdur gətirib şaxta,
Əsirəm qəlbimdə sevgimlə birgə.
Mənim eşqim düşüb şaxtalı vaxta,
Bənzəyir qapqara mövcud bir irqə.

Yuduqca qaralıq getməyir ondan,
Neçə ki, imdada cavab gəlməyir.
Halıma kənardan gülərkən nadan,
O, yəqin məhəbbət nədir bilməyir.

Sən edib dilənçi gəzdirərək ac,
Saldın səhralığa, çöl, biyabana.
Bir gecə qoynunda ağardaraq saç,
Döndüm Məcnun adlı bir divanəyə.

Əfsus məhəbbətim coşub daşsa da,
Qayalar yenə də, kəsir qarşısın.
Məhdud sərhəddini tamam aşsa da,
Səndə eşq oyansın, mən tək alışsın.

Bir bəla olmusan, mənim başıma

Necə başladısa bilmədim onu,
Düşdüm təsirinə, ey nazlı sona.
Bilinmir yox olan sevginin sonu,
Girərsə məhəbbət rəngbərəng dona.

Duman, çən kimisən, hələ görünməz,
Nə gözlərdə nurun, nə dildə sözün.
Sənin tilsimində heç nə bilinməz,
Sirli bir aləmsən, bəlkə də özün.

Tapmacaya dönüb, çıxdın qarşıma,
Harda dolanıram orda da varsan.
Bir bəla olmusan, mənim başıma,
Nə məni sevənsən, nə ayrılansan.

Vardır min sevənin, birisi də mən

Bəlkə də bir qədər qəribə gələ,
Vardır min sevənin, birisi də mən.
Etiraf edənlər onlardı hələ,
Susub lal dinməzi, ölüsü də mən.

Cəsarətim çatmır deməyə sözü,
Hətta əzbərləyib, yan-yana qoysam.
Qarşında durarkən, seyr edib gözü,
Çaşıb odlanıram necə yanır şam.

Sənsiz bu dünyada buz tək donaram,
Etiraf etməkçün sənə düzünü.
İztirab, əzabdan heykəl quraram,
Sənə göstərməkçün eşqin özünü.

C ə f a k e ş

Dünyada yaşayan deyiləm ki, tək,
Oluram əzabı olana dəstək.
Ataya, Anaya hər kəsə tək-tək,
Elə bil içimdən səslənir ki, çək.

Çəkirəm qəlbimdən axan istəyi,
Kasıba, yoxsula edirəm kömək.
Yaşlıya baş əyib, edib dəstəyi,
Beləcə haqq yolda gedirəm demək.

Görənlər cəfakeş deyirlər mənə,
Hələ ki, xəstələr, möhtacdı həbbə.
Mənim bu əqidəm qalacaq yenə,
Köməksiz, imkansız, çata mətləbə.

Yada düşəcəyəm

Sürünə-sürünə düşüb arxamca,
Yenə bitəcəksən, keçdiyim yolda.
Mənliyin əriyib, yox olub şamca,
İtib batacaqsan, seçdiyim yolda.

Qürurun, pulların yoxa dönəndə,
Yada düşəcəyəm, mən asta-asta.
Artıq o məhəbbət tamam sönəndə,
Peyda olacaqsan, sən asta-asta.

Səhər açılanda dönüb böcəyə,
Cırcırama təki oxuyacaqsan.
Atlana-atlana qonub ləçəyə,
Özünü bülbül tək, sən sanacaqsan.

İndi fərq eyləməz bülbülsən, böcək,
Heç biri dağları uçaraq aşmır.
Nə olar yaşayaq axırın görək,
Hələ ki, bu dünya heç yerə qaçmır.

Ola bilməz belə eşqin davamı

Mənimçün gözlərin acından ölür,
Görürəm baxarkən baxışlarında.
Dilin dodaqlarda sözləri bölür,
Acıyla şərbət var, naxışlarında.

Nə üçün aramsız süzürsən məni,
Elə bil ürəyin əllərimdədir.
Vallah bilə-bilə üzürsən məni,
Kim deyir, diləyin əllərimdədir.

Bir yanda sevinc var, bir yanda kədər,
Kədər səndə ikən, sevinc məndədir.
Şam gündüz yanarsa, atəşi hədər,
Əzabı sən təki çəkən məndədir.

Acı həqiqət də olsa sevmirəm,
Məni sevindirmə, çəkmə cəfamı.
Qaçıb o səbəbdən yaxın gəlmirəm,
Ola bilməz belə eşqin davamı.

Ü r ə y i m

İstəyirəm yenə baxasan mənə,
Narahat gözlə yox, incə baxışla.
Tərifə layiqsən söyləsəm sənə,
İncimə səhv olsa, məni bağışla.

Zərifsən, ətirli məlhəm çiçək tək,
Allah gözəlliyi səndə cəlb edib.
Rahatlıq könlümə gətirən mələk,
Üstümdən büsbütün dərdi-sər gedib.

Rəbbim milyardlarla yaradıb insan,
Əgər görməsəydim bircə tək səni.
Yəqin qarışardı, qürub ilə dan,
Məftun etməsəydin gözəlim məni.

Xoş gəldin gülüm

Hərdən xəyallara dalıram ki, mən,
Keçmişlə indinin fərqini bilim.
O zaman yox idin, gəldin bu gün sən,
Bilmirəm sevincdən ağlayım, gülüm.

Keçmişim keçərək kədərli, qəmli,
Küləklər saçımdan tellər qoparmış.
Saniyələr keçib artdıqca sənli,
Sən demə xoşbəxtlik mənim olarmış.

Boşluq bu içimdə tüğyan edərkən,
Çaşqın həyatıma xoş gəldin gülüm.
Ümidsiz, gümansız yollar gedərkən,
Sevinc kölgəsində yox oldu ölüm.

Səni sevə-sevə mən incidirəm

Qağayılar çırpır özün dənizə,
Pis, yaxşı önündə çıxır təmizə.
Gülməli gəlsə də bu həyat bizə,
Səni sevə-sevə mən incidirəm.

Yolumu gözləyib keçərkən zaman,
Vaxt tapa bilmirəm zəng edim bir an.
Vəfasız çıxaram hey zaman-zaman,
Səni sevə-sevə mən incidirəm.

Mənimçün başqasın sən daşlayardın,
Yeni gün təzədən sən başlayardın.
Bir gün olsa nə var, bağışlayardın,
Səni sevə-sevə mən incidirəm.

Ürəyi üzməyə haqqın da vardır,
Dodağı büzməyə haqqın da vardır.
Məndən lap küsməyə haqqın da vardır,
Səni sevə-sevə mən incidirəm.

Edirəm dualar hər gün Allaha

Gəlmişəm bu gün də sənlə görüşəm,
Fərqlidir əvvəlki görüşdən tamam.
Üst-üstə yığılan dərdlə bölüşəm,
Hələ heç demirəm öpüşdən tamam.

Əvvəllər görüşüb qucaqlaşardıq,
Dünya vecimizə olmazdı bizim.
Şirin arzulardan hey danışardıq,
Bərabər qalardı yollarda izim.

Yenə də ümidlə baxıram sənə,
Sədd qoysa da bizə, barmaqlıq hələ,
Sən dustaq olduğun zindanda mənə,
Yer elə, düşməmiş qaranlıq hələ.

Durum qulluğunda, əzabın çəkim,
Şərik olmaq üçün sənin dərdinə.
Bir-bir qopardaraq sinəmdə əkim,
Zərər yetirməmiş sənin qəddinə.

Pis günün ömrü də deyirlər azdı,
Keçərək bu zülmət bitəcək daha.
Qışın şaxtasını əridən yazdı,
Edirəm dualar hər gün Allaha.

Qədrimi bilənim

Qədrimi bilənim itib batmısan,
Nə qədər yolunu gözləyim sənin.
Bəlkə bu sevdanı başdan atmısan,
Sahilə çırpınıb deyəsən qəmin.
Yoxsa o dalğalar aparıb səni,
Şaxə qaldıraraq oynadır hələ.
Ötərkən dumanlar, görünən çəni,
Görmək istəmədin, nə olmuş belə.

Sabah uçmağın da, olsun ki, ola,
Süni qanadlar da qaldırmaz səni.
Gərək ağıl başa, dolsun ki, ola,
Özünü tanıdıb, güldürmə məni.

Hər səhər

Sevinclə qaçırdım əlimdə çiçək,
Hər səhər yanına yetişmək üçün.
Var idi qəlbimdə təkcə bir dilək,
Arzumu səninlə bölüşmək üçün.

Cılız bədənimlə, dönüb nəhəngə,
Qəhrəmanlar təki, özüm sanardım.
Yanında çöhrəm də, dönüb al rəngə,
Uşaq tək büzüşüb, mən dayanardım.

Sən də qaçırardın, gözün gözümdən,
Keçən dəqiqəni bir-bir sayardıq.
Xoşlanardın mənim şirin sözümdən,
Qorxuyla, hürküylə, addımlayardıq.

Zaman yetişərkən, biz ayrılanda,
Çaşaraq qalırdıq yerimizdəcə.
Elə bil ürək də donurdu qanda,
Boğulurdu nəfəs içimizdəcə.

K o b u d

Üzümə bir dəfə gülmədin nədən?
Xoş rəftar etməyi, bilmədin nədən?
Turşudub sir sifət dinmədin nədən?
Kobud rəftarın tək, özün də kobud.

Nə qədər istədim həlim olasan,
Kobudluğa qarşı qənim olasan.
Təkcə məni sevib, mənim olasan,
Kobud rəftarın tək, özün də kobud.

Tələb eyləyirsən istədiyin tək,
Məhsulu biçməkçün, sən əvvəlcə ək.
Ya gəl adam ol sən, ya da ki, əl çək,
Kobud rəftarın tək, özün də kobud.

Allahdan təcili ağıl istə sən,
Daha qoz, fındıq yox, ya da püstə sən.
Sən başdan ayağa, inan xəstəsən,
Kobud rəftarın tək, özün də kobud.

## Unutmaq olarmı səni sevgilim

Unutmaq olarmı səni sevgilim,
O şirin sözləri, odlu baxışı.
Lal olub ağzımda danışmaz dilim,
Kor olar gözlərim, görməz naxışı.

Vallah varlığınla nəfəs alıram,
Yaşadan, güldürən, sevdirən də sən.
O qədər gözəlsən, çaşıb qalıram,
Dayanıb baxdıqca lap önündə mən.

Dünyanın ən ləziz dadı səndədir,
Səndən tam alaraq, tamam oluram.
Səbirdən yoğrulmuş, adı səndədir,
Badənə damla tək, bir-bir doluram.

## İ s t ə m i r ə m

Arxanca sürünən əzablar yorub,
Küsürəm həyatdan getsin gəlməsin.
Haqqın dərgahında suallar durub,
Qorxuram eşidəm, əzab gəlməsin.

Dilimdə bu nədir, bu nə düşüncə,
Qalaraq üzbəüz hisslərlə tənha.
Məni sıxışdırıb, sıxaraq küncə,
Ümidsiz, günahsız döndərib aha.

Çox çətin olsa da, zamanla, məkan,
Zamanın quluyam, məkan əsiri.
Quruyur günbəgün, bu büstümdə can,
Ölüyə bənzərəm, gəzərkən diri.

## Verdim əllərimlə isti ürəyi

Verdim əllərimlə isti ürəyi,
Nə biləydim onu buza atarsan.
Dondurub şaxtada sənli diləyi,
Gecələr mənsiz də rahat yatarsan.

Unutdun dalımcan sürünən günü,
Mən basan ləpirdən, tozdan öpərdin.
Çaşdırıb həm məni, həm də bülbülü,
Qönçələr qurutdun, nə imiş dərdin.

O, üşüyən ürək yenə məndədi,
Yox edib atəşi qaytardın belə.
Sənin ucbatından tamam qəmdədi,
Dil açıb danışmaq istəyir hələ.

İ s t ə m i r ə m

Arxanca sürünən əzablar yorub,
Küsürəm həyatdan getsin gəlməsin.
Haqqın dərgahında suallar durub,
Qorxuram eşidəm, əzab gəlməsin.

Dilimdə bu nədir, bu nə düşüncə,
Qalaraq üzbəüz hisslərlə tənha.
Məni sıxışdırıb, sıxaraq küncə,
Ümidsiz, günahsız döndərib aha.

Çox çətin olsa da, zamanla, məkan,
Zamanın quluyam, məkan əsiri.
Quruyur günbəgün, bu büstümdə can,
Ölüyə bənzərəm, gəzərkən diri.

Verdim əllərimlə isti ürəyi

Verdim əllərimlə isti ürəyi,
Nə biləydim onu buza atarsan.
Dondurub şaxtada sənli diləyi,
Gecələr mənsiz də rahat yatarsan.

Unutdun dalımcan sürünən günü,
Mən basan ləpirdən, tozdan öpərdin.
Çaşdırıb həm məni, həm də bülbülü,
Qönçələr qurutdun, nə imiş dərdin.

O, üşüyən ürək yenə məndədi,
Yox edib atəşi qaytardın belə.
Sənin ucbatından tamam qəmdədi,
Dil açıb danışmaq istəyir hələ.

Gəl sevib sevilək, gəl şokoladım

Qara saçlarını töküb göz üstə,
Dodaqların baldı, dilin də püstə.
Sən məndən ürəyin lap özün istə,
Gəl sevib sevilək, gəl şokoladım.

Qəfildən sən gəldin, qəfildən o, gün,
Girdin ürəyimə, asta günbəgün.
Getsən də yenə gəl, gəl yanıma dön,
Gəl sevib sevilək, gəl şokoladım.

Çeşmə saflığı var o, gözlərində,
İman, həm inam var, o sözlərində.
Sabaha güman var, o izlərində.
Gəl sevib sevilək, gəl şokoladım.

Qara buğdayısan, sevdiyim rəngdə,
Qarşında dağ boyda, dözməz nəhəng də.
Əriyib yox olar, duman da çən də,
Gəl sevib sevilək, gəl şokoladım.

Sənin ucbatından gözlərim yaşdı

Bilirəm mənim tək sən də narahat,
Gecələr keçirib, səhər açırsan.
Gəl şaxə qaldırma yenə qara at,
Gözümdən yayınıb, hara qaçırsan.

Ya görün həmişə yanımda qal ki,
Gözlərim həsrətlə baxmasın yola.
Ya öldür gözləmə, ürəyi al ki,
Cismimin içində tək boşluq qala.

Ağrıyan ürəyim ruhuma daşdı,
Elə ağırdı ki, çəkmək də çətin.
Sənin ucbatından gözlərim yaşdı,
Örtdün əllərinlə həqiqəti sən.

## Yarı yolda məni ataraq getdin

Yarı yolda məni ataraq getdin,
Böyük arzularım yarımçıq qaldı.
Elə bil hər şeyi bilərək etdin,
Üstümü qaranlıq bir duman aldı.

Zülmətdə görünməz bilinməz günəş,
Onun gözəlliyi aşıb daşsa da.
Küləkdə, çovğunda yanırsa atəş,
Məgər isidərmi, sərhəd aşsa da.

Sərhəddir tükənən sevgi yolunda,
İndi tənhalığa qərq olub könül.
Cəhənnəm dayanıb elə bil sonra,
Görünür çox zərif, solaraq bir gül.

## Uzun illər boyu bərabər qaldıq

Uzun illər boyu bərabər qaldıq,
Sevinc də bölərdik, qəm də bölərdik.
Dünya ləzzətindən beləcə alıb,
Leyli, Məcnun təki hətta ölərdik.

O sevinc, o istək, o məhəbbəti,
Atdıq, o ayrılan yollar üstünə.
Bir anda qərarı, biz verdik qəti,
İllərlə yığmışdıq qollar üstünə.

Yenidən birə-bir yığmaq istəsək,
O sınan qəlblərin görüntüsünü.
Piramida olmaz hətta biz əssək,
Görəcəyik yalnız biz tüstüsünü.

## Ç ə t i n l i k

Ümidi itirmə çətinə düşsən,
Hər bir çətinliyin çıxışı vardır.
Səhvlər edə-edə həyatda bişsən,
Çətinlik qarşında partlayan şardır.

Tutub əllərinlə sıxırsan onu,
O qədər sıxırsan təzyiq çoxalır.
Lazım deyil ona geydirmək donu,
Ağıl qarşısında hər şey yox olar.

Bircə ümidləri qoruyub saxta,
Çətinlik yanından ötüb keçəcək.
Mənə inanmırsan get özün yoxla,
Əmək sevərliyin düz yol seçəcək.

Oyatmaq istədin məhəbbətimi

Yenə zəng eləyib, həmin səsinlə,
Oyatmaq istədin məhəbbətimi.
Yenə bu qış kimi, həmin fəsillə,
Sən dadmaq istədin eşq şərbətimi.

Şirinlik, təravət, qalsa da məndə,
Artıq gizlədirəm bu sərvətimi.
Mənli xatirələr qalsa da səndə,
Daha sən görməzsən səxavətimi.

Düzülüb qatar tək, o gedən getdi,
Topladım axır ki, cəsarətimi.
Ramiz nə etdisə, özünə etdi,
Götürdü üstümdən əsarətimi.

Səni tərifədi tanış etdiyim

Səni tərifədi tanış etdiyim,
Gözlərində sevinc parlaq göründü.
Səndən uzaqlaşıb tənha getdiyim,
Yollar arasına hasar hörüldü.

İndi o hasardan boylanıb baxsan,
Sən məni görməzsən hasar dibində.
Bu həyatdan belə, zövq alıb baxsan,
Bir parça od olub, qaldım qəlbində.

O tərif eyləyən bu gün sevinir,
Necə ki, sevindin, ilk dəfə sən də.
Sən onun həyatı olmusan deyir,
Bir zaman həyatın olmuşdum mən də.

Məni sevdiyinçün eylədim kömək,
Amma bağışlaya bilmədim səni.
Sənli bu tale də, beləymiş demək,
Əlvida, bir daha, yad etmə məni.

Arxamca vəfasız, gözün qalaydı

Kaş səndən ayrılıb rahat olaydım,
Sakitlik taparaq, gəzəydim qəmsiz.
Divarda asılan saat olaydım,
Tənhalıq qoynunda qalaydın mənsiz.

O zaman qədrimi bilərək gələr,
Döyərək qapımı, sən asta-asta.
Yanına düşərkən ümidsiz əllər,
Pərdə arasından gülərdim asta.

Keçən dəqiqələr, saniyələr də,
Təkcə mənə aid, mənim olaydı.
Mən qalxdığım zaman o pillələrdə,
Arxamca vəfasız, gözün qalaydı.

## Səndən xahiş etdim, dedim alarsan

Səndən xahiş etdim, dedim alarsan,
Ürəyimdən keçən gözəl əşyanı.
Söz verdin, mənimlə, daim qalarsan,
Nə qədər yaşatsa, tanrı bu canı.

Özün də görürsən gözəlliyimlə,
Əldə eyləyərəm dünya mülkünü.
Sən ki, fəxr edəydin, gərək mənimlə,
Bənzətdin gözündə mənə tülkünü.

Mənim də bil sənə inamım itdi,
Əşya dəyərində olmadım belə.
Sənin mənə aid, bu sevdan bitdi,
Başqa bir xahişi, etməmiş hələ.

Öyrədə bilmədim sevməyi sənə

Səninçün hər şeyi etdiyim zaman,
Yolunda ölümə getdiyim zaman.
Azacıq murada yetdiyim zaman,
Öyrədə bilmədim sevməyi sənə.

Çalışdım məhəbbət yaşasın qəlbdə,
Yerə atılmasın, olmasın dərd də.
Əsəbi qaldırıb dözülməz həddə,
Öyrədə bilmədim sevməyi sənə.

Öz əlimlə verdim səni özgəyə,
Dəyəri dəyməzi olan heç nəyə,
Ağıldan axmağa, bənzərdən bəyə,
Öyrədə bilmədim sevməyi sənə.

Tələm - tələsik

Kirayə paltarlar geyib əyninə,
Getdin görüşlərə tələm-tələsik.
Tez-bazar varlanmaq düşdü beyninə,
Uydun öpüşlərə tələm-tələsik.

Bir gündə birin yox, üç-dördün görüb,
Məkanlar dəyişdin tələm-tələsik.
Yaşını azaldıb, saçını hörüb,
Badələr sən içdin tələm-tələsik.

Saçlarını saraltdın, kirpik uzatdın,
Yanaqlar qızartdın tələm-tələsik.
Çaparaq çapırdın, guya boz atdın,
Yollarda sən azdın tələm-tələsik.

Qismət Allahdandır, qaçmaqdan deyil,
Bu fani dünyada tələm-tələsik.
Çox axmaq bir yola eylədin meyl,
Kül qoydun gül ada tələm-tələsik.

Tanrı məktəbində keçilən dərslik

Tanrı məktəbində keçilən dərslik,
Hərə kitabını açır bir cürə.
Hərdən mülayimik, hərdən də tərslik,
Dövr edir səmada, hələ yer kürə.

Dördbucaq, üçbucaq, rom olsa hərgah,
Necə yaşayardı, insan görəsən.
Yox olub dünyadan gedərdi bu ah,
Kim tapsa cavabın, deyərdim əhsən.

Bəlkə imtahana çəkilməliyik,
Zəlzələ, tufanlar kar etmir bizə.
Meynə çilingi tək əkilməliyik,
Yumruğu vurmamış, başa, həm dizə.

T ə r b i y ə s i z

Əzəldən gərəkdi ola tərbiyə,
Yaxşı əməllərlə dola tərbiyə.
Pisliyi canından yola tərbiyə,
Sən niyə doğuldun, ay tərbiyəsiz.

Bir gün arandasan, bir gün də dağda,
Quşları daşladın qonan budaqda.
Əzdin çiçəkləri bağçada, bağda,
Sən niyə doğuldun, ay tərbiyəsiz.

Babaya, nənəyə söylədin yalan,
Aldatdın atanı pul aldın kalan.
Günahsız insanlar toruna salan,
Sən niyə doğuldun, ay tərbiyəsiz.

Böyüyə, kiçiyə etmədin hörmət,
Alçaq əməllərlə qazandın lənət.
Nə etdin, hər zaman eylədin qələt,
Sən niyə doğuldun, ay tərbiyəsiz.

Gərək yer ayrıla, sən də girəydin.
Vicdan nə olan şey, kaş ki, biləydin.
Belə qalmaqdansa çoxdan öləydin,
Sən niyə doğuldun, ay tərbiyəsiz.

Bizləri hər görən, qoy əhsən desin

Bizdən uzaq olsun, ölüm, ayrılıq,
Dəyərli həyatın qədrini bilək.
İllərlə qoy olsun, olmasın aylıq,
Yolumuz üstündə əsməsin külək.

Həsrətlə qoy baxsın, sevənlər bizə,
Nümunəyə dönsün, bu gənclər üçün.
Ola bilsin, bəlkə, çatsaq lap yüzə,
Deməsinlər atəş zəifdi neyçün?

Həyatdan zövq alaq, dadaq şərbətin,
Görək məhəbbətin, görək sevgisin.
Tanrı bəxş eyləyə dünya sərvətin,
Bizləri hər görən, qoy əhsən desin.

D ö z ə c ə k s ə n

Bilməm nə qədər, sən belə hala, dözəcəksən,
Zülfün bürüyüb, qapqara şala, dözəcəksən.
Örtsə günəşin, hüsnünü tufan, ya buludlar
Səndən ürəyi, istəsə ala, dözəcəksən?

Dözdün neçə illər, dəyəri dəymədi xeyrə,
Onsuz da çəkir, divara mala, dözəcəksən.
Sən gözləmə, bir gün aparıb qərq edə şərə,
Tutsan da onu qaymağa, bala, dözəcəksən?

Əfsus nə qədər, səbri qərarı, belə boğdun,
Məğlub edilib, səndəki qala, dözəcəksən.
Ramiz, necə etdin nəfəsi, sən elə boğdun,
Bir gün qazacaq, qəbrinə çala dözəcəksən?

Qeyri-adi bir xanımsan, mələksən

Gecələri, sübh çağımı almısan,
Hisslərimi yanar oda salmısan.
İllər ötür, xatirəmdə qalmısan,
Qeyri-adi bir xanımsan, mələksən.

O qədər deməyə sözlərim qalıb,
Sənin gözlərində gözlərim qalıb.
Qarşında çökməyə dizlərim qalıb,
Qeyri-adi bir xanımsan, mələksən.

İstədim toxunam bir gün əlinə,
Əlim heç çatmadı, onun yelinə.
Şəlalə tək saçlar, düşüb belinə,
Qeyri-adi bir xanımsan, mələksən.

Üzsəm də həsrətin, bil gəmisində,
Gəzsəm də taxılın, mən zəmisində.
Gözəllik rəmzisən, ölkəmizin də,
Qeyri-adi bir xanımsan, mələksən.

Özüm öz içimdə, yandırırdım şam

Səni çox sevirdim, qorxurdum ancaq,
Elan eyləməkçün məhəbbətimi.
Üstündən üstümə, çəkilib bıçaq,
Döymüşəm, döyüblər bu qamətimi.

Hansını mən deyim, evdən çağrıldım,
Maşın da üstümdən, sürüblər mənim.
Elə düşünmə ki, qorxdum, ayrıldım,
Ey mənim ətirli gözəl gülşənim.

Gecələr sözləri yığıb yan-yana,
Əzbər eyləyirdim deməyə sənə.
Səhər pişvazında durduğum ana,
Nə deyim lal idim, həmin ənənə.

Qərq olub sükuta, titrəyib əsir,
Elə bil anadan lal, kar olmuşam,
Verdiyin sual da, etmirdi təsir,
Özüm öz içimdə, yandırırdım şam.

Sənin bu sevgiyə, minnətin olsun

Quş təki sən uçub, səmadan baxma,
Dönüb şəlaləyə dağlardan axma.
İldırım deyilsən, sən əbəs çaxma,
Sənin bu sevgiyə, minnətin olsun.

Etdiyim tə riflər, yalandı sənə,
Mənim bu nifrətim, qalandı sənə.
Aldığım əşyalar, palandı sənə,
Sənin bu sevgiyə, minnətin olsun.

Özünü çıxartma yenə təmizə,
Başına qoy dəysin, o naz qəmzə.
Görüntün büsbütün keçəl həmzə,
Sənin bu sevgiyə, minnətin olsun.

Gedirsən yeri get, dünən gedəydin,
Sabah da üç günü, olub deyəydin.
Sən daha bal yox, zəhər yeyəydin,
Sənin bu sevgiyə, minnətin olsun.

Deyirsən ağrıma ürəyim hələ

*Xalq artisti Əlibaba Məmmədova həsr edilib*

Sevirsən qəzəldə düzülən sözü,
Ürəkdən həm axan, süzülən sözü,
Eşitsən ağızda büzülən sözü,
Deyirsən ağrıma ürəyim hələ.

Şairsən, bəstəkar, müğənni belə,
Vurğunsan vətənə, obaya, elə.
Gördükdə günahsız düşərkən selə,
Deyirsən ağrıma ürəyim hələ.

Nurludur çöhrən də, o gözlərin də,
Məlhəmdi aqilə, o sözlərin də.
Olarkən yorğunluq, o dizlərində,
Deyirsən ağrıma ürəyim hələ.

Ümidlə baxırsan şagirdinə sən,
Onun uğurları edir səni şən.
Keçmişə xəyalən dönmək istərkən,
Deyirsən ağrıma ürəyim hələ.

Hər yerdə hörmətin, hər yerdə şanın,
Məğrurdu baxışın, cavandı canın.
Xalqın sevgisiylə dövr edir qanın,
Deyirsən ağrıma ürəyim hələ.

Nə yaxşı ki varsan, sən dostum mənim

Çətinə düşürəm, şəksiz, şübhəsiz,
Bir deyil, nə iki, çox olur hədsiz.
Çöhrələr görürəm həyasız, sədsiz,
Nə yaxşı ki varsan, sən dostum mənim.

Mənə bal deyənim, zəhər bəxş edir,
Bu tale oyunu, yoxsa bəs nədir?
Ömür, gün beləcə vəfasız gedir,
Nə yaxşı ki varsan, sən dostum mənim.

Əhdi peyman ilə, sevdim, sevildim,
Çaşaraq özümə xoşbəxt deyirdim,
Kədər maskasını sonra geyirdim,
Nə yaxşı ki varsan, sən dostum mənim.

Dediyin sözlərə \ qulaq asmadım,
Çaşan məhəbbətə dönübdür adım.
Heç kəsin ayağın, qəfil basmadım,
Nə yaxşı ki varsan, sən dostum mənim.

Xoşbəxtlik çırağı olmusan mənə

Məni valeh edən, gözəlliyindi,
Tanrı bəxş edərək ilk gündən sənə.
Gözəllər gözəli sən mələyindi,
Görən dustaq olar qəfildən sənə.

Sən Allahdan mənə bir dayaq gəldin,
Döndərdin ömrümü gözəl gülşənə.
Sən imam Əlidən uzanan əldin,
Xoşbəxtlik çırağı olmusan mənə.

Yansın, alovlansın o gur məşəlin,
İsitsin qəlbimin soyuq guşəsin.
Yox etsin zülməti, o nur məşəlin,
Görməyim həyatın acı nəşəsin.

Ay məni sevənim, nə istəyirsən?

Təəssüf ki, baxışdıq, dil danışmadı,
Gözlər nə odlandı, nə alışmadı.
Ürəyim istəklə heç barışmadı,
Ay məni sevənim, nə istəyirsən?

Başa düş, dərk elə, səndə var ağıl?
İstəyin macəra, yoxsa bir nağıl.
Sən bir bulud təki gəlmisən dağıl,
Ay məni sevənim, nə istəyirsən?

"Yox" dediyim sözə, belə ağlama,
Kövrəldərək məni, könlüm dağlama.
Dünya çox gözəldir, qara bağlama,
Ay məni sevənim, nə istəyirsən?

Tapacaq səni də öz alın yazın,
Qış ötür səbirlə gözlə sən yazın,
Vallah çəkəcəklər sənin də nazın,
Ay məni sevənim, nə istəyirsən?

Dünyanı qurbanlıq edərdim sənə

Dünyanı qurbanlıq edərdim sənə,
Gözəl camalına o varlığına.
Göylərdən ulduzlar dərərdim sənə,
Təəssüf ki, imkanım çatmayır buna.

Əlacım tək qalır özüm-özümə,
Ayağın altında qurbanlıq olam.
Sən inan sevgilim mənim sözümə,
Çək qılınc boynuma qarşında solam.

Yenə də dolaşıb ətrafında mən,
Səninlə ruhumu şad edəcəyəm.
Bəlkə də qalmadım, heç yadında mən,
Buna da əzizim mən dözəcəyəm.

Gözəllik boğulur qəm dənizində

Gözəllik boğulur qəm dənizində,
Həsrətlə taleyin yolun gözləyir.
Ürək çırpınaraq öz nəbzində,
Artıq dözməyərək səs salıb deyir.

Al məni sevgilim öz ağuşuna,
Cənnət qapısından keçdiyin görüm.
Hələ tutulmamış qəm yağışına,
Əllərimlə eşqin qalasın hörüm.

Keşiyin çəkərək ömrüm boyunca,
Sənli ömrümüzün səadətini.
Qoruyub yaşadıb hər gün doyunca,
Müsəlman sevgisin, həm adətini.

Ay məni odlara salan sevgilim

Bir simruq quşu tək görünüb getdin,
Sən röya deyildin, həqiqət idin.
Ovlayıb könlümü murada yetdin,
Ay məni odlara salan sevgilim.

Sənin qərarın yox, hələ seçimdə,
Sevgilər müxtəlif, fərqli biçimdə.
Sən lap yaxındasan, mənim içimdə,
Ay məni odlara salan sevgilim.

Mənli bir dünyanı seçsəydin əgər,
Bu dünya gül, çiçək libasın geyər.
Səninlə ölməyə, qalmağa dəyər,
Ay, məni odlara salan sevgilim.

Sən öləcəksən

Yəqin bacarmırsan sakit qalmağı,
Zaman dəyişdirir deyəsən səni.
Başqa birisindən ilham almağı,
Artıq öyrənərək unutdun məni.

Unut, unutmağın daha da xoşdur,
Sən azad, mən azad, azad bir həyat.
O keçən günlərə söyləmə boşdur,
Necə oyanmışdın, eləcə də yat.

Yatsan da arabir yuxularında,
Mənli o keçmişi sən görəcəksən.
Sürünə-sürünə gələrkən onda,
Yox dediyim zaman, sən öləcəksən.

## P U L

Dövlətlilər üçün əl çirki olur,
Kasıbın əlacın ödəyəndi pul.
Varlının cibinə günbəgün dolur,
Kasıba çaşaraq, az gələndi pul.

Varlıya bəxş edir, zinət, daş qaşı,
Yoxsula zinətdən çox yüksəkdi pul.
Qocadan alaraq itirir yaşı,
Cavana təsadüf, bir dəstəkdi pul.

Birini satdıran, birin tutduran
Hökmdü, qüdrətdi, həm şəfadı pul
Zəhəri cismana, məcbur udduran
İnsanı öldürən, bir bəladı pul.

Nigaran qaldım

Sorağın gəlməsə üzülür könlüm,
Şam tək əriyərək süzülür könlüm.
İçimdə sıxılıb, büzülür könlüm,
Bu gün də mən səndən nigaran qaldım.

Könlümü şübhələr dağıdıb yeyir,
Yəqin bu məhəbbət heç sənlik deyil.
Gündüzüm qısalır, qara rəng geyir,
Bu gün də mən səndən nigaran qaldım.

Sən məni sevməyə vadar eylədin,
Qısqanclıq zülmünü sən var eylədin.
Geniş bir dünyamı lap dar eylədin,
Bu gün də mən səndən nigaran qaldım.

Ə k i z l ə r

Tale qismətimin bir cüt ulduzu,
Həm şəkəri vardır, həm də ki, duzu.
Yox edər şaxtada əridər buzu,
Asiya, Aişə əkiz bacılar.

Gülüşlər, baxışlar,hər biri eyni,
Bəxş edir sağlam ruh, açaraq eyni,
Yorğunluq bir anda tərk edir beyni,
Asiya, Aişə əkiz bacılar.

Ayıra bilmirəm biri birindən,
Nədən şirin olur, nəvələr nədən?
Babanı, nənəni xoşbəxt eləyən,
Asiya, Aişə əkiz bacılar.

Əliyar qardaşdır, Sədaqət bacı,
Ananın, atanın hər dördü tacı.
Gözün aydın olsun qardaşım Hacı,
Asiya, Aişə əkiz bacılar.

Əyildim öpməyə dodaqlarından

Əyildim öpməyə dodaqlarından,
Sən bunu etmərsən, söylədin mənə.
Ağlıma gəlmişdi axı bu hardan,
Cəsarət etmişdim çox yalnış sənə.

İxtiyar sahibi deyildim o an,
Atılan bir addım mənlik deyildi.
Elə bil sinəmdən qopub çıxan can,
Səni öpməyimi mənə deyirdi.

Günahkar ruhumla, cismimdi olan,
Məni sürükləyən müqəvva kimi.
Zamanın hökmüylə yığılıb dolan,
Cazibə deyilən bir qüvvə kimi.

Gözəlsən, əsirin deyiləm sənin

Gözəlsən, əsirin deyiləm sənin,
Əsarət zəncirin artıq qırmışam.
Günəşin hüsnündən buludu, çəni,
Özüm əllərimlə artıq qovmuşam.

O, keçmişdən qalan əksindir sənin,
Keçmiş günlərindən qalan xatirə.
Məndən yaddaşında, saçında dənin,
Ağaran ağappaq olan xatirə.

Saçlar rənglənsə də hər hansı rəngə,
Bir gün gecikdirsən görərsən məni.
O, saçın ağlığı çəkəcək çəngə,
Səndən soruşacaq, bil səndən məni.

## Nə yaxşı seçimi etdin bu səhər

Nə yaxşı seçimi etdin bu səhər,
Qısqanclıq səndəydi, etiraf məndə.
Yenicə alışan sevgiyə qəhər,
Qatmadım, qatmadın eləcə sən də.

Dünən gözlərində parlayan sevinc,
Bu gün kipriklərin kölgəsi örtüb.
Dünən dayanmırdın bir məkanda dinc,
Bu gün çox sakitsən, çöhrən də pörtüb.

Çəkildik kənara, qorunsun hörmət,
Yenə xəstən olum, sənsə həkimim.
Bizə lazım deyil artıq söz-söhbət,
Günahkar mən olsam, sən ol hakimim.

Sevgi can verərkən, gözəllik solur

Qəşəngsən, sevgidə əsas hal deyil,
Məftun eyləməkçün məni hüsnünə,
Zəhər, zəhər olur, axı bal deyil,
Dadarkən od tutub yanam tüstünə.

Sonra da ürəyim əzəblar çəksin,
Qoparıb atmağa köksümdən səni.
Əlim ürəyimlə çiçəklər əksin,
Lakin sən çiçəkdən qorusun məni.

Sünidir hər nə var bürümüş səni,
O bal dodaqlarda tərəvət yoxdu.
Başının üstündən qovarkən çəni,
Yenə də ətrafın dumanla çoxdu.

İtir dumanlıqda görünmür heç nə,
Sənin gözəlliyin görünməz olur.
Əzəldən bu dünya deyil vecinə,
Sevgi can verərkən, gözəllik solur.

Unutdum səni

Sevgidən əfsanə yaratmışdın sən.
Hələ qamətimi sevgin əyməmiş,
Təəssüf sözlərinə inanmışdım mən.
Əllərin əlimə hələ dəyməmiş.

Necə o sözlərdən düzüb qoşurdun,
Aldada-aldada məni günbəgün.
Guya çox sevərək, hərdən coşurdun,
O keçən günlərə gəlir gülməyim.

Aldın ürəyimin açarın məndən,
Kövrək uşaq idim, sən belə sandın
Xoşbəxt olmağımı istərkən səndən,
Əhdi peyman olan, yalanmış andın.

Adını dəyişib qoysan vəfasız,
Sənə Vəfasız bəy çox yaraşardı.
Xəyanət edənlər gəzirlər adsız,
Alnına vurmağa ox yaraşardı.

Mən səni bilməzdim belə alçalan,
Pozğun bir qadına, dəyişdin məni.
Meyxanələr gəzib, yersiz əl çalan,
Unutdun, dönmədin, unutdum səni.

Mənim həyatımdan çıx zaman-zaman

Şeir də yazıldı sənin barəndə,
Onun nöqtəsinə dəyməzsən hərçənd.
Gözlərim açıldı sənin sayəndə,
Sınıq-salxaq imiş, sənli olan bənd.

Gec-tez uçuruma gedən bu yoldan,
Yaxşı ki, çəkildim, mən asta-asta,
Zəncirlər yox olmuş, artıq bu qoldan.
Unudulub getdin sən asta-asta.

Sənli o həyatım, məşəldə yanmış,
Tüstüsü, dumanı uçaraq getmiş.
Badən içi dolu sən demə qanmış,
Neçə il içməyə, hey vadar etmiş.

O sənin payındı, iç gözün doysun,
Məni həyatına qatma heç zaman.
Verdiyin əzablar gözlərin oysun,
Mənim həyatımdan çıx zaman-zaman.

## Mənə bir sevgi ver

Mənə bir sevgi ver onun qoynunda,
Dincəlmək imkanım olsun bir qədər.
Görənlər deməsin eşqin oynunda,
Uduzub üstünü bürüyüb kədər.

Parlaq bir günəşli üfüqləri ver,
Qoy boylansın ordan, gündüzlər ay da.
Səhərlər qoynunda, şəfəqləri ver,
Harda ki qovuşur, dənizlə çay da.

Bəxş etdiyin sevgi mənimki olsun,
Başqası almasın bunu əlimdən.
Xoşbəxtlik havası sinəmə dolsun,
Belə istəmirdin, de əzizim sən.

Ay da, o günəş də kainatındı,
Mənə qalan istək, sevincim də sən.
Nə etsən mənimçün sənin adındı,
Nə dağıq, nə dərə, neyləyirik çən.

Məni yoldan edir, xumar gözlərin

Söz verdim sevgidən çox uzaq qalam,
Seyr edib dünyanı ondan zövq alam,
Fikrimi, meylimi tanrıma salam.
Məni yoldan edir, xumar gözlərin.

Cazibə qüvvəsi vardır gözündə,
Məlhəmə çevrilir incə sözündə.
Yerişin öl deyir, uzan izimdə,
Məni yoldan edir, xumar gözlərin.

Dəyişir zamanım, qısalır ömrüm,
Məni məndən alan, başa sal görüm.
Yoxsa aramızda bir hasar hörüm,
Məni yoldan edir, xumar gözlərin.

Aldanan sən özünsən

Dünən belə deyildin, zəng edib yalvarırdın,
Bu gün cavabsız qoyub, telefonu söndürürsən.
Aramsız yalvarışla dəng edib yalvarırdın,
Səhər gələn qisməti əlinlə öldürürsən.

Ehtiyac, kasıbçılıq, yaranıb əməlindən,
Etdiyin hərəkətdən utanırsan, ölürsən?
De, məcburmu etdilər söz verərkən dilindən,
Onu, bunu, aldadıb işlərini görürsən.

Onlarçün fərq eyləmir, sən ya qeyri başqası,
Nəyin, harda olduğun gözlərinlə görürsən.
Sənin kimi yüzlərlə vardır onun aşinası,
Aldanan onlar deyil, aldanan sən özünsən.

Sən mənim döyünən, bil ürəyimsən

Qaçırma gözləri laqeyd getmə,
Tək tənha zirvəyə tələsik yetmə.
Nə olar, könlümü sən məyus etmə,
Sən mənim döyünən, bil ürəyimsən.

Ey gözəl, dan üzlüm açılan səhər,
Səninlə bərabər oyanır şəhər.
Yox olur büsbütün üstündən qəhər,
Sən mənim döyünən, bil ürəyimsən.

Naz et ki, qarşında əriyim tamam,
Sənin qismətində əriyən şamam.
Sən şirin şərbətsən, mən də ki, camam,
Sən mənim döyünən, bil ürəyimsən.

Qalmadı canımda, dizimdə taqət,
İşgəncə yer tutub sevgidə adət.
Sən belə etməzsən, bəxş et səadət,
Sən mənim döyünən, bil ürəyimsən.

Başqalar önündə, sükut içində

Başqalar önündə, sükut içində,
Sənin hüzurunda səslənir bu dil.
Məhəbbət olarkən fərqli biçimdə,
Məlhəm sevgisində bəslənir bu dil.

Fərqlisən, gözəlsən, gözəldən gözəl,
Tərif eyləməyə çatmaz cürətim.
Hüsnü camalını görərkən əzəl,
Sonradan yarandı mənim qüdrətim.

Yazılıb, yazılır, yazırlar yenə,
Gözəllik əmr edir, yazmaqçün bunu.
Ramizəm, nəğməkar deyirlər mənə,
Səninlə qoy bitsin şeirimin sonu.

## Çox böyük zövq verir inan varlığın

Çox böyük zövq verir inan varlığın,
Sənin düşüncəndən yaranan hikmət.
Var ikən cismində ruhən sağlığın,
Deyilər təriflər şəninə əlbət.

Dözmərəm, bulud tək tutub göy üzün,
Kimsəni yanında gördüyüm zaman.
Rəqiblər baxarkən ovaram gözün,
Şimşək tək çaxaram hey zaman-zaman.

Dönərəm yağışın damlalarına,
Düşməkçün səmadan, öpməkçün səni.
Süzülüb yanaqdan dodaqlarına,
Beləcə feyziyab elə sən məni.

## Xəfif bir baharın ətiri vardı

Xəfif bir baharın ətiri vardı,
Sənin gəlişində, baxışlarında.
Göz üstə kipriyin çətiri vardı,
Məhəbbət məst olub naxışlarında.

Bal kimi süzülür sözündə məna,
Səsin təntənəsi, füsunkar gözəl.
Mehriban, qayğılı, gözündə məna,
Məni valeh edib inan, əlbəəl.

İncəlik mövcuddur hakimdir sənə,
Günəş tək elə bil sən nur saçırsan.
Başqa planetdən gəlmişdin mənə,
Cənnət qapıların özün açırsan.

Mənə çox xoş gəlir sözün, söhbətin

Mənə çox xoş gəlir sözün, söhbətin,
Tutardım meyvəli budaqlarından.
Mənimçün bal olar hər bir töhmətin,
Dadardım mən onu dodaqlarından.

Məni cazibəmdən çıxarıb hər gün,
Aparırsan yenə öz aləminə.
Mənə doğma olub, nədən günbəgün,
Nəzarət edirsən söz aləmimə.

Səninlə açılır eynim, istəyim,
Sübhün gəlişiylə qızarır səma.
Sənsiz bu dünyada qalmaz heç nəyim,
Əriyərəm tamam, dönərəm şama.

Unutmaq çox çətin, sevmək çox çətin

İnamdır ilhama gətirən məni,
Yoxdu yollarında dumanı, çəni.
Gördüyün ilk gündən ey gözəl səni,
Unutmaq çox çətin, sevmək çox çətin.

Şimşək tək çaxarkən sənin gözlərin,
O bal dodaqlardan incə sözlərin.
Alışdı ocaqda atan gözlərin,
Unutmaq çox çətin, sevmək çox çətin.

Bir sərinlik gəldi səndən hüsnümə,
Qorxuram qərq edəm səni tüstümə.
Yığıram sevgimi sinəm üstünə,
Unutmaq çox çətin, sevmək çox çətin.

Rahatlıq gətirdin, şeirinlə mənə

Rahatlıq gətirdin, şeirinlə mənə,
Açaraq könlümün yeni səhifəsin.
Məftun olduğumu deyərkən sənə,
İdrakla bəxş etdin sevinc töhvəsin.

Lalə çiçəyinə büründü çəmən,
Al-əlvana döndü, könül bağçası.
Ülkər o sevinci bəxş eylədin sən,
Rədd oldu yolumdan hicran şaxtası.

Əllərim donarkən, açdın, əritdin,
Yəqinlik gətirdin bu istəyimə.
İldırım sürətli, bihuş ətirdin,
Məsti xumar etdin, məni sən demə.

17.08.10 saat 16-05

## Layiqsən layiqdən daha çoxuna

Layiqsən layiqdən daha çoxuna,
Tanrı qismətini əmriylə versin.
Gəzərkən gül-çiçək sənə toxuna,
Bihuş xoşbəxtliyin ətiri gəlsin.

Ləyaqət, şərəflə vicdan vəhdəti,
Onun timsalında biz varıq hələ.
Sənin gözlərindən çəkilən səddi,
Tutmaq heç olarmı əllərlə belə.

Layiq olduğunu tanrı göndərər,
Yanaşma sözlərə laqeyd heç vaxt.
Ən gözəl bir gülü səninçün dərər,
Qərq edər nuruna, olarsan xoşbəxt.

18.08.10 saat 9-25

**Ayrıla bilmərik bir-birimizdən**

**Ayrı qala bilər, dəniz de yerdən?
Yoxsa günəş qalar, ayrıca göydən?
Hələ deməyirəm, şair şeirdən,
Ayrıla bilmərik bir-birimizdən.
Bülbül gülə bağlı, gül gülüstana,
Məcnunlar, Fərhadlar dönüb dastana.
Həyatdır yağışlar, bağa, bostana,
Ayrıla bilmərik bir-birimizdən.
Ruhsuz bir bədəndə, heç olarmı can?
Ya həsrət sevincsiz, olarmı bir an?
Əzizim məni də bağlayıb zaman,
Ayrıla bilmərik bir-birimizdən.**

**19.08.10 saat 14-43**

## Zəng etdin, səsini eşitdim bu gün

Zəng etdin, səsini eşitdim bu gün,
Uzun illər boyu həsrətdim sənə.
Səni düşünərkən inan günbəgün,
Dünyanı bəxş etdin əzizim mənə.
Ürəyin bilməzdim qanadı varmış,
Sən demə pərvaz da edir göylərə.
Sənsiz zirvələrim, büsbütün qarmış,
Əritdin, axıtdın, suyun göllərə.
Sənin gözlərinin atəşi məni,
Neçə dəfələrlə közə döndərib.
Sevərkən ürəkdən həyatım səni,
Rəhm eyləyib Tanrım, səni göndərib.
Bu gün həyatımın xoşbəxt bir anı,
Bunu əllərinlə sən bəxş eylədin.
Sakit eyləyərək narahat canı,
Mənim yazdığımı, sən də söylədin.

19.08.10 saat 15-25

Yanında əzizim, mən olmayanda

Sükuta qərq etmə, keçən zamanı,
Susma, gəl susdurma, mənli cahanı.
Bir gün axtararsan, deyərsən hanı?
Yanında əzizim, mən olmayanda.

Baxarsan sağında, solunda sevgi,
Süni, bər-bəzəkli donunda sevgi.
Xatirəyə dönər, sonunda sevgi,
Yanında əzizim, mən olmayanda

Bilirəm rəqibə, satmazsan məni,
Unutmaq istərsən, atmazsan məni,
Axtarar gözlərin, tapmazsan məni,
Yanında əzizim, mən olmayanda.

23.08.10 saat 12-35

## Gülərüz keçərdin baxardın mənə

Gülərüz keçərdin, baxardın mənə,
Sevinc gözlərimə, sən bəxş edərdin.
Əlinlə xəncəri taxardın mənə,
Dönüb baxa-baxa yolun gedərdin.

Baxardın, ayağım üstündə durub,
Yoxsa sərilmişəm, artıq mən yerə.
Qıyğacı baxışla, bir mizrab vurub,
Sədasın yaymaqçün obaya, elə.

Şükür ki mən dözdüm, yıxmadı zaman,
Qorudum sevgimi, şərafətimi.
Sən isə büdrədin, hey zaman-zaman,
İtirdin sevgini, ləyaqətini.

23.08.10 saat 15-15

Köçəri quşlara bənzəyir insan

Köçəri quşlara bənzəyir insan,
Özü də bilməyir hara uçacaq.
Bu dünyada qurur, yuva anbaan,
Elə bilir dünya ona qalacaq.

Açılan gözlər də, bir gün bağlanar,
Başqa bir dünyada qonaq olacaq.
Röyaya dönərək adı hallanar,
Lənəti, rəhməti, kimlər alacaq?

Bu, sirli möcüzə, tapılmaz yeri,
Bilinməz, görünməz nəticə sonda.
O dünyaya gedən, dönərmi geri?
Allahın izni olmazsa onda.

05.09.2010 saat 3-03

## Bilməmisən bu vaxtacan kiməm mən

Bilməmisən bu vaxtacan kiməm mən,
Hicran daşın atıb, geri dönəydin.
İllər keçib oyanmısan indi sən,
Əzəl gündən məni gərək görəydin.

O zamanlar saçlarım da qaraydı,
Gözlərimdə nurlu çıraq yanardı.
O zamanlar aramızda qayaydı,
Məni sevən özün xoşbəxt sanardı.

Qocalığa payız yoldaş olarkən,
Çətir tutub yağışlardan qoruma.
Mən sənsiz də oyanaram sübh, erkən,
Əbəs yerə, get özünü heç yorma.

Desəydin o kimdir, deyərdim ki, sən

Məni dəli edib özümdən alan,
Desəydin o kimdir, deyərdim ki, sən.
Gecəmlə gündüzümü qarışıq salan,
Desəydin o kimdir, deyərdim ki, sən.

Məni gözləməyə vadar eyləyən,
Desəydin o kimdir, deyərdim ki, sən.
Doğrunu gizlədib, yalan söyləyən,
Desəydin o kimdir, deyərdim ki, sən.

Mənim saf sevgimi tamam görməyən,
Desəydin o kimdir, deyərdim ki, sən.
Canını qoruyan, qurban verməyən,
Desəydin o kimdir, deyərdim ki, sən.

09.09.10-cu il saat 23-33

Gəl yanıma ruhlarımız qarışsın

Gəl yanıma ruhlarımız qarışsın
Gəl yanıma ruhlarımız qarışsın,
Cismimizdə nə var, nə yox danışsın,
Alışarsa söndürmə, qoy, alışsın,

Bizə qalan belə dünya, belə an,
Təsəllini bəlkə belə tapa can.
Əl çatmaza dönüb, məkan aralı,
Biri xoşbəxt, biri dərddən yaralı,

Gəz bağçamda sən ey könül maralı,
Bizə qalan belə dünya, belə an,
Təsəllini bəlkə belə tapa can.
Yoxdur belə, bənzəri gül çiçəyin,

Bülbül ölər öpsə bir gül ləçəyin,
Bilən kimdir, de həyatın gerçəyin,
Bizə qalan belə dünya, belə an,
Təsəllini bəlkə belə tapa can.

11.09.10-cu il saat 23-23

Şəkərdən şirinəm, baldan şipşirin

Şəkərdən şirinəm, baldan şipşirin,
Dadsaydın damaqda qalardı tamım.
Milyardlar içində görsəydin birin,
O mənəm zirvədə alışan şamım.

Nur əgər görsən ki, düşür çöhrənə,
O günəşdən deyil, məndəndir axan.
Diqqət yetirsəydin, baxsaydın mənə,
Qəlbimdən gözümə məlhəmdi axan.

Verərdim məlhəmdən bir damla sənə,
Açmağa qapısın cənnət məkanın.
Qorxuram xəyanət edərsən mənə,
Xəlvətə salaraq batar tikanın.

Yağışlı günlərdə gözün yol üstə

Yağışlı günlərdə gözün yol üstə,
Yolumu gözləyir ala gözlərin.
Başını söykəyib yenə qol üstə,
Təkrar eşitməkçün sevgi sözlərin.

Damlalar birə-bir ayrılır göydən,
Dəyib parçalanır daşların üstə.
Ürək üzülərkən, düşərək heydən,
Sən məni Tanrıdan, arzula, istə.

Gələrəm o zaman hüzuruna bil,
Səcdə etmək üçün həyatım sənə.
Səslənib təzədən sevinəcək dil,
Dünyada əzizsən hər şeydən mənə.

07.10.2010-cu il saat 14-09

**Bir uşaq təki sən, baxardın mənə**

**Bir uşaq təki sən, baxardın mənə,
Artıq dəyişibdir baxan baxışlar.
Diqqət yetirməzdim heç zaman sənə,
Gözlərdə parlayır, parlaq naxışlar.**

**Bürünüb çöhrən də nura günəş tək,
Şəfəqi könlümü tamam məst edir.
Bağçamdan dərərkən çiçəklər tək-tək,
Ürəyim üzülür, səninçün gedir.**

**Bilmirəm sevgidir, istəkdir, nədir?
Dövr edib uçursan şam ətrafında.
O yanan şam mənəm, məni məhv edir,
Alışıb yanıram sənin yanında.**

**21.10.2010-cu il saat 11-50**

Yaxşı ki, qanadın yoxdur uçmağa

Yaxşı ki, qanadın yoxdur uçmağa,
Damlarda qoymazdın nə dam, nə baca.
Uçmağa cəhd edir, hər gün qurbağa,
İlanı gördükdə, taqət yox qaça.

Bu gün dünənkindən bir qədər fərqli,
Var ilə, dövlətlə öyünməkdəsən.
Çaşdırıb özündə, başında əqli,
Sabahın əzabın görməməkdəsən.

Sənə qanad verən, var-dövlət verən,
Artıq xəyanətin izinə düşmüş.
Sonun yaxınlaşıb, deyərkən görən,
Sənin bu halına baxaraq gülmüş.

21.10.2010-ci il saat 12-27

Qırmızı rənglərlə yaradıb sətir

Qırmızı rənglərlə yaradıb sətir,
Şeirimi yazıram qanım rəngində.
Rəngarəng fəsil tək gətirən ətir,
Qovur yolum üstə, olsa nəhəng də.

Tanrıdan bu qismət olarkən payım,
Öz yolum, sevgim var, hər bir sözümdə.
Günəş gündüzlərim, gecələr ayım,
İlhamım, qüdrətim vardır özümdə.

Bir amal yaşadır, sevgi, məhəbbət,
Vətənə, Anaya, doğma hər kəsə.
Mənim qismətimə düşüb bu əlbət,
Şeirlər yayılıb, düşərək səsə.

Xoşbəxtəm deməyə vardır bu haqqım,
O uca Tanrının sevgisi məndə.
Yaşadım, yaratdım, deməzdim yatdım,
Mütaliə etsən, duyarsan sən də.

22.10.2010-cu il saat 10-23

## Axıtdın göz yaşın, kövrəltdin məni

Axıtdın göz yaşın, kövrəltdin məni,
Damlasında vardı, dağ boyda kədər.
Dünya yaranmayıb yenidən yeni,
Milyonlar gətirib, aparır hədər.

Çoxları qismətin axtaran zaman,
Həyat yollarında büdrəyib qalır.
Kimdə səbir olsa, o zaman-zaman,
Həyatın özündən qismən zövq alır.

Kim demiş olsa ki, xoşbəxtəm tamam,
O, xoşbəxt deyildir, yalandır yalan.
Kim demiş olsa ki, bədbəxtəm tamam,
O da yalan deyir, inanma o an.

Alın yazısını heç kimsə silməz,
Yamacda gül-çiçək, zirvədə qardır.
Tanrı bildiyini heç kimsə bilməz,
Hərənin qisməti, taleyi vardır.

Bu sevdadan əl çəkmədin

Fəsillər il tamam etdi,
Muradına yetən yetdi.
Köçəri quşlar da getdi,
Bu sevdadan əl çəkmədin.

Biri aldı, biri satdı,
Gecəni gündüzə qatdı.
Sevdasına sevən çatdı,
Bu sevdadan əl çəkmədin.

Noxud boyda yox ağılın,
Quru zəmin, yox taxılın.
Gözü çıxsın qoy paxılın,
Bu sevdadan əl çəkmədin.

Gəzəcəksən illər boyu,
Sən görməzsən belə toyu.
Unutmusan adı, soyu,
Bu sevdadan əl çəkmədin.

22.10.2010-cu il saat 17-51

Deyəsən unutdun artıq sən məni

Deyəsən unutdun artıq sən məni,
Oldu bu qismətim səndən yadigar.
Canımın içi tək sanarkən səni,
Sənin səsin gəlmir, mən olmuşam kar.

Sükuta qərq olmuş keçən zamanım,
Danışmır bu dilim, küsmüş özümdən.
Sənsizlik içində talanır canım,
İmtina eyləyir məndən, sözümdən.

Kimsə əvəz etməz səni həyatda,
Hakimsən ruhuma, canıma mənim.
Mən qaldım piyada, sən isə atda,
Yanmadın nə üçün halıma mənim?

31.10.2010-cu il saat 1-47

## Sənin gözlərini qoymuşam yolda

Sənin gözlərini qoymuşam yolda,
Artıq narahatdı, o yollar dönəm.
Mən sənə deyərkən, sevincim ol da,
Səninçün sözlərim olmadı önəm.

İndi göy üzündə buludlar təlaş,
Onun bənzəri var, yer üzündə mən.
Fərqimiz heç yoxdur, biz deyilik daş,
Damlalar yaradıb, bərabərik tən.

Bilsəydim ağlayır, bir könül mənsiz,
Çəkərdim nazını, qəmzəsini mən.
Sevincə döndərib, qəmi də səssiz,
Edərdim gözləri sözlərimlə şən.

31.10.2010-cu il saat 12-00

Günay

Həzin musiqinin sədası altda,
Elə bil uçurdun fəzada Günay.
Şahmat oyununda edilən matda,
Rəqsinlə qalibdin, bu ada Günay.

Ağ əllər bənzərdi göyərçinlərə,
Enərkən, qalxarkən, gözəldi Günay.
Qədəmlər ehmalca dəyərkən yerə,
Füsunkar qamətdə, əzəldi Günay.

Hindistanlı bildim, Azəri oldun,
İki qat sevinci bəxş etdin Günay.
Açılan sübh çağın bənzəri oldun,
Süzüb gözlərini, sən getdin Günay.

01.11.2010-cu il saat 00-59

İstərdim yazıla şeir şənimə

İstərdim yazıla şeir şənimə,
Şair düşüncəsin görəydim onda.
Gözəllik timsalın edən xanıma,
Mənə də təsvirin verəydi sonda.

Demirəm çox tərif, olsun bəzəkli,
Məni gördüyü tək edəydi qəbul.
Orda olmayaydı sözlər qəzəbli,
Mehriban baxışla qoy baxaydı qul.

Gözlərində onun atəşi parlar,
Özümə baxarkən aynada gördüm.
Əriyər su olar, beləcə qarlar,
Eşqin qalasını xəyalla qurdum.

31.10.2010-cu il saat 15-41

## Dözməyib ağlayan könül məndədi

Dözməyib ağlayan könül məndədi,
Cəfasın, şəfasın çəkənim yoxdu.
Mayası yoğrulub, yəqin qəmdədi,
Mənim sevdiyim yox, sevənim çoxdu.

Çaşqınlıq içində açılan səhər,
Yolumun üstünə şəfəq saçsa da.
Məndən ayrılmayır heç cürə qəhər,
Dünya gözəlliyin üzə açsa da.

Yarımçıq könlümün əsarətində,
Dövr edir zamanım, dövr edir günüm.
Məni bəsləyərkən, bu adətin də,
Azalır sabaha olan ümidim.

31.10.2010-cu il saat 16-39

Mən səni həmişə arzu etmişəm

Mən səni həmişə arzu etmişəm,
Röyadan ayrılıb görməkçün səni.
Axı mən ürəkdən səni sevmişəm,
Yalan heç danışan görmüsən məni.

Qızarır, bozarır, çöhrəm yanında,
Xırda bir uşaq tək titrəyir əlim.
Üstümdən ayrılır, canım o anda,
Diz üstə çökməyə meyl edir belim.

Məgər gördüklərin sevgi deyil, nə?
Bir sözü deməyə dolaşır dilim.
O şirin dilindən gözləyirəm hə,
Düşdüyüm məkanı cənnət qoy bilim.

22.11.2010-cu il saat 17-37

Şəffaf bir bulağın kənarında mən

Şəffaf bir bulağın kənarında mən,
Sevmişəm baxarkən ala gözlərin.
Çöhrəndə nur vardı, gözlərində şən,
Məni məst eylərdi şirin sözlərin.

İstəyirəm səni hədsiz səmimi,
Sevgimi zirvədə qoruyuram mən.
Yalanla doğrunun, heç varmı cəmi?
Üstlərin örtsə də, duman ilə çən.

Alçaltmaq deyildir, sevməkdir səni,
Yaşamaq istərəm sənli xəyalla.
Nə qədər yaxına çağırsan məni,
Qorxuram tənhalıq hökmündə qala.

17.11.2010-cu il saat 20-23

## Füsunkar, incəsən bir çiçək təki

Füsunkar, incəsən bir çiçək təki,
Valeh eyləmisən gözəlim məni.
Cazibə qüvvənlə yox edib çəki,
Fəzadan baxıram, seyr edib səni.

Ruh candan ayrılsa ölüm haqq olar.
Yalandır bu deyim, inan sən mənə.
Sənsizlik yaransa gözlərim dolar,
Uçar bu ürəyim yetməkçün sənə.

Susursan cavabın yoxdu sevgimə,
Mənimsə bu qəlbim doludu sözlə.
Həsrətimi çəkən, çoxdu sevgimə,
Tələsmə cavaba, bir qədər gözlə.

20.11.2010-cu il saat 0-41

Qoru ənənəni sən asta-asta

Toxundu dodağım, əlim, çöhrənə,
Çəkdim sığal telə, mən asta-asta.
Sıxdım ağuşuma baxarkən sənə,
Ağlı başdan aldın sən asta-asta.

Günbəgün toplandı eşqin qəlbimə,
Eylədi ömrümü şən, asta-asta.
İndi sevdiyini tələsib demə,
Dağlardan qoy ensin, çən asta-asta.

Bəxş edən Allahdı, canı, sevgini,
Seyr edir bizləri, tən asta-asta.
Müsəlman olmaqçün islamdır dini,
Qoru ənənəni sən asta-asta.

21.11.2010-cu il saat 20-59

## Sən getdin, ətirin qalıb yanımda

Sən getdin, ətirin qalıb yanımda,
Mənim otağımdan çıxıb getməyib.
O anlar rəqs edir yenə canımda,
Sənin tək başqası xoşbəxt etməyib.

Xoşbəxtəm sayəndə, kölgəndə sənin,
O kölgəlik qoyma üstümdən gedə.
Yarsın ləpələri xilaskar gəmin,
Tək mənim könlümü daim şad edə.

Çoxdan mənim arzum olub tanrıdan,
Bir gözəl yetirsin, gözəldən gözəl.
Bu cana cəm olub dolub tanrıdan,
Məhəbbət camımı, sənə verim, gəl.

22.11.2010-cu il saat 15-47

Dəyməz əməllərin inan heç nəyə

Heyif yalanların gözəlliyinlə,
Mehriban dolanır, səninlə birgə.
Dostlar itirirsən öz əllərinlə,
Əzablar çəkərsən, düşəndə bərkə.

Boylanıb görərsən, bir kimsən də yox,
Ətrafın boşluqdu, o boşluqda sən.
Bax onda özünü danlayaraq çox,
Deyərsən nə günah eyləmişəm mən.
Dili yox yalanın dursun üzbəüz,

Günahı döndərib bir əyləncəyə.
Əyridir yolların, istəmədin düz,
Dəyməz əməllərin inan heç nəyə

30.11.2010-cu il saat 16-23

Sənsizlik mənimçün sükut bir otaq

Sənsizlik mənimçün, sükut bir otaq,
Onun divarları üstümə aşır.
Qoyma tənha qalam, gəl birgə yataq,
Bulaq tək ürəyim coşaraq daşır.

Dad onun, səpsərin, suyundan bir az,
Mənim muradımı, gözümdən oxu.
Nə qədər istəsən, eylə mənə naz,
Sevgi çələngini, əlinlə toxu.

Darıxıram sözü, necə də rahat,
Tələffüs olunur, insan dilində.
Amma əzabları tamam qoyub mat,
Cücərir fəsilin hər bir günündə.

Bu gün də sənsizlik hökmüylə bir ad,
Əsarət eyləmiş sənli istəyə.
Ruhum bu cismimi qoymayır rahat,
Eytiyac o duyur, hər gün dəstəyə.

03.12.2010-cu il saat 0-19

## Səni düşünürəm oturub tənha

Səni düşünürəm oturub tənha,
Bağlanıb büsbütün taleyim sənə.
Hər bir nəfəsim də, çəkilən aha,
Səbəbkar sən oldun, bəxş etdin mənə.

Sevdirdin günbəgün, çox asta-asta,
Özüm də bilmədən, ayılanda gec.
Batırdın qəlbimə ox asta-asta,
İndi divanənəm, görən deyir gic.

Beləsində ağıl olmaz deyirlər,
Ağılsız olsaydım, sevərdim səni?
Gözləri kabusla ortaq görürlər,
Sənin gözəliyin məhv edir məni.

03.12.2010-cu il saat 11-15

## Mənim darıxmağım, mənim içimdə

Mənim darıxmağım, mənim içimdə,
Əzabı, sevinci hamısı mənim.
Ölçülər bölünüb, fərqli biçimdə,
Xatirəyə dönən, dumanım, çənim.

Sənli olan sevgim, daim zirvədə,
Nə qədər mən sağam dərələr görməz.
Əməl eyləyirəm verdiyim vədə,
Qəhrəman tək şəhid, olsa da ölməz.

Darıxırsan mənçün, soruşdun nədən?
Buna şəkki-şübhə, neyçün eylədin.
İcazə ver mən də, soruşum səndən,
Bir dəfə darıxıb, mənçün göynədin?

03.12.2010-cu il saat 12-39

## Bir cüt mələk

Bir cüt mələk gəlmiş, elə bil göydən,
Xoşbəxt qədəmlərlə toxunur yerə.
Bütün doğmalara sevinc bəxş edən,
Şəfəqdən ayrılan düşən nur yerə.

Gözəl bir gecənin şahidiyik biz,
Bəylə gəlin gəlir, gül dəstə-dəstə.
Qalacaq tarixdə yazılan bu iz,
Necə də gözəldir, məclis ahəstə.

Günay sevgisindən xoşbəxtdir Kənan,
Taleh qismətinə yazılmış bu an.
Diləyək məhəbbət hər gün Tanrıdan,
Xoşbəxtlik, səadət yetirsin zaman.

05.12.2010 saat 23-55

Gələcəyəm heç narahat olma sən

Ala gözlər qoyma baxa yol üstə.
Məyus olub başın qoyma qol üstə,
Xalça sərib uzanginən sol üstə.
Gələcəyəm heç narahat olma sən.

Köçəri quş dönüb kəndə gələndə,
Al lalələr dağ döşündə görəndə.
Qaranquşlar öz yuvasın hörəndə,
Gələcəyəm heç narahat olma sən.

Bizim axşam tez gəlsəydi görərdin,
Milyon ulduz, bircə aydı, görərdin.
Ramiz özü tək-tək saydı görərdin,
Gələcəyəm heç narahat olma sən.

07.12.2010-cu il saat 22-57

Laqeyd sevgimə, qalan sevgilim

Mənim bu sevgimin çılğın çağında,
Yolumu bürüyüb duman ağında.
Qartala dağ çəkib hicran dağında,
Laqeyd sevgimə, qalan sevgilim.

Könül dəftərindən vərəq qoparan,
Arzumu əlimdən alan aparan.
Mənəm bu dünyada artıq talanan,
Laqeyd sevgimə, qalan sevgilim.

Həsrətlə gözlədim, vədi, zamanı,
Vaxt tapdın özgəyə, mənçün yalanı.
Sənin söylədiyin, o sözlər hanı?
Laqeyd sevgimə, qalan sevgilim.

12.12.2010-cu il saat 23-45

Sonsuz təşəkkürü göndərdim sənə

Göndərdiyin namə, həssas, həm gözəl,
Yazdığın şeirlər gəzirlər əl-əl.
Təəssüf tanımadım, çox illər əzəl,
Sonsuz təşəkkürü göndərdim sənə.

Təşəkkür içində çırpınan ürək,
Ülvi arzularla, tər qönçə dilək.
Qoşa addımlayıb sevincdən gülək,
Sonsuz təşəkkürü göndərdim sənə.

Bu səhər yenə də düşündüm səni,
Gözəlliyin valeh eyləmiş məni.
Bülbül axtararkən, gülü, gülşəni,
Sonsuz təşəkkürü göndərdim sənə.

Fırtına qoparır səbir içimdə

Fırtına qoparır səbir içimdə,
Daha o dözməyib, tüğyan eyləyir.
Artıq qərarlaşıb,bu gün seçimdə,
Səni sevdiyini mənə söyləyir.

Sənin baxışından alovlu atəş,
Səbir kasasında məşəl yandırıb.
Buna qibtə edib baxarkən günəş,
Tanrı bu sevgini göyə qaldırıb.

Seçim et sevgidə sən ey səbəbkar,
En göylərdən yerə, gəl pişvazıma.
Ramiz, bu sevgidə, olma tələbkar,
Səbir ilə seyr edib, döz hər nazına.

14.12.2010-cu il saat 11-55

Etiraf etmişəm sənə sevgimi

Etiraf etmişəm sənə sevgimi,
Bəlkə səhv eyləyib mən yanılmışam.
Hərdən düşünürəm sevmişəm kimi?
Özümə dost bilib, düşmən tapmışam.

Sən mənə düşmənsən gördüyüm gündən,
Ölüm fərmanımı artıq vermisən.
Sevgi çələngini hördüyüm gündən,
Sən isə asmağa ipin hörmüsən.

Dəhşətdir əməlin, hökmün, o hikkən,
Səni çox sevəndən, qisas alırsan.
Ramiz, bu məhəbbət diqqətdir çəkən,
Elə bil boşluğa saman atırsan.

14.12.2010-cu il saat 13-05

## Tanrının ən gözəl şah əsərisən

Tanrının ən gözəl şah əsərisən,
Görən valeh olur sənin hüsnünə.
Həyat imtahandır, sənsə dərsisən,
Əlacı olmaqçün, qərqəm tüstünə.

Görən təəccüb edir, qara tor olub,
Qınaq mərkəzində oldum həmişə.
Onların gözləri tamam kor olub,
Yollardan ötərkən, gedərkən işə.

Təlatüm içində keçir zamanım,
Ayrılıq istəklə durub üz-üzə.
Sənin əllərində olarkən canım,
Arxayınlıq gəlir çöhrəmdə gözə.

15.12.2010-cu il saat 11-45

Apar məni hara getsən özünlə

Apar məni hara getsən özünlə,
Söz verirəm şuluq salan deyiləm.
Bir körpə tək, toxun mənim əlimə,
Qoru məni, gəl nə olar, deyirəm.

Bir az danla, bir az sevdir özünə,
Baxa bilim heç olmasa gözünə.
Mən odlansam qoy, odlanım közünə,
Qoru məni, gəl nə olar, deyirəm.

Heç olmasa səni görüm yanımda,
Cəsarəti tapa bilim canımda.
Gözüm yoxdur, heç bir gözəl xanımda,
Qoru məni, gəl nə olar deyirəm.

14.12.2010-cu il saat 17-15

Yenə həsrətindən üzülür bədən

Yenə həsrətindən üzülür bədən,
Mənasız sevgiyə ey vadar edən.
Buzluq səhralığa ataraq gedən,
Donuram günbəgün ölürəm daha.

Ləpirlərin vardı, getdiyin anda,
O izlərin köçüb, yaşayır canda.
Ruhum ruhun ilə dövr edir qanda,
Donuram günbəgün, ölürəm daha.

Qəddarsan cəllad tək, ölüm sevincin,
Həzz almaq peşəndi, yox olub dincin.
Hər şeydən qiymətli olarkən incin,
Donuram günbəgün, ölürəm daha.

16.12.2010-cu il ssat 11-46

## Gözlərin canlanır, gözlərim öndə

Gözlərin canlanır, gözlərim öndə,
Düşünməyə vadar eyləyir məni.
Adın hallanaraq sözlərim öndə,
Sənli bu ürəyim neyləyir məni?

Artıq o səndədir, sənin əlində,
İstərsən nazın çək, istərsən tulla.
Əgər tərk edirsə, o məni gündə,
Göstər rəftarını, mənim tək qulla.

Gecələrim mənim, tənha ulduzum,
Zülmət qaranlıqda, nurum, məşəlim.
Qəlbimi fəth edən, ey körpə quzum,
Kədərim, sevincim, nazlı gülşənim.

19.12.2010-cu il saat 00-37

## Ülkər baxışları gizlətmə məndən

Ülkər baxışları gizlətmə məndən,
Kiprikləri döymə, yenə tələsik.
Çoxdan nigarandım, gözəlim səndən,
Qaça-qaça gəldim sənə tələsik.

Yollarımda daş da, kəsək də vardı,
Ayağı büdrədib, yıxırdı məni.
Leysan yağış vardı, yağmurlu qardı,
Dözərək sevməkdi amalım səni.

Ramiz də soruşdu, sevirsən kimi?
Külək saç oynadır, ağ çöhrən üstə.
Gəlmişəm qoruyam dartılan simi,
Ey yanağı lalə, ləbləri püstə.

21.12.2010-cu il saat 13-17

## Nə qədər uzaqda olsan da məndən

Nə qədər uzaqda olsan da məndən,
O qədər yaxınsan mənə əzizim.
Nigaran qalmışam ey gülüm səndən,
Əllərim çatmayır, sənə əzizim.

Yadındamı hər gün, biz qarşılaşardıq,
O sübhün səhərin, axşam gecəsin.
Küsərdik arabir, həm barışardıq,
Hansı birin deyim, söylə neçəsin?

Sayı hesabı yox, bax ulduz qədər,
O qədər edərdin nazı, qəmzəni.
İndi xatırlarkən bürüyür qəhər,
Ürəyim yenə də, istəyir səni.

Durmuşam yenə də pəncərə öndə,
Səbirsiz, köməksiz, çarəsiz kimi.
Sevgilim nə olar, geriyə dön də,
Döndər çıraqbana gəldiyin tini.

23.12.2010-cu il saat 10-25

## Mənim gözlərimdən süzülən göz yaş

Mənim gözlərimdən süzülən göz yaş,
Sənin ürəyinə düşəydi bir-bir.
Bəlkə də olmazdı, qəzəbli göz-qaş,
Ortada gizlənpaç oynamazdı sirr.

Unudulmuş sevgi, saralmış məktub,
Payız yarpağı tək, qopub budaqdan.
Bir zaman döyünən ürəyin tup-tup,
Ədalətsiz ikən danışmaz haqqdan.

Ey haqqın dərgahın, sökən, yox edən,
Sual et qəlbinə, cavabın istə.
Mənə eşqim deyən, ataraq gedən,
Tapşırdım Allaha, savabın istə.

24.12.2010-cu il saat 15-05

Ə s a

Həm işıq, həm qazdan xəbərsiz otaq,
Günəş istisiylə qızınır bu gün.
Kəsilib ağaclar, yox olubdu bağ,
Bənzəyir səhraya bu həyat üçün.

Qayğısız, köməksiz bir küncdə qoca,
Keçmiş zamanları xatırlayarkən.
Gözünə sataşdı əlində əsa,
Onu bir kənara, yerə atarkən.

Yoxdu bu otaqda qapı, pəncərə,
Yandırmış eytiyac zamanın hökmü.
Artıq bu əsaya qalarkən çarə,
Düşünməyə qalmır bir anın hökmü.

Günəş asta-asta çəkilib gedir,
Titrədir vücudun soyuq anbaan.
Son dəfə əsadan o ocaq edir,
Qocanın sonudur, od sönən zaman.

14.01.2011-ci il saat 13-47

Ə l v i d a

O sahilə dəymir artıq ləpələr,
Ləpələr də bezib, qoyduğun izdən.
O qayadan dərmir, çiçək bu əllər,
Çöküb, fərq eyləmir, artıq o düzdən.

Sevgi sənlik deyil, danışma ondan,
Səndəki səhrada yaranan boran.
Görməyib gözlərin, nə zülmət, nə dan,
Hansı ədalətdən danışır o can.

Canımsan, gözümsən demə sən mənə,
Mənə lazım deyil, eşqin, atəşin.
Sonuna çatdırma demişdim sənə,
Əlvida, olmasın mənimlə işin.

24.01.2011-ci il saat 20-03

Sənsiz bu dünyada dəli olardım

Qəlbimdə boşluğa sən dolmasaydın,
Cəngəllik kolların sən yolmasaydın.
Əgər həyatımda sən olmasaydın,
Sənsiz bu dünyada dəli olardım.

Yalqız çəmənlikdə quzu mələrdi,
Başına kim bilir nələr gələrdi.
Zaman ağuşunda un tək ələrdi,
Sənsiz bu dünyada dəli olardım.

Əllərim əsadan tutardı bir gün,
Zaman qamətimi əyərdi gün-gün.
Səma tutulardı, görünməzdi gün,
Sənsiz bu dünyada dəli olardım.

Sən gözlərim nuru, başımın tacı,
Mənim dərdlərimin min bir əlacı.
Ey dilimin dadı, canım möhtacı,
Sənsiz bu dünyada dəli olardım.

22.02.2011-ci il saat 11-45

## Məni edəcəkdin xoşbəxt deyirdin

Məni edəcəkdin xoşbəxt deyirdin,
Buna cəsarətin çatmadı əfsus.
Sən ki oxunmayan gizli şeirdin,
Dilin şirinliyi qatmadı əfsus.

İllərlə düşərdin arxamca hər gün,
Qarşımda diz üstə çökmək istərdin,
Solardı çöhrəndə zülfün günbəgün,
Yazığım gələrdi, bir dərdi-sərdin.

Axır ki, çatdırdın özün mətləbə,
Ailə də qurduq, ev sahibiyik.
Uyğun heç gəlmədi sözün mətləbə,
Hər gün dava qurduq, indi biz nəyik?

Biz daşıq, ikisin qoparıb gərək,
Vuraq sevgimizin o kül başına.
Ramizdən gizlincə aparıb gərək,
Söykəyək uğursuz qəbir daşına.

23.02.2011-ci il saat 12-21

Nadir insan yaradıb,
Tanrı səni mən görürəm

Nadir insan yaradıb, Tanrı səni mən görürəm,
Yolların nura dönür, yoxdu duman, çən görürəm.
Möhtəşəm dağ təkisən, zirvədə parlaqdı günəş,
Qar ilə, ağ saçı vəhdət, yenə də tən görürəm.

Ayrıla bilməz o sevgi, o məhəbbət səndən,
O səbəbdən gülərüz, gözlərini şən görürəm.
Soruşurlar səni şair, yenə xəlvət səndən,
Sayları çoxdu sayılmaz saçı ağ dən görürəm.

Dəyişir dövrü zaman, həm dəyişir insanlar,
Səni sən tək, necə varsan, yenə də sən görürəm.
Ramiz, canan özü gəldi, yaşadıq xoş anlar,
Səhralıq olsa belə, o yeri gülşən görürəm.

09.03.2011-ci il saat 9-35

Darıxıram ay bəxtəvər səninçün

Səni sevdim, göz yaşımı siləsən,
Saldın məni yanar oda biləsən.
Laqeydsən, mənə qarşı eləsən,
Darıxıram ay bəxtəvər səninçün.

Gəl döndərmə bu atəşi külə sən,
Mən istərdim, mənlə həmdəm güləsən.
Şübhə etmə nə bülbülə, gülə sən,
Darıxıram ay bəxtəvər səninçün.

Atma məni bu daşqına, selə sən,
Tər qönçəyəm, tax gülləri telə sən.
Qoyma getsin bu məhəbbət yelə sən,
Darıxıram ay bəxtəvər səninçün.

Sən çox sevin, dua eylə, dilə sən,
Günü, ayı gəl toplama ilə sən.
Mən neyləyim daş ürəklim, beləsən,
Darıxıram ay bəxtəvər səninçün.

09.03.2011-ci il saat 11-12

Hansı məhəbbətdən danışır dilin

Əllərim əlinə toxunmayırsa,
Yazdığım məktublar oxunmayırsa.
Acılıq dilindən yox olmayırsa,
Hansı məhəbbətdən danışır dilin?

Özünü bənzətmə huri mələyə,
Sənin məhəbbətin dönüb kələyə.
Düşərsən xəbərsiz özün tələyə,
Hansı məhəbbətdən danışır dilin?

İtirsən, batırsan lazım olan an
Özün öz sevginə, olursan heyran
İşlərin düşəndə olaraq ceyran
Hansı məhəbbətdən danışır dilin?

09.03.2011-ci il saat 14-14

Bayramdan bayrama görüşən kişi

Sevindim səninlə ilk görüşündən,
O incə, mehriban bal öpüşündən.
İndi baş açmıram, mən bu işindən,
Bayramdan bayrama görüşən kişi.

Qoymusan yollarda mənim gözümü,
Məgər istəmirsən, deyəm sözümü.
İndi danlayıram özüm özümü,
Bayramdan bayrama görüşən kişi.

Tapacam özümə başqa bir kişi,
Cibləri dopdolu qozu, kişmişi.
Mən qoya bilmərəm qala bu işi,
Bayramdan bayrama görüşən kişi.

09.03.2011-ci il saat 22-10

Qorxdum səni sevmək,
belə sevgi, məni tutdu

Qorxdum səni sevmək, belə sevgi, məni tutdu,
Ruhu ələ aldı, canı bir gün, belə uddu.
Canı sənə verdim, bir ağac kölgəsi altda,
Əfsus nə biləydim, bu ağacın adı tutdu.

Zəncir vura bilsən, vur ona, qoyma ki, qaçsın,
Hərçənd hara qaçsa, yenə son məkanı yurddu.
Bülbül avaz etsin, açılan gül gözəl açsın,
Atlasa çevirsə, çevirən yarpağı qurddu.

Məğrur dayanardım, əyə bildin, məni əfsus,
Dizlərə təpər, ayağa məhkum o da budu.
Ramiz, musiqi nalə edərsə daha sən sus,
Kaman tarı səslər, buna həmdəm, yenə uddu.

09.03.2011-ci il saat 15-33

### F ə x r ə d d i n

Ölümdən qaytardın, ölən kəsləri,
Boğuq, təngnəfəs gələn səsləri.
Verdin cavanlara şəfa dərsləri,
Çünki şəfalıydı əlin, Fəxrəddin.

Şəxsi işlərini kənar atardın,
Gecəni gündüzə hər gün qatardın.
Yuxusuz qalardın, çox gec yatardın,
Çünki şəfalıydı əlin, Fəxrəddin.

Ümidlə gözlərdi yüzlərlə insan,
Gözlər ağlayardı, çırpınarkən can,
Sevinc xəbərini, verərdin bu an,
Çünki şəfalıydı əlin, Fəxrəddin.

Seçdin möhtəşəm yol, vurdun zəfəri,
Adın, şöhrətin tək, dillər əzbəri.
Bizləri sarsıtdı, ölüm xəbəri,
Çünki şəfalıydı əlin, Fəxrəddin.

Baxma gözlərimə belə alovla

Baxma gözlərimə belə alovla,
Əksimi gözündə yanan görürəm.
Hissini, sevgini tamam cilovla,
Gözəlsən, qarşımda canan görürəm.

Haqqın dərgahında görünən mələk,
Haqqa söykənibdi eşqin, atəşin.
Çoxdan görüşəydim səninlə gərək,
Eytiyac olmazdı nuru günəşin.

Çiçəkli bağçanın, hər bir gülündən,
Toplayıb elə bil, ətir çəkmisən.
Axı sən hardaydın, əzəl günümdən,
Əksimi gözlərdə parlaq çəkmisən.

12.04.2011-ci il saat 11-33

**Belə baxma, nə baxırsan,**
**mənə tərs-tərs**

**Belə baxma, nə baxırsan, mənə tərs-tərs,**
**Dillən, o dilindən eşidim, bircə kəlam, səs.**
**Gəldin gəlişinlə baharı vəsf edə bildin,**
**Hər kəs belə söylər, bu qızın xasiyyəti tərs.**

**Bülbül gülə baxmaz, yox olarsa, o tərvət,**
**Bihuş edə bilsən, deyərəm ki, bu edər bəs.**
**Mehman ola bilsən, bu gecə ol, mənə afət,**
**Yox söyləmə canan, eləmə işlərimi nəhs.**

**Seçdin məni əhsən, belə ol, cümlə cahanda,**
**Əvvəl nə olubsa, o işi birdəfəlik kəs.**
**Ramiz, demişəm, söylə ona indiki anda,**
**Ceyran yerişinlə bədəni, silkələyib əs.**

**14.04.2011-ci il saat 17-53**

## Darıxır ürəyim yenə səninçün

Darıxır ürəyim yenə səninçün,
Nə edim, əsirin olmuşam belə.
Unuda bilmirəm axı nə üçün,
Çarəsiz, ümidsiz qalmışam belə.

Şəkilin əlimdə gözlərimdə yaş,
İstədiyim qədər öpürəm səni.
Qırpılmır gözlərin, titrəməyir qaş,
Valeh eyləmisən əksindən məni.

Şəkildə mənimsən, həyatımda yox,
Nə qədər uzaqsan, o qədər yaxın.
Səni sevməyimin səbəbləri çox,
İstəsəz, şahidlə, bərabər baxın.

Bəlkə sən o zaman aşkar görərsən,
Məcnun simasında gəzərkən məni.
Bəlkə də bir səhər mənə dönərsən,
Heç kəs sevməyəcək, mənim tək səni.

14.04.2011-ci il saat 23-53

Özümü həyatda xoşbəxt sayardım

Özümü həyatda xoşbəxt sayardım,
Deyərdim şükürlər olsun Allaha.
Varım, bu dövlətim, şöhrətim, adım,
Səni görən gündən çatmayır dada.

Hər şey əllərimdə qüdrətim, hökmüm,
Acizəm qarşında körpə uşaq tək.
Sənsizlik şəfəqdə qaralır günüm,
Ləçəklər saralır tökülür tək-tək.

Sən demə həyatda hər şey var deyil,
Varı da yox edən sirlər bu imiş.
Zirvələrə yağan o da qar deyil,
Ağ rəngi aldadan, o da su imiş.

İndi bir xəstəlik tapıbdı canım,
Məhəbbət, səadət, cəmlənib səndə.
Xəstəyəm, dərmanım o sənsən, xanım,
Səbrim, qərarım yox, tükənib məndə.

15.04.2011-ci il saat 11-35

T ə ə s s ü f

Təəssüf edirəm görüşə sənlə,
Qısa bir müddətdə, dəyişdin tamam.
Təəssüf edirəm öpüşə sənlə,
Mələk tək üstümə gəlmişdin tamam.
Sındı qanadların öz əllərinlə,
Açıldı sirlərin zamanla bir-bir.
Külək oynayarkən, o tellərinlə,
Maskan mükəmməldi, heç sirr bilinmir.
Nə qədər zahirin gizlətsə səni,
Dilin daxilini açıb söyləyir.
İkili oyunda mat qoydun məni,
Sənlə itən günçün qəlbim göynəyir.

12.04.2011-ci il saat 13-05

# QƏZƏLLƏR

V ə t ə n i m

Tarixi səhifələdikcə, qocalırsan Vətənim,
Bu günün şövqü ilə, sən ucalırsan Vətənim.

Yüksəlib zirvələrə, ilham alırsan Vətənim,
Bu məhəbbət, bu gözəllik, sənə məxsus Vətənim.

Qurtuluş oldu, o gün ki, sənə azad dedilər,
Müstəqil addım atarkən, yenə azad dedilər.

Tanrıdan qismətim varmış, mənə azad dedilər,
Bu məhəbbət, bu gözəllik, sənə məxsus Vətənim.

Açılan hər səhərin nurlu çıraqbana dönür,
Sənə vurğun ürəyim, şaddır, firavandır ömür.

Belə bir qüdrəti, həm sərvəti, hər ölkə görür,
Bu məhəbbət, bu gözəllik, sənə məxsus Vətənim.

B a y r a q

Bayraqlara meydan oxuyan bayrağımız var,
Meydanı böyük, zirvəsi yüksək, canımız var.

Dünya tanıyır, həm də görürlər şanımız var,
Qüdrətdir, ləyaqətdir, Vətən rəmzidir bayraq.

Ay, ulduzu parlaq, özü üç rəngdə boyanmış,
Xalq ilə bərabər, həmişə məğrur oyanmış.

Azadlıq üçün ön sırada tənha dayanmış,
Qüdrətdir, ləyaqətdir, Vətən rəmzidir bayraq.

Bayraqla ucalmış, ucalır dünyada ölkə,
Harda olur olsun, ona düşməz yenə kölgə.

Öp, qoy gözün üstə, diz çök, et bunu birgə,
Qüdrətdir, ləyaqətdir, Vətən rəmzidir bayraq.

28.04.2011-ci il saat 23-19

Yazmağa məcbur edir,
könlüm səni yad etməyə

Yazmağa məcbur edir, könlüm səni yad etməyə,
Mehriban o gözləri milyon dəfə şad etməyə.

Yoxdur imkanım belə, vardır sözümdə qüdrətim,
Damla-damla göl edib, sevgilimə ad etməyə.

Gözlərində var şəfa, cəm olub cənnət səndədir,
O bağın bağbanı var, yəqin ki, abad etməyə.

Mən kiməm ki, söyləyəm, dərdin əlacı məndədir,
İmkanım ancaq çatar, şəkərdən nabat etməyə.

Əsdirirsən, titrədirsən, könlümün evin tamam,
Yüksək olur zəlzələn, qoymur ki, fəryad etməyə,

Ramiz, o gözlər çox alovlu, mən isə yanar şamam.
Eşqimin sarayına toxunma, bərbad etməyə.

22.05.2011-ci il saat 22-23

Sənsən mənə həmdəm,
o səbəbdən səni sevdim

Sənsən mənə həmdəm, o səbəbdən səni sevdim,
Aldım yenə ilham, elə səndən, səni sevdim.

Məcnuna dönən könlümün dərmanı da səndə,
Sorma nə səbəbdən, belə məndən, səni sevdim.

İnsaf ilə bax, yandı sinəm də, bu ürəkdə,
Azad elə, həsrət ilə qəmdən, səni sevdim.

Sənsən yaşayan, mənlə bərabər, bu diləkdə,
Duman yenə gəldi, qoru çəndən, səni sevdim.

Bülbül oxuyur sevgi ilə nəğmə çələngin,
Seyr etdi qızılgül, bu çəməndən, səni sevdim.

Ramiz, bu məhəbbət gözümün nurudur yəqin,
Tanrım belə bilmiş, bu səbəbdən səni sevdim.

14.06.2011-ci il saat 10-12

Kim xətrinə dəydi,
məni də görmədi gözlər

Kim xətrinə dəydi, məni də görmədi gözlər,
İncitdi səni, mən də ki, yoxdur belə sözlər.

Varsa o səbəblər demə ki, yoxdu əlacı,
Çəkmə belə dərdi, unut itsin belə izlər.

Seç özünə layiq, şad edə can ilə ruhu,
Daim alışa yanmağa qadir ola gözlər.

Can qəlbinə, imkan edə, məskən belə ruhu,
Canı sənə qurban edən olsa, yenə gözlər.

Dünya yaranıb, Tanrımızın istəyi ilə,
Yazmış yarını, hökmünə layiq ola bizlər.

Ramiz, nə olar Allahımın dəstəyi ilə,
Sevsin o məni, əsməsin yarpaq təki dizlər.

14.06.2011-ci il saat 11-35

İncit məni dilbər, nə qədər istəsən incit

İncit məni dilbər, nə qədər istəsən incit,
Qoyma bu gedə, dövrü hədər, istəsən incit.

Zülm ilə məşəqqət, mənə mənsub olacaqsa,
Olsun, o nazın bəsdi, yetər, istəsən incit.

Sevgin mənə çatmazsa, olaydım sənə bir qul,
Dərdim belə minvalla gedər, istəsən incit.

Tanrı özü yazmış, belə getsə qalacam dul,
Hər gün səni görsəm bəs edər, istəsən incit.

Əl çatmaza dönmüş, o gözəl hüsnü camalın,
Öldür məni bitsin bu kədər, istəsən incit.

Ramiz, demə yoxdur ağlım, yoxdur kamalım,
Olsa əcaba sevgi bitər, istəsən incit.

23.06.2011-ci il saat 0-19

Dözmədi könlüm,
nə edim, mən sənə gəldim

Dözmədi könlüm, nə edim, mən sənə gəldim,
Sənsən bu həyatda mənə eşq, atəşi dərdim.

Sübh çağı açılsa, mənə nə qaradır dünyam,
Çünki sıxılır, qəm eləyir, yoxluğu qəlbim.

Keçdikcə yanımdan xəbərin olmadı əsla,
Qurbanlığa öz canımı yollarına sərdim.

Röyalara gəldin, belə can qalmadı əsla,
Yanlış bu xəyalla yenə tər qönçəni dərdim.

Röyalara gəlmə, yenə sən dönmə xəyala,
Söylə nədir istək, budur artıq sənə şərtim.

Ramiz, şərbət elə süz ki, dolsun bu piyalə,
Canan ilə tez dadmağa, yox taqəti səbrim.

24.06.2011-ci il saat 12-37

Zilləyib gözlərini sən,
mənə baxma gözəlim

Zilləyib gözlərini sən, mənə baxma gözəlim,
Gözəlim olmadın əsla nə də ki, sən əzəlim.

Dəyişən dövrü zaman, qoymadı eşqində məqam,
Bu sonuncu olacaq, xatirə qalsın qəzəlim.

Dayanıb baxma daha söndü məhəbbət ocağı,
Olmadı onda alov ki, balaca mən közərim.

Buna əfsus deyirəm, yox ürəyin bir bucağı,
Gizlədim, ya qoruyum, saxlaya bilməz öz əlim.

Axtarıb tap özünə, layiq olan sevgini sən,
Mənə bel bağlama artıq, bəs edər dərdi-sərim.

Ramiz bil gecə-gündüz, axtarıram sevgini mən,
Biri var gülmə şəkər, könlümə məxsus məzəlim.

14.07.2011-ci il saat 9-30

Tərk edər ruh cismimi,
tənhalığa atsan məni

Tərk edər ruh cismimi, tənhalığa atsan məni,
Əlvida məktubuna, heç bilmədən yazsan məni.

Dözmərəm ki, mən belə, sənsiz zamanım dövr edə,
Əllərinlə xoş olar, inan ki, sən assan məni.

Qane oldum hər şeyə, qısqanclığa, lap həsrətə,
Şöhrətə qaldırmadı, tərk eylədi adsan məni.

Çox sevərkən mən səni, sevgi də getdi məsrəfə,
Bil günah etmiş olarsan, ey gözəl atsan məni.

İncidirsən bəlkə də, belə səninçün xoş olur,
Ahu, naləm bil tutar, bir kimsəyə satsan məni.

Ramiz, bir günahım yox, səbir kasam artıq dolur,
Gəl ataq, bu kasanı, bu gün gəlib tapsan məni.

14.07.2011-ci il saat 15-15

Məni səndən ayıran,
ayrılığa meyl eləmə

Məni səndən ayıran, ayrılığa meyl eləmə,
Acı sözlər dediyin, barlı bağa meyl eləmə.

Ələ düşməz gözəlim, eşqi-məhəbbət yenidən,
Bu çəmən bəsdi bizə, qarlı dağa meyl eləmə.

Üşüdər zirvədə çovğun, sənə pis təsir edər,
Meyvəsi tənha qalan, tək budağa meyl eləmə.

Hər kəsin qisməti var, çarxı zamanında gedər,
Düz yolu keçməlisən, sola, sağa meyl eləmə.

Dözə bilsəm ki, nə var söylədiyin ayrılığa,
Sığalın çəksə belə, sən darağa meyl eləmə.

Ramiz, çağıran var, bəy də deyən, kimsə ağa,
Ayrılıq gəlsə belə, sən arağa meyl eləmə.

23.07.2011-ci il saat 1-09

Baxdı gözlər nə əcəb,
bircə sözü, dil demədi

Baxdı gözlər nə əcəb, bircə sözü, dil demədi,
Bülbül cəh-cəh elədi, çox sağ olu, gül demədi.

Gizli qaldı, bu məqam açması, yoxdursa əgər,
Nə səbəbdən, yenə yandır alovu, kül demədi.

Neçə aşiq, buna məhkum, qalayıb eşq ocağı,
Külə dönmək, necə xoş aşiq üçün, qul demədi.

Əridib şam təki, yalqız qoyaraq bu qucağı,
Qəhqəhə çəkdi özü, bircə dəfə gül demədi.

Qəddar olma bu qədər, gəl bu çəmənlikdə gəzək,
Bunu sevdalı yarın, başqa biri, bil demədi.

Ramiz, olmuş bu gözəllik bütün dünyaya bəzək,
Başqa bir aləmi var, susdu nədən, dil demədi.

01.08.2011-ci il saat 0-37

Həsrətlə baxırsan yenə
arxamca, bəs eylər

Həsrətlə baxırsan yenə arxamca, bəs eylər,
Söz-söhbət olar böylə məqam bil ki, səs eylər.

İmkan yaradırsan belə minvalla görənçün,
Lazımdı sənə qiybət ola, bəsdi kəs eylər.

Yoxdur deyəsən, qorxu canında o səbəbdən,
Şıltaqlıq edib, xətti keçərsən, əbəs eylər.

Olmaz bu könül, bil ki, nigaran, yenə səndən,
Zindana atar, arzunu bağlar, qəfəs eylər.

Bax onda görərsən, necə də tərsdi bu dövran,
Könlün sıxılar, astaca, ehmal nəfəs eylər.

Ramiz, bu qızın məqsədi var etməyə viran,
Öldürmək üçün, tapsa bəhanə, həvəs eylər.

01.08.2011-ci il saat 15-49

Gəlsin, o gözəl nazlı
nigarım, yenə gəlsin

Gəlsin, o gözəl nazlı nigarım, yenə gəlsin,
Sübh çağı oyansın, qaçaraq tək mənə gəlsin.

Həsrətimi, hicranımı, qəm-qüssəmi qovsun,
Keçsin dumanı astaca, ordan çənə gəlsin.

Səbrim tükənir qəlbimə hakimdi əzəldən,
Söylə çəmən üstə düzülən gülşənə gəlsin.

İstəyi şeirdir bilirəm, gəlsə qəzəldən,
Mövzusu məhəbbət, nar içində dənə gəlsin.

İmkan eləyib, qəlb evini, göstərə bilsəm,
Xoş arzuların mətləbi, ancaq sənə gəlsin.

Ramiz, gecə canan qucağında qəfil ölsəm,
Olsun, o biri dünyama, təkrar yenə gəlsin.

02.08.2011-ci il saat 22-39

Heyranam ey gözəlim,
gözlərinin qarasına

Heyranam ey gözəlim, gözlərinin qarasına,
Dilə məskən seçilən, bal dodağın arasına.

Dəli olmağa nə var ki, ver əlindən su içim,
Yenə fəvvarə olub, qan ürəyin yarasına.

Sənə məhkumdu könül, incidə bilsən, incit
Özünə xəta yetirmə, o canım parasına

Yollarım bağlıdı sənsiz, yeri yox, yoxdu keçid
Səhraya at məni ancaq, de gedim harasına?

Yandıra isti oduyla günəşin qoy nəfəsi
Cızdağım çıxsa dəyər, göz yaşının damlasına

Ramiz, aşiqlər edib, zülmə itaət qəfəsi
Vaxtı, vədəni qoyub, tanrı onun yanmasına.

04.08.2011-ci il saat 1-47

İncidirsən məni, incitmə,
gözüm yaşla dolar

İncidirsən məni incitmə, gözüm yaşla dolar,
Tükənər badədə şərbət, əbədi nifrət olar.

Sən sevərkən niyə birdən belə qəddar oldun?
Mənə etmə zülmü, dövrü zaman səndən alar.

Ayılıb bir də görərsən, evin sönmüş çırağı,
Axtarar gözlərin eşqi, yenə yollarda qalar.

Hər səhər telə çəkərkən, sığal üçün darağı,
O da artıq bezərək, tellərini bil ki, yolar.

Baharın yazını döndərmə qışın şaxtasına,
Öz əlinlə, əməlinlə, çiçəyin rəngi solar.

Ramiz, meyl eləyir, sevgili yar başqasına,
Edirəm mən ki, dualar, mənə dönsün nə olar.

04.08.2011-ci il saat 21-49

Hörmət elə o şəxslərə, hörmət elə əsla

Hörmət elə o şəxslərə, hörmət elə əsla,
Pislərdən uzaq, pislərə töhmət elə əsla.

Yoxsa nə əqidə, nə düşüncə, nə də namus,
Olmaz ona fayda, dili şərbət elə əsla.

Görsən ki, çaşıb yolunu azğınlığa getmiş,
Baş qoşma, uzaq ol, yeri xəlvət elə əsla.

Sərsəmliyi, sərsəm özünə, belə ad etmiş,
Mərd ilə otur, sən ona rəğbət elə əsla.

Yaxşı az olan yerdə, pisin çoxluğu məlum,
Çoxluqdan uzaq ol, azı dəvət elə əsla.

Ramiz, əbədi kimdi qalan, yoxluğu məlum,
Artır biliyi bolluca, sərvət elə əsla.

09.08.2011-ci il saat 15-15

Yenə göylərdə gəzir, fikri xəyalın gözəlim

Yenə göylərdə gəzir, fikri xəyalın gözəlim,
En yerə, valeh edir, hüsnü cəmalın gözəlim.

Fürsəti vermə bada, bax belə imkan olmaz,
Ağılı təqdim edir, gözlə kamalın gözəlim.

Yanmağa məcbur edir odlu baxışlar yenə də,
Bilirəm xoşdu məqam ilə, amalın gözəlim.

Göydə şimşək çaxaraq, yağsa yağışlar yenə də,
İçərəm damla yanaqdan, dolu camın gözəlim.

O dodaqlar bala bənzərdi, deyirlər arılar,
Necə mən bilməliyəm dad ilə, tamın gözəlim?

Ramiz, dözməz bu ürək, tən yarıdan o yarılar,
Saxlama əldə alov, vur yana, şamın gözəlim.

10.08.2011-ci il saat 00-30

Bu gözəl dünyamı
döndərmə məşəqqət oduna

Bu gözəl dünyamı döndərmə məşəqqət oduna,
At məni imkanın olsa, yenə şəfqət oduna.

Görsənirsən arabir, eybi yox olsun beləcə,
Atmış olsan yenə at, ənənə, adət oduna.

Qoy alışsın ruh ilə canımı yandırsın odun,
Çevrilə sevgili canan, bu da diqqət oduna.

Biri kinayə ilə, kimsə sevinc ilə dadın,
Bilmək üçün çəkəcək, bil səni xəlvət oduna.

Bəxş edirsən neçə insana, sevinc, qəhqəhəni,
And içirsən beləcə, əhdə, sədaqət oduna.

Ramiz, de nədən, böylə sevirlər ki, səni,
Düşmədin bircə dəfə, sən belə lənət oduna.

11.08.2011-ci il saat 22-27

Durma qarşımda daha,
sevgili canan yeri get

Durma qarşımda daha, sevgili canan yeri get,
Necə gəldin bu yolu, astaca dur sən geri get.

Ayrılıb yollarımız, qovşağı yoxdur sonda,
Dəymədim xətrinə əsla, götürüb dərd səri get.

Coşma dilbər, nəyə lazım bu qədər söz söhbət,
Almaq olmur nəfəsi, isti hava, sil təri get.

Öyrənib bilmək üçün, təşrif edibsən əlbət,
Sevmirəm mən səni artıq, deyilən düz, həri get.

Tərif etmə özünü, kimliyin artıq məlum,
Götür öz əllərin ilə xeyri, həm şəri get.

Ramiz, sevgisi səhrada qalan bir dənə qum,
Külək əssə o qumun sən də dalıyca, pəri get.

11.08.2011-ci il saat 11-47

Günahım var susuram,
sorğu-sual çox eləmə

Günahım var susuram, sorğu-sual çox eləmə,
Sərt olan sözləri bir-bir sinəmə ox eləmə.

Sənə mən sevgimi aşkar edərək, diz çökdüm,
Rəhm edib bircə sözü, hə deyəsən, yox eləmə.

Aranı vurmağa gördün, nə qədər oldu paxıl,
Əl açıb istəsə imdad, köməyi bax, eləmə.

Allahın əmri ilə, insana mənsubdu ağıl,
Et dua, mədə boş ikən, duanı tox eləmə.

Sənə var ehtiyacım, gözlərimin nuru mənim,
Götürüb xəncəri vursan ürəyə, ax eləmə.

Ramiz, bəlkə belə bitsin, bu olan dərdi qəmim,
Sus, dəyirman daşı saxla, belə çaxçax eləmə.

11.08.2011-ci il saat 15-19

Xəstəlik aldı başım
üstünü, fəryad elədim

Xəstəlik aldı başım üstünü, fəryad elədim,
Kimsəyə söyləmədim, Allaha imdad elədim.

Bəxş edib hüsnü camalı, ağlı, həm kamalı,
Ona məxsus bu canım, ruhu tamam şad elədim.

Gec ola, ya da ki tez, köç günü gəlsə, gələcək,
Deməərəm ki, o günün gəlməsinə dad elədim.

Kimsə bilməz necədi, əvvəli, axır öləcək,
O səbəbdən bu gecə, dostlarımı yad elədim.

Bu səhər nurunu saldı günəşim gözlərimə,
Bu günün zülmətinə, mən özümü ad elədim.

Ramiz, oxuyub diqqət edənlər olacaq sözlərimə,
Sözlərimlə bu ötən, ömrümü abad elədim.

11.08.2011-ci il saat 21-09

Sən mənim canıma
məlhəm, neyləyirəm həkimi

Sən mənim canıma məlhəm, neyləyirəm həkimi,
Ülgüc olsa o sözün, kəssə dibindən dilimi.

Sənin qarşında mənim, söz deməyə haqqım yox,
Lal olub, təzim edərdim, keçirərdim ilimi.

Həsrətinlə yaşadım, sən məni bil bilməzdən əzəl,
Oxu yaydan çəkərək, tarıma çəkdim simini.

Gizlənərdim, utanardım, yenə olsam da dəcəl,
Necə şagird susaraq, dinləyərək müəllimini.

Bir icazən, iznin olsa gələrdim yanına,
Bilmirəm qəbul edərsən, məni, Məcnun kimini.

Ramiz, gözlər dikilib sevgili canan yoluna,
Həsrət ilə baxıram, pusqudayam hər tinini.

19.08.2011-ci il saat 0-33

Səbri qərarımı alsan,
sənə əhsən deyərəm

Səbri qərarımı alsan, sənə əhsən deyərəm,
Sözümü, istəyimi, yanıma gəlsən deyərəm.

Səbir ilə lala dönüb, söz də qalıb qəlbimdə,
Ağlımı bihuş edib, lap yerə sərsən deyərəm.

Dedilər, dəli-divanə edəcəksən məni sən,
Çatmısan arzuna, fərmanımı versən deyərəm.

Kim bilir, bəlkə də bir gün sevəcəksən məni sən,
Qıyğacı bircə baxışla, yenə gülsən deyərəm.

Səni ağuşuma basmaq, mənə olsaydı nəsib,
Necə səhrada yanar dil, bunu bilsən deyərəm.

Ramiz, hara getsən yolumu, hüsnü camal ilə kəsib,
Baş alıb mən gedirəm, bir daha görsən deyərəm.

22.08.2011-ci il saat 2-47

Nə gedir bağdan gedir,
bağban pərişan olmasın

Nə gedir bağdan gedir, bağban pərişan olmasın,
Bu bağın sahibi var, yersiz alışan olmasın.

Bağ bilər, bağban bilər, alın tərin tökmüş yerə,
Kimsə qəbul eyləməz, küssün barışan olmasın.

Hər kəsin hökmü qərarı öz içindən gəlməli,
O könül evin yıxan, işə qarışan olmasın.

Meyvəyə möhtac olan, dərirsə dərsin, dərməli,
Nuş ola o kəslərə, təki danışan olmasın.

Qoru nəfsi hər zaman, tamahdır əcəlin toru,
Dövlətə, vara uyub, kimsə yarışan olmasın.

Ramiz, xalqa xidmət et, hər bir zaman ad-san qoru,
Tək alaq otdan qorun, dizə sarmaşan olmasın.

23.08.2011-ci il saat 12-23

Kaş illər dönüb,
pərvaz edəydi qarşıma

Kaş illər dönüb, pərvaz edəydi qarşıma,
Elçilər gəlmiş olaydı, yenə elçi daşıma.

Yenidən sevmək mənə, nəsib olaydı Tanrıdan,
Bir təravətli sevinc, təkrar gələydi başıma.

Gülməsin seyr eyləyən, budur mənim bir istəyim,
Çox cavandan cavanam, çaşqın qalan var yaşıma.

Qoy olaydı sevgilim, deyil ki, bu sirr istəyim,
Gətirib bəh-bəh ilə fisincan duzsuz aşıma.

İstəsə divanə etsin, qoy desinlər ki, dəli,
Sevgi ilə seyr edə, məlhəm qoya göz-qaşıma.

Ramiz, sovurub təmiz edə, bu qanını qoy ki, zəli,
Sonra da yalvarma ki, imdad elə göz yaşıma.

23.08.2011-ci il saat 17-27

Kim səni başa düşür ki,
səni mən başa düşüm

Kim səni başa düşür ki, səni mən başa düşüm,
Yad edib keçmişi hərdən, onu da yersiz eşəm.

Mənə lazım deyil, o keçmişin ilə bu günün,
Dərd edəm, səni sevəm, qəlbimi hər gün də deşəm.

Get uzaqlaş ki, səni görməyə artıq bu gözüm,
Qiymətim üç də deyil, dörd də deyil, bil ki, beşəm.

Məlhəmə dönmüş olur, acı olarkən də sözüm,
Şairəm, başqa peşəm yox, budur sanballı peşəm.

Mənə səhranı verən olsa, öpərdim ləpirin,
Gör ki, fərqi nə olar, olsa bataqlıqda meşəm.

Ramiz, elə et, sevgili canan, duya cənnət ətrini,
Layiq olsan mənə ki,dərdimi onla bölüşəm.

24.08.2011-ci il saat 13-57

Nə üçün yatmamısan,
sevgili canan bu gecə

Nə üçün yatmamısan, sevgili canan bu gecə
Açılar bil ki, qəfildən görünər dan bu gecə,

Danlayarsan ki, sənin vaxtını aldım əldən.
Qarğışın birdən olar ki, alışıb yan bu gecə.

Yoxdu bil ki, sənə əsla olacaq bir qəzəbim,
Olmuş olsa, itəcək şöhrət ilə şan bu gecə.

Məni yandırsa yenə, yandıracaq öz əzabım,
Kim məni görsə deyər ki, sənə qurban bu gecə.

Min əzab ilə sevib, ağlasa hər gün ürəyim,
Bilirəm ki, dözəcək, ruhum olan can bu gecə.

Ramiz, Tanrım yetirib, bil ki, bu olmuş diləyim,
Görməyim ki, səni yalqız, belə bir an bu gecə.

29.04.2011-ci il saat 0-43

Xəbərin var yenə qəlbim,
oda dönmüş yanıram

Xəbərin var yenə qəlbim, oda dönmüş yanıram,
Keçir hər gün qabağımdan, gözəl, ölmüş yanıram.

O salıb dərdi bəlayA, dedilər yox əlacı,
Öz əliylə muradı yarıya bölmüş yanıram.

Yox əlində nə qılınc, nə də ki, qalxan, nə deyim,
Cəlladımdır ilk əzəldən, belə görmüş yanıram.

Yalvarıb dil nə qədər, söz də kəsər, yox nə heyim,
Acığa saçlarını, bil qoşa hörmüş yanıram.

Dedi çöhrən saralıb, Məcnuna bənzər kimisən,
Ölüdən fərq eləməm, ocağı sönmüş yanıram.

Ramiz, söylə nə olub, eşqin üçün lap dəlisən,
Dəli olsam ki, nə var, şaxtada donmuş yanıram.

07.09.2011-ci il saat 21-03

Dostum səni sevdi,
görürəm halı xoş haldı

Dostum səni sevdi, görürəm halı xoş haldı,
Söylər ki, gözəlsən bu gözəllik onu aldı.

Divanə gözündən, görürəm, məsti xumardı,
Allaha şükür, sevgisi sənlə, qoşa qaldı.

Bil ki, bu məhəbbət sevilib canına qondu.
Pərvaz eləyən huri mələk toruna saldı.

Kimsə bu gözəllikdə deyir doqquzu dondu,
Təəssüf ki, yalandı, deyənin haqqı da vardı.

Doqquz o gözəllik, sənə məxsus o camala,
O kəslərə söylə, faizi bir, don ilə şaldı.

Ramiz sözlə təqdim eləyir, ağlı, kamalı,
Daddıqca dadılsa görəcəksən ki, bu baldı.

03.09.2011-ci il saat 18-30

Neyçün qəmə qərq oldu,
bu dünyam nədən oldu

Neyçün qəmə qərq oldu, bu dünyam nədən oldu
Ruhum məni incitdi, günahkar bədən oldu

Hər kəs görə bilməzdi, qəmim çöhrədə olsun.
İncitdi sözün, bir də deyilməz hədən oldu.

Qalxdım yatağımdan, bu səhər aynada gördüm
Saçlar dəyişib görkəmin, vurdun zədən oldu

Bir vaxt var idi, eşqə həvəslə, qala hördüm
İçdim meyi meyxanadə, sökdün ədan oldu

İndi bu könül, çaşbaş olub, ağlamaq istər
Yaş da tükənib gözdə inan, bil fədan oldu

Ramiz bilirəm, bir də məni danlamaq istər
Etsin bu səhər ki, görünə sübhü dan oldu.

23. 09. 2011-ci il, saat 2-35.

Saldı məni səhralara,
eşqin belə getdim

Saldı məni səhralara, eşqin belə getdim
Canım məni çəkdi harasa, bax elə getdim

Görkəmimi gördükdə tanışlar sual etdi
Cavabı, saman tutmağa hər gün selə getdi

Sənsən məni divanə edən, böylə günahda
Gözlər qaralıb, yolu çaşıb, bil yelə getdim

Tanrı səni heç əfv eləyər, söylə günahda
Verdin məni, ovcunda qalan, bir telə getdim

Tez-tez görüşərdik, sevişərdik o zamanlar
Röyada səninlə görüşə, Göygölə getdim

Ramiz, külə dönmüş nə üçün eşqə yananlar
Guya ki, qaçıb odlu bəladan, çölə getdim.

23. 09. 2011-ci il, saat 15-41.

Ey gül, bu qədər qəmxanə
yaratmaq nəyə lazım?

Ey gül, bu qədər qəmxanə yaratmaq nəyə lazım?
Aylı gecədə, zülfü qaraltmaq nəyə lazım?

Həsrətlə baxardın, o zamanlar ki, sevərdin,
De, əqli yorub, indi daraltmaq nəyə lazım?

Sübh çağı baxardın, necə mən yolla gedərdim
O, dövrü zamanı belə atmaq, nəyə lazım?

Allaha dualar sənin üçün mən edərdim,
Şeytana uyub, sevgini satmaq, nəyə lazım?

At ki, ətəyindən yığılan daşları artıq,
Qoyma başı daşa, belə yatmaq, nəyə lazım?

Ramiz, tükənib gözdə də, göz yaşları artıq,
Hər gün zəhəri şərbətə qatmaq, nəyə lazım?

İstəməzdim ki, sənin
halına gülmək gəlsin

İstəməzdim ki, sənin halına gülmək gəlsin,
Ya qəfildən uzanıb, çarəsiz ölmək gəlsin.

Düşünüb səhvlərini, boynuva alsan, nə olar,
Yoxsa ki, çərxi fələk, tərsinə dönmək gəlsin.

Bağlama bel, o kəsə ki, sənə arxa olacaq,
İynənin gözünə uyğun, gərək ilmək gəlsin.

Verməsən, sən tamahından, gülə su, bil solacaq,
Yadına yeziti sal, yaddaşa bilmək gəlsin.

Əl tutan olsa sənə, bax sən onun, qədrini bil,
Canan istərsə canı, ağlına bölmək gəlsin.

Ramiz, bil çoxların yoldan eləyər səndəki dil,
Qapıma gözlərini, aç onu görmək gəlsin.

Zövq alıb baxdım sənin
hüsnünə, ey nazlı nigar

Zövq alıb baxdım sənin hüsnünə, ey nazlı nigar,
Qara tellər örtərək, zülfün ədasın görmədim.

Seyr edərkən gözlərim, qulaqlarım olmuşdu kar,
Səsləyərkən dostlarım, dostun sədasın görmədim.

Almaq istərkən baxışdan min bir suala, bir cavab,
Əfsus olsun mən baxıb, gözün qarasın görmədim.

Əhsən olsun ki sənə, bu çeşmədən yoxdur savab,
Ürəyim çırpınsa da, eşqin parasın görmədim.

Qorusun tanrı səni xəta-bəladan ey gözəl,
Anadan başqa saçın, kimsə darasın görmədim.

Ramizi çoxlar sevib, ya indi, ya da ki, əzəl,
Heç birində duymadım, eşqin yarasın görmədim.

Mən bilə bilsəydim,
ey gül, səndəki naz-neməti

Mən bilə bilsəydim, ey gül, səndəki, naz-neməti,
Hiss edə bilsə idim, o sözlərində hikməti.

Bəlkə də, indi belə, peşmançılıq olmaz idi,
Çəkməz idim, bəlkə də əzab ilə, bu həsrəti.

Günaha düşdüm özüm də, tapmadım bil çarəsin,
Kor təki baxdım sənə, heç görmədən bu qisməti.

Örtmüş idi gözləri, gecənin zülmət qarəsi,
Layiqəm hər cür desən, qəbul edəm, mən töhməti.

Gördüyümü sevməyə, yoxdu məqam, artıq keçib,
Cəhd edə bilsəm belə, puç eylərəm bu zəhməti.

Ramiz, mənim bu könlüm, çox əllərdən şərbət içib,
Vermədim vaxtında mən, sevgili cana qiyməti.

Bilsən necə əziz oldun,
bu gecənin qucağında

Bilsən necə əziz oldun, bu gecənin qucağında,
Məni tutdun üçbucağın ən kor olan bucağında.

Öz əlinlə, sən yandırdın ürəyimi ocağında,
Nə dindirdin, nə danışdın, baxdın mənə gülə-gülə.

Sən baxdıqca gözlərində sonsuz səma üfüqləri,
Qucağında sevinc dolu, oyadarkən bir səhəri.

Çoxdan mənim bu sinəmdə, məskən salan bu qəhəri,
Nə dindirdin, nə danışdın, baxdın mənə gülə-gülə.

Sevirəm sözlərini, de kimə söyləyərdim

Bəxş etdin xoşbəxtliyi, yox etdin qəhərimi,
Tamam nura boyadın, bu gözəl şəhərimi,
Sənsiz təsvir etmirəm, açılan səhərimi,
Sən olmasaydın əgər, mən sənsiz neyləyərdim,
Sevirəm sözlərini, de kimə söyləyərdim.

Tənhalıq yollarında, alovlanıb yanardım,
Dərdlərimin içində, boğulardım, qalardım.
Bu həyatda necə mən, sənsiz ilham alardım,
Sən olmasaydın əgər, mən sənsiz neyləyərdim,
Sevirəm sözlərini, de kimə söyləyərdim.

Qanadlanıb uçmazdım, arzular qucağında,
Alışmazdım, yanmazdım, sevginin ocağında,
Bəlkə çoxdan itərdim, dünyanın bucağında,
Sən olmasaydın əgər, mən sənsiz neyləyərdim,
Sevirəm sözlərini, de kimə söyləyərdim.

## M u h ə m m ə d

Nurusan gözlərimin, cahi-cəlaldan da gözəl,
Arzuya dönmüş idin, dünyaya gəlməzdən əzəl.

Səbir ilə gözləyərək, həsrətini çəkmiş idik,
Mən sənə qurban özüm, təsdiqi olsun, bu qəzəl.

Ey Muhəmməd, ey canım, varlığın həyat ruhudur,
Mən qocaldıqca böyü, qamətin şux tut, sən düzəl.

Bu dünya bir əjdaha, nə verdisə sonra udur,
Cənnət olsun dövranın, bağçanda olmasın xəzəl.

Ey ulu tanrım mənim, xoşbəxt eylə nəvəmi sən,
Kor elə o gözləri, baxmaq istərkən bəd nəzər.

Ramizəm oldum baba, şükür eylədim Allaha mən,
O mənim tanrı payım, ömrüm, günüm, canım bəzər.

Var sənin, min bir
gülüstan oylağın, gəzməkdəsən

Var sənin, min bir gülüstan oylağın, gəzməkdəsən,
Ruhu şad-xürrəm elə, tut bayrağın, gəzməkdəsən.

Yazdığın hər bir sətir, hər bir könül sevdasıdır,
Xalqa etdin etibar, var dayağın gəzməkdəsən.

Ey Seyid, ey Seyidağa, biz gəlmişik pişvazına,
Od tutub, işıq saçır, gur çırağın gəzməkdəsən.

Söz gözəllik bəxş edir, müğənninin avazına,
Diqqət ilə seyr edir, hər qonağın gəzməkdəsən.

Çünki səndən öyrənib,vəsf eyləyiblər bir qəzəl,
Maştağa olmuş məkan, sən torpağın gəzməkdəsən.

Ramizi valeh edib, şeirlərinlə çox əzəl,
İndi cənnət guşəsin, ruhun bağın, gəzməkdəsən.

Mən səni candan sevərkən,
sevmədin canan məni

Mən səni candan sevərkən, sevmədin canan məni,
Kor olub nöş görmədin, atəşdə bəs yanan məni.

Günbəgün meylim daha da güclənərkən bil sənə,
O qədər də yox olub, tərk eylədi ad-san məni.

Rüsvayı xar eylədin, heç qıymadın bu canıma,
Güldülər, həqq eyləyib, dəli kimi sanan məni.

Çox nigaran qaldılar, dost-aşina da bu halıma,
Cənnətə bil ki, düşər bu atəşdən alan məni.

Bu, sənin etdiklərin, heç yerdə qalmaz, bixəbər,
Qəlb evin viran qoyub, ey zindana salan məni.

Ramizin sözlərinə qulaq assaydım bir qədər,
Təəssüf olmazdı belə, birdən yıxar yalan məni.

Mən sənə can söylədim,
canan nədən naz eylədi

Mən sənə can söylədim, canan nədən naz eylədi,
Qıymadı neyçün mənə, insafını az eylədi.

Bəlkə də mən atəşində, günbəgün yanan zaman,
Sən sevindin fəxr ilə, əhvalını saz eylədin.

Başqa aşiqlər təki, mən istədim xoşbəxt olam,
Tək sənə bel bağladım, bəlkə qışı yaz eylədin.

Əfsus olsun əllərinlə az qala bədbəxt olam,
Qapqara qıvrım saçı sən yandırıb daz eylədin.

Bir biləydin xatirəmdə ey vəfasız, tək qalan,
Göyə uçmaq istəyərkən, özünü qaz eylədin.

Ramizin də bu xəbərdən yox xəbəri, hər şey yalan,
Nə deyim ki, sən muğamı döndərib caz eylədin.

Gəldim görüşə, gəlmədin
ey gül, nədən oldu?

Gəldim görüşə, gəlmədin ey gül, nədən oldu?
Düşdü araya, sədd çəkərək tül, nədən oldu?

Məyusluğa, bədbinliyə düçar elədin sən,
Yandı alovum, sən elədin kül, nədən oldu?

Həsrət bürüdü ey dili qafil, məni birdən,
Boynum əyilib, bənzəri sünbül, nədən oldu?

Yəqin elədin sən zarafatlar belə hərdən,
Neyçün oxumur, dinmədi bülbül, nədən oldu?

Dilbər, dedilər naz ilə qəmzə sənə məxsus,
Min bir gül içində seçilən gül, nədən oldu?

Ramiz, o yalan söylədi, neyçün belə əfsus,
İndi bu hala qəhqəhə çək, gül nədən oldu?

İnsaf et söyləməyə,
bil, bu dilim gəlməz inan

İnsaf et söyləməyə, bil, bu dilim gəlməz inan,
İnsafın varsa, gəl insafını et sən, nə olar.

Özünü qibleyi aləm təki, göylərdə sanan,
Mənə torpaqda qızılgül kolu əksən, nə olar.

Tərsinə dövr eləyir külli zaman, eylə kömək,
Öz əlinlə fələyin ipini çəksən, nə olar.

Kim sənə, söylə bu halda, eyləyər söylə kömək.,
Cavaba hakimi qüdrət, yenə tək sən nə olar.

Ver mənə isti nəfəsdən yaranan o buxarı,
Cənnətin ab-havası elə sənsən, nə olar.

Ramizə söyləməmiş, başını qaldır yuxarı,
Mənə bax, gözləri şad et, deyim əhsən, nə olar.

O məni çox düşünüb, könlünə
mehman elədi

O məni çox düşünüb, könlünə mehman elədi,
O səbəbdən seçərək, dərdinə dərman elədi.

Söylədim mən ki həbib deyiləm, ey nazlı nigar,
Tökərək qaşqabağı küsməyi fərman elədi.

Görürəm, gözlərinin sevgisi hədsizdi mənə,
Hər sözün əvvəlinə, bağlayaraq can elədi.

Dedim ey gül, buna mümkün yeri yox, axı sənə,
Axıdıb göz yaşını bənzərini qan elədi.

Bəxş edib həm özünə, həm də mənə dərdli bəla,
Gündüzü zülmət edib, guya ki, o dan elədi.

Xəbərin var, bu məhəbbət, onu salmış nə hala?
Dedi Ramiz, dəli olma, üzünü yan elədi.

Güldür məni, gülsün
o qara gözlərin, ey gül

Güldür məni, gülsün o qara gözlərin, ey gül,
Olsun cana məlhəm əvəzi, sözlərin, ey gül.

Qoyma məni tənha, axı, sən göz bəbəyimsən,
Yandır yenə yansın, alışan közlərin ey gül.

Sənsən mənə həmdəm, bunu ruhum belə söylər,
Söylə necə seyr etməliyəm izlərin ey gül.

Tanrı özü yazmış o alın yazısı göylər.
Sevsən məni sev ki, qoy əsə dizlərin ey gül.

Safdır sənə qarşı bu olan eşqi məhəbbət,
Qoyma ki, baxa gözləri gözəllərin ey gül.

Ramiz gedirəm mən görüşə yar ilə xəlvət,
Olmaz, səbri qərarı, dözənlərin ey gül.

Sən məni qoyma rahat,
dur gecələr gəl yanıma

Sən məni qoyma rahat, dur gecələr gəl yanıma,
Gündüzün vəlvələsin, zəlzələsin sal canıma.

Yuxudur şərbətə dönmüş, gecələr qismətimiz,
Al mənim canımı canan, sahib ol, sən qanıma.

Elə et ki, sevişək kimsə bunu, bilməz ola,
Gəlməsin zərrə qədər, bircə ləkə, ad sanıma.

Qaldıraq zirvələrə, həm qoruyaq, qoyma sola,
Dəstək ol sevgimizə, sahib olum, hər anıma.

Sən mənim nurlu çırağım, gecəmin gündüzüsən,
Rəqibi qoyma yaxın, yalvarıram heç tanıma.

Ramiz, çəkilib ərşə yuxum, sözə sahib, düzü sən,
Röyalar yıxdı məni, bəlkə yaraşmır şanıma.

Bir yalandır ki, deyirlər,
ağ qaradan yaxşıdı

*Maştağalı şair Məleykəyə ithaf edirəm*

Bir yalandır ki, deyirlər, ağ qaradan yaxşıdı,
Gecə vaxtı, kim deyər ki, ulduz aydan yaxşıdı.
Gün günorta, olsa böylə, günəş nurun saçsa da,
Qara buğdayı bu çöhrən, bil ki, ağdan yaxşıdı.

Qaradır, ağ rəngə vermiş sevgisin, həm istəyin,
Parçalarsa könlümü, hər bir yaradan yaxşıdı.
Gözlərə, kipriklərə, qaşa verərkən dəstəyin,
Ağ, qaradan susma de, axı haradan yaxşıdı?

Dişləri dürrəm edib, mirvariyə o bənzədən,
Həm şirinlik, həm təravət, çox paradan yaxşıdı.
Ramizi məftun edərkən, bir gözəl qız təzədən,
Bəlkə mən heç durmayım, çıxım aradan yaxşıdı.

O mənəm ki, arabir sizləri də yad edirəm

O mənəm ki, arabir sizləri də yad edirəm,
Hələ ki, bilməyirəm qəm verirəm, şad edirəm.

Qorxuram ki, deyəsən yoxdu həya, yoxdu abır,
Ay aman gəl ki, qurtar, bu kişidən dad edirəm.

Dikmişəm gözlərimi yolların üstə baxaraq,
Sən gələn gün özümə, ad günü tək ad edirəm.

Səni məlhəm yaradıb, tanrı bu qəlbə taxaraq,
Bu vüsal ilə baxıb, əksinə imdad edirəm.

Əfsus olsun bilirəm, könlünə hakim deyiləm,
Fərqlidir dövri zaman, bax buna fəryad edirəm.

Ramizə söyləməmiş, mən sənə aşkar deyirəm,
Hər kəsi sevgim ilə, gözlərini mat edirəm.

17.08.10 saat 12-19

İnşallah ilə başlayıb, dünya əsərindən

İnşallah ilə başlayıb, dünya əsərindən,
Torpaqla suyu vəsf eləyən Tanrı əlindən.

Yeddi günə mövcud, belə dünya, belə olmuş,
Söksə sökəcək, bir günə, istər təməlindən.

Bu kainat ona aid, ancaq, ona məxsus,
Heç nə yox olub, ya qaça bilməz, nəzərindən.

Cism ilə ruhu, bəxş eləmiş, bizlərə əfsus,
Dad çaşmağa meyl eyləyən insan həzərindən.

Dövlətli deyərkən kasıba lal olacaq sus,
Bilmir qoşulub şeytana, şeytan qəzəbindən.

Ramiz, Allah qorusun, çək başına bircə qram duz,
Dünya belə olmuş, belə qalmış əzəlindən.

31.08.2010-cu il saat 11-09

Sən də gözəlsən, gözəlim, çoxlu gözəldən

Sən də gözəlsən, gözəlim, çoxlu gözəldən,
Arzum belədir ki, toxunam mən sənə hərdən.

Ləblərlə, o gözlər nə bilim kimlərə məxsus,
Çatsın, mənə bir damla sevinc o qədərindən.

Dünya, ya da insan, elə bir fərqləri yoxdu,
Sonsuzluğa düçar olacaq öz kədərindən.

Vardır buna əncam, buna məlhəmi də çoxdu,
Dadmaqdı ləbi dil ilə birgə təməlindən.

Bəli bilirəm, qəlbimə hakim yenə sənsən,
Zülmət gecəni sən yox elə, sübh səhərindən.

Ramiz, bu gözəldən ötəri ölməginən sən,
Ölsən deyəcəklər, o ölüb, öz qəhərindən.

09.09.10-cu il saat 21-59

Bu gecə yatma, oyaq qal, dua et sübhə qədər

Bu gecə yatma, oyaq qal, dua et sübhə qədər,
Ömrü vermə bada, sonra demə getdi hədər.

Ramazan, on bir ayın sultanı, cənnət qapısı,
Şad olub, qəlbini şad et, ona bəxş etmə kədər.

Dua et, bu qədir günləri Allah eşidər,
Firavan dövrü zamanı, sənə də qismət edər.

Müstəcəb olmasa söz ilə əməl bir kişidə,
Özünü bədbəxt edib, həm də cəhənnəmə gedər.

Ramazan bayramı, dinlər dininin şah əsəri,
Bil ki, Allahın özü təkcə müsəlmanı sevər.

Ramiz, eylə dua, sözlərdə ola, söz kəsəri,
Elə imdadını, imanın ona bil ki, yetər.

12.09.10-cu il saat 1-03

Bir də gəlmə naz ilə,
ey siması gül nazənin

Bir də gəlmə naz ilə ey siması, gül nazənin,
Görməyim o gözləri, gəlsən ki, ört tül nazənin.

O gözün qurbanı olmaq, istəmir canım mənim,
Canımı sən yandırıb, gəl eyləmə, kül nazənin.

Sən məni fəth eyləyib, saldın nədən dərd oduna,
İndi bax bu halıma, çək qəhqəhə, gül nazənin.

Qol budağım şux ikən, dondum quru bir oduna,
Yandırıb könlüm bağın, məhv eylədim, bil nazənin.

İndi cismim ruhuma, nifrət edib, hər gün deyir,
Gəl unut o dilbəri, yaddan çıxart, sil nazənin.

Ramiz təsdiq eylədi, mümkün deyil, etmək seyr,
Sən danış, mənlə acı olma, şirindil nazənin.

30.10.2010-cu il saat 0-55

Sən gözəldən alıram
ilhamı, dəhşət yaranır

Sən gözəldən alıram ilhamı, dəhşət yaranır,
Məni məcbur eyləyirsən, beləcə söz qalanır.

Bilmirəm ki, bu nə sevda, bu nə məşəldi yanan,
Yandırırsan bu canı, bəlkə də artıq talanır.

Çox gəlmə yaxın, seyr eləyim, səni kənardan,
Bir gün görəcəksən, püskürüb vulkan oyanır.

Bir bəlasan ki, düşüb ortalığa, gəlmisən hardan?
Səni qovsam da, xəyalın dönərək, öndə dayanır.

Çıx get, o gözəllik məni məhv eyləməmiş, get,
Rənglər qarışır, həftəbecər rəngə boyanır.

Ramiz, demisən məqsədinə sevgi ilə yet,
Təsdiq edilən sevgini canan yenə danır.

03.11.2010-cu il saat 13-59

Bu gülün çətrinə mən,
gəlmiş idim bağçaya bil

Bir gülün xətrinə mən, gəlmiş idim, bağçaya bil,
O gecə büdrəyərkən, düşmüş idim, həm çaya bil.

Bir saman çöpünə bənzər, xilasım oldu mənim,
Allahım etdi kömək, baxa-baxa mən aya bil.

Bu nə dərddir, nə cəfadır ki, çəkir aşiqlər,
Günbəgün üstə gəlir, Məcnuna bənzər saya bil.

Yox onun məlhəmi ki, tapmış ola aqillər,
Sevinə sevgililər, kimsə gələ, bu haya bil.

Qayada həkk elədik, adları qalsın əbədi,
Ovulub, parçalanıb, düşdü yamaca qaya bil.

Ramiz, eşqin əlacın bəlkə bilirsən o, nədir?
Yola verirsən bu qışı, nə qalacaq ki, yaya bil.

Heç düşünmə, məni
sən, sevməyə vadar edəsən

Heç düşünmə, məni sən, sevməyə vadar edəsən,
Ya durub yollarım üstə, yolumu dar edəsən?

Xam xəyalla uzanıb yat, ya da dur, fərqi nədir,
İsti yay gündə dönüb, lap özünü qar edəsən.

Çünkü yoxdur təməli, yanması üçün ocağın,
Bağda yoxsa bəhəri, sən necə nübar edəsən.

Səni kor eyləyəcək, tüstüsü bir gün ocağın,
İstəməzdim gecə-gündüz, belə qübar edəsən.

Ürəyi əllərim ilə, verərkən bil sənə mən,
Demədim yalvararaq, dodağı qabar edəsən,

Ramizə can deməyinlə, nə itər ki, görəsən,
Könlünü şad edərək, sevgili bir yar edəsən.

24.08.10 saat 11-55

Tək bunu Allah bilər,
necə keçir bu halımı

Fərqli gözlər, fərqli rəngdə, görərək imkanımı,
Eşq mənə elan edib, can ilə aldı canımı.

Biri öldü, biri qaldı, biri verdi kamımı,
Biri şad eylər məni, biri qaraldar qanımı.

Biri badə qaldırıb, əldən ayaqdan hey gedər,
Cəhd edib çöhrəmdəki, öpmək istər o xalımı.

Biri ancaq düşünüb, gec-tez görüş təyin edər,
Dalbadal tərif edir, yüksəltmək üçün şanımı.

Biri qeybət toplayar, bu eyləyir onun bəsi,
Ət itə çatmaz təki, seyr eyləyər hər anımı.

Ramiz izlər bunları, amma çıxarmaz bir səsi,
Tək bunu Allah bilər, necə keçir bu halımı.

Qorxuram ki, sevəsən,
həm də sevəm gözlərini

Qorxuram ki sevəsən, həm də sevəm gözlərini,
Göz ilə, həm qaş ilə, şərbət edəm sözlərini.

Məni sevmək də bəla, sevməmək ondan da bəla,
Alışıb, sonra da söndür, o yanan gözlərini.

Arifə məxsus olub, ünvanı əlbətdə tapar,
Ünvanı səhv düşənin, qəm bükəcək dizlərini.

Bu xəfif sevgimi tutsan, özün ilə sən apar,
O yolun üstə nişan et, qoruyaq izlərini.

İstərəm ki, məni sən sevməyə vadar edəsən,
Necə Romeo, Cülietta, qərq edib özlərini.

Ramiz, dünyanı tutan yox, sən onunla gedəsən,
Çək onun saçlarına, zülfünə sən öz əlini.

Şərbətə dönüb gül camalın

Nədən ey gül, belə şərbətə dönüb gül camalın,
Kaş məni sevməyə qadir, tək olaydı amalın.

Yatmayıb sübhə qədər, hey mənim haqda düşünüb,
Hüsnümə nuru günəş tək, ələyəydi kamalın.

Günah etmiş olaram ki, deyəm, o şəxsə ki, mən,
Gedin o sevgili canandakı, almanı alın.

Gəl yetirmə şübhəni sevgimə, canan belə sən,
Mənə sevgin bəs edər, istəmirəm qalma qalın.

Kim səni bala qatıb, böylədə şərbət eləyib?
Ölümü haqq bilərək, xilası bilmiş samanın.

Ramiz, canan nə edibsə, yenə xəlvət eləyib,
Zurnası sonra çıxar, səsi gəlir tar, kamanın.

28.11.2010-cu il saat 00-47

Gəl mənim yanıma canan,
seyr edim gözlərini

Gəl mənim yanıma canan, seyr edim gözlərini,
Gəl ki, təsdiq elə, təkrar, o deyən sözlərini.

Qoy desinlər qayıdıb, Məcnun ilə Leyli yenə,
Ləpiri asta basaq, tində qoyaq izlərini.

Heyrət ilə baxaraq, qibtə edən qoy etsin,
Deməsinlər necə də, əydi zaman dizlərini.

Baş qoşma paxıl, necə gəlmiş, eləcə qoy getsin,
Taxmasın, sözlər ilə, ruhumuza bizlərini.

Qalayaq isti ocaq, gəl yığışaq istisinə,
Qoruyaq, birgə qataq, odda yanan gözlərini.

Ramiz, od sönərsə, gözlər bürünər tüstüsünə,
Ağ göyərçin təki, bas qəlbinə, canan əlini.

29.11.2010-cu il saat 14-21

**Yenə yoxsan gözəlim, hansı məkan sahibisən**

**Yenə yoxsan gözəlim, hansı məkan sahibisən**
**Öz əlinlə batıran, qəlbə tikan sahibisən.**

**Belə qaçma uzağa ey gülü xəndan ölərəm,**
**Ruha can, bəxş eləyən, təkcə təkan sahibisən.**

**Elə bil ki, dayanıb, sübh ilə axşam zamanı,**
**Məni bihuş eləyən, məsti zaman sahibisən.**

**Gəl duraq üzbəüzə, şölə sala şam zamanı,**
**Yetirib diqqət edək, sən ki, bu can sahibisən.**

**Canı al, al sənə qurban, sənə mənsub etdim,**
**Çək onu çarmıxa lap, tökməyə qan sahibisən.**

**Ramiz, demə yox xəbərim, mənlik deyil, mən getdim,**
**Tövsiyə etmə mənə, şöhrəti şan sahibisən.**

**13.01.2011-ci il saat 2-01**

Gənc idim, bilməz idim, eşqi məhəbbət necədir

Gənc idim, bilməz idim, eşqi məhəbbət necədir,
Nə biləydim dadını, axı bu şərbət necədir.

Eşq yolunda azanın, çoxuna dastan yazılıb,
Biri də bəlkə yazıldı, mənə əlbət necədir.

Demirəm səndə günah var, o günahkar özüməm,
Baxmışam mən sənə oğrun, gecə xəlvət necədir.

Deyiləm daş, ya polad, onlara bənzər dözüməm,
Səbr edib mən yığıram, eşqimə sərvət necədir.

Hər səninlə keçən anlar, budur dövlət təməlim,
Hörürəm eşqi zamana belə məbəd necədir.

Ramiz, arzum mənə qarşı, ona çatmır ki, əlim,
Sevirəm, bəsləyirəm, mən ona rəğbət necədir.

13.01.2011-ci il saat 23-03

Sus, danışma, nəyə lazım,
özünü incidəsən

Sus, danışma, nəyə lazım, özünü incidəsən,
Danışıb şərh eləyib, həm sözünü incidəsən.

Darıxan varsa səninçün, qoy darıxsın, sənə nə,
Yandırıb oda çevirmə, közünü incidəsən.

Sevirəm söyləyənin, çox olacaq, gözlə hələ,
Asta sərhəd tikanın, lap yüzünü incidəsən.

Qoyma qəlbin evinə, yanmağa atəş çırağın,
Sonra da ağlayaraq, sən gözünü incidəsən.

Ola bilsin ki, desinlər öldü, rəhmət ona,
Sənə lazımdı çəkib şillə dizə incidəsən.

Ramizin heç xoşu gəlmir, girmə sən başqa dona,
Danışıb dərdi qəmi, gündə bizi incidəsən.

17.01.2011-ci il saat 01-25

Çox gəzirsən sən vəfa,
yoxdur o səndə bivəfa

Çox gəzirsən sən vəfa, yoxdur o səndə bivəfa,
Dəyişib gündə libas, gəlmə bu kəndə bivəfa.

Məskəni etdin şəhər, indi nə gəl, getdi belə,
Çəkilib dağdan duman, yamacda, çəndə bivəfa.

Arzular səndən böyük, sən arzulardan çox kiçik,
Hərlənirsən çatmağa, düşmür o bəndə bivəfa.

Qon budaqdan budağa, sərçə təki et çik-çirik,
Öz günahındı sənin, axtarma məndə bivəfa.

Çürümüş bir ağaca, bənzər daha çöhrən sənin,
Heç cürə olmaz ki, düz, çəkilsə rəndə bivəfa.

Ramiz, sual eylədi, varmı görən çarən sənin?
Söylədik günü qara, rəngi bu rəngdə bivəfa.

17.01.2011-ci il saat 18-25

Bir baxış atəş yaxır,
digər baxır çox sadəcə

Bir baxış atəş yaxır, digər baxış çox sadəcə,
Bəlkə də hiss etməyib, yaydan atır ox sadəcə.

Gör necə xoş bir təsadüf, tanrıdan gəlmiş bu gün,
Tapmadım mən onda nöqsan, olmadı yox sadəcə.

Bir mələkdi, cənnəti tərk eyləyib, gəlmiş bura,
Heç kəsə bildirmədən, məftun edir, bax sadəcə.

Sevməyə cəhd eyləyən, inanmıram sağlam dura,
Öz əliylə ölümü, o arzular ax sadəcə.

Dünya ləzzət etməz idi, olmasa sən tək gözəl,
Ver mənə ləzzət sonunda, çarmıxa tax sadəcə.

Ramiz, Məcnun yada düşdü, vurğun oldum əlbəəl,
Durma artıq, sən zəhərdən dodağa yax sadəcə.

25.01.2011-ci il saat 14-09

Səbir edib gözlə məni,
gözlərimi görmək üçün

Səbir edib gözlə məni, gözlərimi görmək üçün,
Ətri bihuş edən, gül çələngi hörmək üçün.

Bunu et ki, o günü, xatirəmə həkk eləyim,
İcazə ver ki, mənə, ağuşunda ölmək üçün.

Nazı qəmzən də mənim, canıma dərman olsun,
Əridək dərdi qəmi, arzulara dönmək üçün.

Cam gətir damlası bal tək, içi şərbət dolsun,
Etiraz eyləməsən, tən yarıya bölmək üçün.

Yüzü sevsə də səni, tək biri qismətin olar,
Ramizi dəvət elə, bal dodağın öpmək üçün.

Arzunu zəbt eləmə, gül təki bir gün o solar,
Narahat etmə dəniz tək, qabarıb köpmək üçün.

28.01.2011-ci il saat 1-00

Çıx get daha durma, ruh ilə can arasında

Çıx get daha durma, ruh ilə can arasında,
Düşmən deyilik sonra duraq qan arasında.

Vardı o məhəbbət, saralıb soldu əlindən,
İndi gəz özünçün, bəy ilə xan arasında.

Verdim sənə hər şey, ürəyindən nə keçirdi,
Əfsus səni seçdim, niyə insan arasında.

Nəfsin varı yox eylədi, şərbət çox içirdi,
Sildim səni, yoxsan daha, adsan arasında.

Kabus ilə dost olmağı seçdin, nəyə lazım?
O cəhənnəm, o da canın, get yan arasında.

Ramiz, qoyma belə şeiri, bir gün yenə yazım,
Zülmət döze bilməz, açılan dan arasında.

31.01.2011-ci il saat 21-25

Sənçün darıxan könlümü
Şad eylədin, ey gül

Sənçün darıxan könlümü şad eylədin, ey gül,
Hardan bunu bildin məni yad eylədin, ey gül.

Tutqun hava gəlmiş, yerə lehsan yağır Allah,
Xoşbəxt məni etdin, belə ad eylədin, ey gül.

Kimdən xəbər aldım, bulayıb başını getdi,
Küsdün qəzəb ilə, niyə dad eylədin, ey gül.

Sənsiz bu zaman dövrü, məni bil dəli etdi,
Baldan şirin oldun, belə dad eylədin ey gül.

Gəldin, gəlişinlə baharı, yazı gətirdin,
Bülbül bağa girdi, gülü şad eylədin, ey gül.

Ramiz, nə gözəl gün, mənə sən sazı gətirdin,
Gözlər səni gördü, dili şad eylədin, ey gül.

12.02.2011-ci il saat 12-03

Mənsiz günü qara deyən
ey gül, necə oldu?

Mənsiz günü qara deyən ey gül, necə oldu?
Döndün şama yandın, yenə söndün gecə oldu?

Halın günü gündən niyə pis görkəmə düşdü,
Gəldin niyə getdin, belə istək heçə oldu?

Vardı, sənə qurban deyən oğlan, hara getdi?
Getdi, nədən oldu, bu görüntü, heçə oldu?

Yoxsa məni atdın, o da atdı, sənə etdi,
Təqib belə minval, niyə bəs heç-heçə oldu?

Açdın gözü, artıq heçə döndü zaman hökmü,
Xalça yoxa çıxdı, ayaq altda keçə oldu,

Ramiz, yaşa dövran sənə məxsus, zaman hökmü,
Dilbər özü bilsin, bizə nə, bivecə oldu.

15.02.2011-ci il saat 12-45

Ört qapa gözlərini,baxmasın artıq mənə heç

Ört qapa gözlərini, baxmasın artıq mənə heç,
Qəbul et özgə təki, baxmayaraq sən belə keç.

Neçə illər baxaraq duymadı gözlər dəyəri,
Zəhər olmuş dəyərin, başqa pərişanları seç.

Oğrun-oğrun nə baxırsan, nə gülürsən yenə sən,
Bu oyunda yenə qalib, demə ki, oldu heçə-heç.

Sən ölü vurma mənə, ölməyə qalsa öləsən,
Tərs olub durma yolumda, deməyim ay keçi, keç
.
Bülbülə dönmüş idin, cəh-cəhinə valeh idin,
Gül, çiçəklər quruyub, indi gedib qanqalı biç.

Ramiz, dövran dəyişib, bil ki, itib məssəbi din,
Etmə sən, qəlbini pünhan, süzərək şərbətin iç.

21.04.2011-ci il saat 17-23

Sual etdim ki, sevir, söylədi canan nə bilim

Sual etdim ki, sevir, söylədi canan nə bilim,
Ona vardı ümidim, eylədi viran nə bilim.

Nə sökülmüş, nə də qalmış yeri yaddan çıxacaq,
Bir komam var, o da bərbad ola, hər an, nə bilim.

Hər günün gəlməsi, tənhalığa meyl oldu sonu,
Üzərək, incidərək böylə gedir can nə bilim.

Başıma qəhət olub, sevməyə neyçün ki, onu,
Məqsədi aşkar edərkən, deyəcək yan nə bilim.

Məni məndən ey alan, qaytar necə vardım özümə,
Günaha batmağa qoyma, tökülə qan nə bilim.

Ramiz, çaşmış bu cavanlar, qulaq asmır sözümə,
Axırı gör ki, nə oldu, o da zindan nə bilim.

26.04.2011-ci il saat 22-55

Gəldin, duraraq gözlərim öndə,
süzərək sən

Gəldin, duraraq gözlərim öndə, süzərək sən,
Dildən bal axır, yan-yana sözlər düzərək sən.

Getmir bu ayaqlar, sözə baxmır, bu nədəndir?
Qönçə dodağı, öpüşə bənzər, büzərək sən.

Min bir gözəlin, hər şeyi varsa, sənin olsun,
İncitmə məni, gəl günah etmə, üzərək sən.

Eylə sübutun, badəmə eşqin belə dolsun,
Məsti xumar olsam, bilərəm ki, saf ürəksən.

Gəlsin o gözəl günlərimiz birgə bərabər,
Qısqanc o baxışla demə ki, sən bezəcəksən.

Ramiz, səni görmüş, soruşur təzə xəbərlər,
İndi nə deyim, incimisən, de küsəcəksən.

28.04.2011-ci il saat 16-30

Dəyməzsən inan sən gözümün yaşına,
Canan

Dəyməzsən inan sən gözümün yaşına canan,
Göz dikmə daha elçiliyin daşına canan.

Getdi o gəmin batmağa artıq okeanda,
Bermud deyilən üçbucağın başına canan.

Gözləri süzərkən mənə eyhamla baxardın,
Get bax özünə aynada, göz qaşına canan.

Bəlkə ola bilsin kimisə oda yaxardın,
Duz səp öz əlinlə, yeyilən aşına canan.

Qalmaz bu gözəllik, elə bilmə ki, qalandı,
Dövranı keçirmə belə boş-boşuna canan.

Ramiz, dedilər çoxdu yaşın, bu ki, yalandır,
Can eşqə düşər, fərq eləməz, yaşına canan.

27. 09. 2011-ci il, saat 00-41

Qoyma o könül bağına əğyarı ki, gəlsin

Qoyma o könül bağına əğyarı ki, gəlsin,
Bir-bir dərərək, meyvəni düzsün yerə sərsin.

Dözməz bu ürək, qan ilə dövranını saxlar,
Mən dəli divanən, niyə o meyvəni dərsin.

Yoxdur cavabı, məktəbi layiqli deyilmiş,
Versən mənə imkan, oxudardım ona dərsin.

Qarşında diz üstə çökərək, beli əyilmiş,
Vur şillə sifətdən, sənə qurban, belə tərsin.

Ov etməyi xoşlar, şikarı bil səni seçmiş,
Ağlar ki, yalandan, biri göz yaşını silsin.

Ramiz, bu yolu min dəfə hər gün belə keçmiş,
Görsən, mənə hə söylə ki, əğyar özü bilsin.

27. 09. 2011-ci il, saat 1-35

Vaxt vardı səninçün, bu canımdan da keçərdim

Vaxt vardı səninçün, bu canımdan da keçərdim,
Təklif eləsəydin zəhər iç, bil ki, içərdim.

Bir nurlu bəşər vardı gözümdə o da səndin,
Şeh, nəm var ikən bağçada gülləri biçərdim.

Sərdim ayağın altda, çiçəkləri al-əlvan,
Bir-bir bunu məxmər döşəyin üstə seçərdim.

Əmr etməyə qalxdın, beləcə qalxdı bu tufan,
Daz et başı idman sayağı, kosa, keçəldim.

Dözdüm nə qədər ki, səbrim doldu kasada,
Daşdıqca kasadan səbrim, qorxu, əcəldim.

Ramiz, dilbər günümü qara edib, verdi əsa da,
Neyçün belə sakit dururam, mən ki, dəcəldim.

07. 10. 2011-ci il, saat 2-45

De haçan məlhəmini, sən qoyacaqsan
yarama?

De haçan məlhəmini, sən qoyacaqsan yarama?
O gözəl zülfünə düşmüş saçını yan darama.

Öz əlimlə tutaraq, həm öpərək tellərini,
Baxma biganə mənə, başqasını sən arama.

Atma meyxanələrə, mən buna layiq deyiləm,
Qoyma ki, meylim ola, ağzı dolu meylə cama.

Səni sevmək mənə xoşdur, bunu hər gün deyirəm
Neçə pərvanə uçar, pərvaz edər odlu şama.

Düzə düz söyləyirəm, haqlıya haqqsan deyirəm,
Allaha sevgi olan, göz tikə bilməz harama.

Ramiz, libasım eşqi məhəbbət, onu hər gün geyirəm,
Daxilim oddu, alovdu, mənə atəş qalama.

10. 10. 2011-ci il, saat1-30.

Dünya duracaq yer, deyil
ey can səfər eylə

Dünya duracaq yer deyil, ey can səfər eylə,
Bir gün köçəcəksən bu bəşərdən dəyər eylə.

Şükür eylə cana bir daha olmaz belə fürsət,
Allaha duanı gecə, gündüz, səhər eylə.

Vicdanı olan insanı dövran əyə bilməz,
Pis olsa bu dövran yola ver, bir təhər eylə.

Dar olsa keçən yolların, dad etməyə dəyməz
Kəndi böyüdüb, fikri xəyalda şəhər eylə.

Şərdən uzaq ol, xeyrə meyl et tapacaqsan,
Görsən uzanır, müddəti dövran çəpər eylə.

Ramiz, hara getsən yolu düz get, tapacaqsan,
Qalibliyə, layiqlə, könüllə zəfər eylə.

23. 10. 2011-ci il, saat 00-45.

Hər kəsin dövranı var, zaman da hakimdir ona

Hər kəsin dövranı var, zaman da hakimdir ona,
Tanrıdır ölçüb biçən, insan girərsə min dona.

O edər xoşbəxt birin, bədbəxt edər bir başqasın,
Kimdə var hökmü qərar ki, taleyin yetsin sona.

Bəxş edəndir rəssama, görsün təbiət hüsnünü,
Duyduğun icra edə, tablo çəkə, heykəl yona.

Bəxş edəndir şairə, oddan, alovdan tüstünü,
Sevgisin sevdirmək üçün, qəlblərə sevda qona.

Bəxş edəndir alimə, kamillik tədris etməyə,
Vətənə layiq olub, şəhid çırağı tək yana.

Ramiz, haqq, ədalət, mərhəmətə yetməyə,
Bizə öyrətdi bunu, gözlərimin nuru Ana.

27. 10. 2011-ci il, saat 12-15.

Sən məni şad eləsən, mən də səni
şad edərəm

Sən məni şad eləsən, mən də səni şad edərəm,
Gələrəm pişvazına, gündə səni yad edərəm.

Deyərəm bülbülə çıx get, daha bəsdir oxudum
Dəli divanəliyi mən özümə ad edərəm.

Göz vurub, qıyğacı gözlə mənə bax, sevgili yar,
Baxma əğyarə ki, fikrim dağıla, dad edərəm.

Naz edirsənsə elə, könlümə ax sevgili yar
Məni qısqanc eləmə, axırı fəryad edərəm.

Elə bil huri mələkdi, günəşi dan görmüş
Çöhrəmə nuru düşər, ruhumu abad edərəm.

Ramiz, bir qara gözlü qız ilə, məni canan görmüş,
Günahı məndə görən var, belə bərbad edərəm.

Taqətim yoxdur mənim,
dözmür ayaqda dizlərim

Taqətim yoxdur mənim, dözmür ayaqda dizlərim,
Sən səbəbkar olmusan, bir də mənim bu gözlərim.

Hər dəfə yox söyləyirsən, mən küsüm küsmür könül,
Lal olur dilim mənim, qalır yarımçıq sözlərim.

Asma qəlbdən daşları, birlikdə gəl mum eyləyək,
Duymasın ruhum belə, daşdan qalan o izləri.

Yox olan yerdə, vüsal da yox olur, bəs neyləyək?
Allahım, sən rəhm elə, nolar, barışdır bizləri.

Mən sənə yalvarmağımda, sən isə nazındasan,
Lağ edirlər çoxları, gülümsəyən var üzləri.

Ramizə baxma belə, axtar məni de hardasan,
Rəhm elə, bəxş eyləmə, səhraları çöl, düzləri.

21.12.2011-ci il saat 17-50

Hər nə görsən söyləmə
mənlikdi, sənlik deyil

Hər nə görürsən söyləmə mənlikdi bu, sənlik deyil,
Məxrəci, sürəti yoxsa, o deməktənlik deyil.

Alim olmaq çox asandır, kamil olmaq çox çətin,
Vermiş olsam bir sual, sən söyləmə mənlik deyil.

Sənlik olmuş hər sözün kök altı ki, ox atdılar,
Duymadın dünya qəmin, başdan başa şənlik deyil.

Şeh nəmi lap sübh çağı, çəmənliyə çox atdılar,
Kim sübut eylər bunu, heç bu duman sənlik deyil,

Təhsilin çox müxtəlif, vardır elimdə fərqləri,
Eh deyib birin seçib, bir başqa fənn fənlik deyil.

Ramiz, tək mənə gəl yükləmə qəlbindəki bu dərdləri,
Çox vətəndaş laqeyiddi, şellənir qəmlik deyil.

21.12.2011-ci il saat 1-23

Yox səni mən tək sevən,

başqa biri, ay qara qız
Yox səni mən tək sevən, başqa biri, tay ay qara qız,
Səslədim mən ki səni, sən vermədin hay qara qız.

Xal qara, çöhrən qara, gözlər də qara rəng alıb,
Gör neçə illər sənin, divanənəm, say qara qız.

Qapqara rəngin məni, çox sevdirib zülmətlərə,
Hər gecə gördükcə göydə, nur saçan ay qara qız.

Sən ucaldın göz önündə, layiq ol hörmətlərə,
Dəvət etsəm yox demə, gəl bir içək çay qara qız.

Sən mənim dərdimə dərman, yox desə hətta həkim,
Qoyma ki, əldən gedəm, sonra demə vay qara qız.

Ramiz məsləhət gördü, mən özümə bir ev tikim,
Qarşısında gül, çiçək, həm da axa çay qara qız.

19.12.2011-ci il saat 21-03

Ümid etdim bu səhər, sübh çağını sən açasan

Ümid etdim bu səhər, sübh çağını sən açasan,
Açaraq qollarını üstümə canan qaçasan.

Kimə bu qismət olub, bəlkə də heç olmayacaq,
Kaş mənim qismətimə, nurlu məhəbbət saçasan.

Bu da bir arzudu, kamdı, bunu qəlbim diləyir,
Xoş olar tanrıya da, mənlə bərabər yaşasan.

Taleyin yolları əyri, düzə meyl eyləyərək,
Tutma düz yolda olarkən, yenidən gəl daşı sən.

Qoy əlin qəlbimin üstə, eşidirsən səsini,
Etibar eyləmə, fikri dağıdan, bir başa sən.

Ramiz, vur qaval daşına, daş ki, eşidə təb səsini,
Diqqət eylə necə düşdükcə, düşən göz yaşa sən.

09.12.2011-ci il saat 1-35

Bir gözəl keçdi, keçərkən günəşi tor elədi

Bir gözəl keçdi, keçərkən günəşi tor elədi,
Baxdılar, mən də baxarkən gözümü kor elədi.

Nur saçırdı gedişiylə, o gözəl, huri mələk,
Sağ ikən ruhumu aldı, yerimi gor elədi.

Ağlımı aldı başımdan, yolumu çaşdıraraq,
Bilmədim ki, sevinəm, ya da ki, dilxor elədi.

Bu nə sevda, bu nə eşq, atəşində kül olaraq,
Başıma zərbə vurub, zərbəsini zor elədi.

Dindirib səsləmək istərdi könül ki, dayana,
Çəkərək qaşlarını, qaymağımı şor elədi.
\
Ramiz, gördün necə haldan hala düşdüm de ona,
Dəymədi xətrimə ancaq, günümü çor elədi.

Yox səndə bir hay bəxtəvər

Mən səni sevməkdəyəm, yox səndə bir hay bəxtəvər,
Mən təki sevən səni olmaz inan tay bəxtəvər.

Qoyma ki, göz yaşlarım, axıb düşə o sellərə,
Apara səndən uzaq, axar olar çay bəxtəvər.

Nazı qəmzən, küsməyin, qəbuldu hərçənd ki, mənə,
Bir mənə nəzər yetir, insan kimi say bəxtəvər.

Hər gecə gəldin güləruz röyada sən seyrimə,
Bir dəfə gündüz baxıb, gülümsə ver pay bəxtəvər.

Qoyma ki, ruhum üzülsün günbəgün həsrətinə,
Ölməyə məcbur edərkən, söyləmə, vay bəxtəvər.

Ramiz, yaz şeir, diqqət elə hər sətrinə,
Gün gələr, canan sevər, dostlar deyər ay bəxtəvər.

# *101 KƏLAM*

## HƏR KƏS YAŞAMAQ İSTƏR...

Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, "Abdulla Şaiq", "Nəriman Nərimanov", "Qızıl Qələm", "Qızıl Buta", "Araz" Ali Media mükafatları laureatı, "Vətən övladı" Qızıl medalı ilə təltif olunmuş istedadlı dramaturq, nəğməkar şair Ramiz Abdullayev bir neçə kitab müəllifidir. Yüzlərlə şeirinə nəğmə bəstələnib, pyesləri səhnələşdirilib, ssenariləri əsasında filmlər çəki-lib. Təbii ki, hər qələm adamı öz sözü ilə yaşamaq istəyir. Bu arzu, qələm dostumuz Ramizin də ürəyindən gəlib keçən hissdir. Elə bilirik ki, bu niyyətlə də bu yeni kitabına "mini" şeirlərini - kiçik həcmli nümunələri daxil etməklə arzusunu reallaşdırmaq istəyib. Həm həcmcə kitabın kiçik yer tutması, oxucuya daim öz üstündə gəzdirə bilməsinin asanlığı nöqteyi-nəzərdən bu arzu gerçəkləşə bilir, həm də burada özünə yer alan yaradıcılıq məhsullarının özünün kiçik mətnlərdən - müdrik kəlamlardan, aforizmlərdən daha doğrusu, tək beytlərdən ibarət olması oxucunun mütaliəsini asanlaşdırır. Bir az da dürüst ifadə etsək, az sözdə böyük mətləblər ifadə etməklə oxucu yaddaşında özünə yer eləmək şansı qazanan müəllif bu məqamda ikitərəfli qazanc əldə edir. Elə özünün dediyi kimi:

Sayılmaz, bilinməz ulduzun sayı,
Heç biri deyil ki, günəşin tayı.

Yəni tək olanlar daha qiymətli olarlar, elə günəşin özü kimi. Eləcə də sözlərin - mətnin genişliyi özü oxucunu yora bilər. Yığcam, mənalı sözlər oxucu üçün daha asan qavranılır. Elə buna görə də, bu aforizmləri müdrik kəlamlar adlan dırmaq olar.

Ağsaqqal söz desə, qulaq as ki sən
İbrət al, saçına tez düşməsin dən.

Bəli, "ağsaqqal sözü"nə qulaq asıb nəticə çıxarsaq, çətinə düşmərik. Şairin də missiyası oxucuya boş nəzəriyyə, quru fərziyyə söyləməkdənsə, əməli olaraq praktik həyatda doğru yol göstərməkdir!

Yolunuz uğurlu olsun!

Mədəd ÇOBANOV,
Nyu-York Elmlər Akademiyasının akademiki,
filologiya elmləri doktoru,
professor.

Oxuyub dərk elə, səninki olsun,
Yazmıram, yazdığım, mənimki olsun.

Bir gün qəlb evini, eləsən talan
Doğular günbəgün yalandan yalan.

Ehtiyac sıxsa da səni günbəgün
Səbir ocağında yanacaq bir gün.

Vermədən bir düşün məhəbbətini
Əyməsin o sənin şux qamətini.

Qəhrəman ölümə gedir, o zaman
Vətənə bərabər tutulanda can.

Fərqlidir dünyada millət, həm sayı
Xırdalar böyüyə söyləyir dayı.

Hamı azadlığa eyləyir meyl
Oxuyub dərk elə, səninki olsun,

Yazmıram, yazdığım, mənimki olsun.
Bir gün qəlb evini, eləsən talan

Doğular günbəgün yalandan yalan.
Ehtiyac sıxsa da səni günbəgün

Səbir ocağında yanacaq bir gün.
Vermədən bir düşün məhəbbətini

Əyməsin o sənin şux qamətini.
Qəhrəman ölümə gedir, o zaman

Vətənə bərabər tutulanda can.
Fərqlidir dünyada millət, həm sayı

Xırdalar böyüyə söyləyir dayı.
Hamı azadlığa eyləyir meyl

Səhralar alışır heç bildin nədən?
Ona sevgi gəlir, parlaq günəşdən.

Aldadar, oynadar səni vəfasız,
Çünki o əzəldən yaranıb arsız.

Nədir dərdi-səri insan əhlinin,
Tapa bilməyiblər onun təhlilin.

Qaça-qaç yaxşıdır, məqam olanda
Onun boxçasına sevinc dolanda.

Dostluqda xəyanət olarsa əgər,
Deməzdim o qara qəpiyə dəyər.

Xəstəyə dedilər de dərdin nədir
Göstərin kim mənə qazacaq qəbir.

Doldurub ovcunda suyu saxlasan,
Canın cəhənnəmlik olar yoxlasan.

Kağızın qədrini biləcək sətir,
Ağıllı kəlamlar dilinə gətir.

Gecə gözləyərkən sübhün çağını,
Qoyma talan olsun eşqin bağını.

Balığa qiyməti xaliq verərkən,
Onunçün olmadı sübh çağı erkən.

Tısbağa dedilər çox asta gedir,
Tülküdən deyən yox, gör nələr edir.

Qarışqa zəhmətlə təpəcik qurdu,
Öküz ayaq basdı, üstündə durdu.

Biri Allahına etdi ibadət,
Biri rəzilliyə elədi adət.

Sevən sevgisindən ürək istədi,
O başa düşmədi, dedi xəstədi.

Əbədi dil üçün ədəbiyyatı
İnsan olmaq üçün dərk et həyatı.

Məhrum eləmə sən eşqdən özünü,
Ədəb, ərkan ilə söylə sözünü.

Etibar eyləmə, görsən ayını,
O basıb əzəcək, axtar tayını.

İslama ibadət, elm, tərbiyə
Mərhəmət, halallıq yetər sevgiyə.

Ağac gözəllikdir, kölgədir, bardır
Ona bir nəfəs tək ehtiyac vardır.

Kobudluq edərkən bir düşün, dayan
Zaman əleyhinə dövr edər, oyan.

Vətənə, xalqına xidmət et ki, sən

Şöhrətin yayılsın, desinlər əhsən!

İnsan olmaq üçün bil lazım deyil,
İnsanlıqdan kənar etməkçün meyil.
Təhsili döndərmə pul mənbəyinə,
Bir gün tüpürərlər bil cəmdəyinə.

Qarşında durana hörmət et ki, sən
Hörmətlə hörmətə ucal yet ki, sən.

Gözlər var səma tək, nurlu tər-təmiz,
Gözlər var şeytana bənzəyir təmiz.

Yollarda uğur var fərqini görsən,
Xoşbəxt qismətinə bir gün yetərsən.

Təhqirə döndərmə, olan sevgini
İllərlə qəlbinə dolan sevgini.

Birinə verdilər, sevgi, məhəbbət
Düşündü borcluymuş, o buna əlbət.

Əl tutub birini qaldırsan göyə,
Gəl çox eləmə ki, bir gün də, söyə.

Pul ilə öyünmə kimsə önündə,
Dəyəri heç olmaz eşşək gönündə.

Sındırma qəlbini hələ uşaqdır,
Alça ağacında güldür, budaqdır.

Bülbül nalə etsə hər gün qəfəsdə,
Ona nə faydası, gül olsa dəstə.

Kasıba dedilər, çörəyin mənlik,
İşlətdilər onu, qalmadı mənlik.

Təsbeh çevirirlər səbir adıyla,
Bəzən kor-təbii, yersiz sayıyla.

Hipokrat andına and içdi həkim,
Şikayət elədi, ağırdı çəkim.

Axmağa dedilər, gəl istə ağıl,
Dedi istəmirəm, sən danış nağıl.

Kitab açılanda kitaba dönür
Örtülü qalarsa kəlamlar ölür.

İsrafçılıq edən günaha batır,

Milyonlarla insan gecə ac yatır.

Qənaət edərək, bil çörək qədrin
Onu nuş edərkən, duyasan ətrin.

Halallıqla qazan bəhrələn ondan,
Haramlıq edənin sonudu zindan.
Dost etibar etsə əmanətini,

Qoru sən nəfsini, xəyanətini.
Namərdlə oturub, durma heç zaman,

Sənə də o keçər, bil zaman-zaman.
Yaşadığın yerdə etsən abadlıq,

Rahatlıq taparsan, həm canda sağlıq.
Acgözçün yeməyin qaydası olmaz,

Şişirdər qarnını, faydası olmaz.
Əziyyətə qatlaş, zəhmət görəsən,

Günbəgün qazanıb, ziynət görəsən.
Sərvət sahibinə etmə paxıllıq,

Zəhmət çək, əməyə eylə yaxınlıq.
Hövsələdən çıxma, görsən haqsızlıq,

İşləmirsə qanun, edirsə azlıq.
Mərdi-mərdanəlik ucaldar səni,

Satqınlıq, nadanlıq qocaldar səni.
Ehtiyac üzündən pənah gətirsə,

Əl tut, kömək eylə mütləq o kəsə.
Məkirli, hiyləli görsən kimsəni,

Çalış ki, toruna salmasın səni.
Xətalar yetirsən əməllərinlə,

Çoxalar düşmənin öz əllərinlə.
Pis əməldən dönüb, edərkən tövbə,

Yeni bir xətaya saxlama növbə.
Çörəyi verənə dualar eylə,

Əvəzin sən ödə səxavət ilə.
Mərhəmət sahibi zülümkar olmaz,

Bir qaba iki qab həcimi dolmaz.
Var sözlər dedikdə bir dərman olur,

Var sözlər zəhrimar, zəhər qan olur.
Muğamlarda yaşar sevgi, intizar,

Həsrətdə, hicranda qəhrəmanlıq var.
Qürbətdə torpağın öpən anbaan,

Vətəndə Vətəni eləməz talan.
Marsda dirçələcək həyat bir zaman,
Oranın ziynəti olacaq insan.

Günahı taparlar sənin özündə,
Yoxdursa məhəbbət onun gözündə.

Allaha inamla, şükürlə yaşa,
İnşallah deyərək, ömrü vur başa.

Qocalıq üstünə xəstəlik gəlsə,
Uşaqlıq arzular getməkçün dərsə.

Əlvida deyərək örtsən qapını
Nə qır, nə düyünlə eşqin sapını.

Ataya, Anaya bəxş et səadət,
Ovladın seyr edib eləsin adət.

Sus, danışma ki, səhvin olmasın
Dilinlə, son günün məhvin olmasın.

Sağlamlıq əlində, əməlindədi,
Necə əməl etsən qədərindədi.

Rəvayətə dönüb qalmaqçün yadda
Göstər xidmətini, özün öz adda.

İnsanı ucaldan səbirdir, səbir,
Səbirsiz insana məskəndir qəbir.

Cahu-cəlal ilə öyünmə ki sən,
Var-dövlət qalandır, sən isə gedən.

Çalış ki, nəfsini hər şeydən qoru,
Tamahdan doğulur əcəlin toru.

Şaxtalı-çovğunlu olsa da Sibir,
Olacaq günəşə bir müddət əsir.

Verməyə insana qiyməti bacar,
Pislərdə göz qaçar saf da nur saçar.

Paxıllıq, xəyanət bəsləyən kəslər,
Tez-tez dost sözünü qarşında səslər.

Dəliyə yalanı verirlər yemək,
Onun dəliliyi düz sözdür demək.

Dərk etmək üçün təkrar oxu sən,
Sözün qüdrətini tamam biləsən.

MÜNDƏRİCAT

1. Ana yurdum mənim Azərbaycanım
2. Ürək
3. Qoyma ürəyimi o, nadan ala
4. Sən baldan da şirin olan sevgilim
5. Ey nazlı nigar
6. İndi nə faydası bu yalvarmağın
7. Sənə mələk deyərdim
8. Sevgili canan
9. Tamam
10. Məhəbbət sönməz
11. Nə dindirdin, nə danışdın
12. Rəssam olsaydım əgər
13. Sən demə
14. Vətənim
15. Mübarək yetmişin, Arif Qazıyev
Bundan gözəl nə var, Mədəd müəllim!
16. Aldatdın məni
17. Mənimlə bərabər ruhumda varsan
18 Mənim Pakizəm
19. Dərin düşüncəli ol
20. Sevəcəyəm mən səni
21. Taleyim üzümə gülməyir daha
22. Həyatım, sən məni unutma heç vaxt
23. Nəyə lazım
24 Çərxı fələk
25. Gözlər
26. Tək tənha səhrada
27. İnsafsız olma
28. Xəzər sahilində
29. Sevirəm sözlərini, de kimə söyləyərdim
30. Qorxuram unudub, atarsan məni
31. O, zaman sevgimə qibtə edərdin
32. Sev məni, necə ki, sevirəm səni
33. Tanrı payımsan
34. Əlvida olmasın heç zaman gülüm
35. S ə n s i z
36. Susdum
37. Sənin qollarında ölmək istədim
38. Qoyma bu sevgimə, ümidsiz məni
39. Yox etdin ağlımı
40. O varsa, axı mən kiməm
41. Kim bilir sənsiz, mən necə olardım
42. Bu dünya sənsiz heç, hədər
43. Tale tanrıdandır, bəxş edir bəxt
44. Sənsiz də ürəyim, bil səninlədir
45. Allaha sevginlə yaşa dünyada

46. O, yağış deyil
47. Gündəlik
48. Azərbaycan uşaqları
49. Darıxır bu könlüm özünü yetir
50. Bu sevən ürəyi necə susdurum
51. Tutdun əllərimdən nədən insafsız
52. Doymuram öpərkən, bal dodağından
53. Sənsiz bu dünyada tənha qalıram
54. Son görüş
55. Gözləyirəm
56. Darıxıram
57. Solğun çiçəklər
58. Nə durmusan, baxırsan mat-mat mənə
59. İstəsən can verib, sən sağaldarsan
60. Sevgi qanadında dönəcək şaha
61. Dost kimi qalmağın öz ləzzəti var
62. Əlini üzdü əlimdən
63. Nə bilim
64. Sənin bu qüdrətin, söylə, nədədi?
65. Sən nə yaxşı ki, varsan
66. Sənin üçün açmışam tamam, sevgilim
67. Xeyir və şər
68. Bir bəladı, bu ürək
69. Muhəmməd
70. Şeirdir şairin ilham mənbəyi
71. Sən məni ağladıb, həm güldürürsən
72. Kaş səni o gecə mən görməyəydim
73. Deyilən kəlamın hikməti vardır
74. Səni düşünərək
75. Bəlkə xoşbəxtliyim öz əlimdədir?
76. Məni sevən çoxdu, bu qəlbim duyur
77. Səni niyə sevdim, sevgili canan
78. Sevdalı gecə
79. Mənim bu sevgimə qibtə edirsən
80. Qarşında sakitcə dururdum sənin
81. Sənin pis vaxtına yəqin düşmüşəm.
82. Məni düşünürsən yağarkən yağış
83. Sevirəm deməyə tələsmə, sən sus
84. Dünyanı sevməyə inan ki, dəyər
85. A y r ı l ı q
86. İndi yoxsan, sən yanımda
87. Gəzməkdəsən
88. İncimə məndən
89. Sevmədin canan məni
90. Ürəyim yenə də səni istəyir
91. Çox mübarək, Oqtay Rza qardaşım
92. Nə olar sevgilim incitmə məni
93.Mən sənə can söylədim, canan nədən naz eylədi
94. Yenə də günahkar özüməm
95. İndi səhralarda tənha qalmışam

96. Sevgimi başımdan ata bilmirəm
97. Qalmadı başda ağıl
98. Uzaqda olsam da
99. Əbədi dünya
100. Nə qalacaq ki, yaya bil
101. Sənin söylədiyin məhəbbət hanı
102. Mən əzab içində qalsam da yenə
103. O yəqin məhəbbət, nədir bilməyir
104. Bir bəla olmusan, mənim başıma
105. Vardır min sevənin, birisi də mən
106. Cəfakeş
107. Yada düşəcəyəm
108. Ola bilməz belə eşqin davamı
109. Ürəyim
110. Xoş gəldin gülüm
111. Səni sevə-sevə mən incidirəm
112. Edirəm dualar hər gün Allaha
113. Qədrimi bilənim
114. Hər səhər
115. Kobud
116. Özüvü ağır apar, ya da ki, daş qoy cibivə
117. Unutmaq olarmı səni sevgilim
118. İstəmirəm
119. Verdim əllərimlə isti ürəyi
120. Gəl sevib, sevilək, gəl şokoladım
121. Sənin ucbatından gözlərim yaşdı
122. Yarı yolda məni ataraq getdin
123. Uzun illər boyu bərabər qaldıq
124. Çətinlik
125. Oyatmaq istədin məhəbbətimi
126. Səni təriflədi, tanış etdiyim
127. Arxamca vəfasız, gözün qalaydı
128. Səndən xahiş etdim, dedim alarsan
129. Öyrədə bilmədim sevməyi sənə
130. Tələm - tələsik
131. Tanrı məktəbində keçilən dərslik
132. Tərbiyəsiz
133. Bizləri hər görən qoy əhsən desin
134. Dözəcəksən
135. Qeyri-adi bir xanımsan, mələksən
136. Özüm öz içimdə yandırırdım şam
137. Sənin bu sevgiyə minnətin olsun
138. Deyirsən ağrıma ürəyim hələ
139. Dəliyəm
140. Nə yaxşı ki varsan, sən dostum mənim
141. Xoşbəxtlik çırağı olmusan mənə
142. Ay məni sevənim, nə istəyirsən?
143. Dünyanı qurbanlıq edərdim sənə
144. Gözəllik boğulur qəm dənizində
145. Ay məni odlara salan sevgilim

146. Sən öləcəksən
147. Pul
148. Nigaran qaldım
149. Əkizlər
150. Əyildim öpməyə dodaqlarından
151. Gözəlsən, əsirin deyiləm sənin
152. Nə yaxşı seçimi etdin bu səhər
153. Səbr ilə düşün, verme qərəzli, ola fərman
154. Sevgi can verərkən gözəllik solur
155. Unutdum səni
156. Mənim həyatımdan çıx zaman-zaman
157. Nədən oldu?
158. İnsaf et
159. Mənə bir sevgi ver
160. Məni yoldan edir, xumar gözlərin
161. Aldanan sən özünsən
162.O məni çox düşünüb könlünə mehman elədi
163. Sən mənim döyünən bil ürəyimsən
164. Başqalar önündə sükut içində
165. Çox böyük zövq verir inan varlığın
166. Xəfif bir baharın ətiri vardı
167. Güldür məni, gülsün o qara gözlərin ey gül
168.Sən məni qoyma rahat, dur gecələr gəl yanıma
169. Mənə çox gəlir sözün söhbətin
170.Bir yalandır ki, deyirlər, ağ qarandan yaxşıdır
171. O mənəm ki, arabir sizləri də yad edirəm
172. Unutmaq çox çətin, sevmək çox çətin
173. Rahatlıq gətirdin, şeirinlə mənə
174. Layiqsən, layiqdən daha çoxuna
175. Ayrıla bilmərik bir-birimizdən.
176. Zəng etdin, səsini eşitdim bu gün
177. Yanında əzizim mən olmayanda
178. Gülər üz keçərkən baxardın mənə
179.Heç düşünmə məni sən sevməyə vadar edəsən
180. Tək bunu Allah bilər, necə keçir bu halımı
181.Qorxuram ki, sevəsən, həm də sevəm gözlərini
182. İnşallah ilə başlayıb, dünya əzəlindən
183. Köçəri quşlara bənzəyir insan
184. Bilməmisən bu vaxtacan kiməm mən
185. Dindirmə sən Allah keç yanlarından
186. Desəydin o kimdir, deyərdim ki, sən
187. Sən də gözəlsən, gözəlim, çoxlu gözəldən
188. Xoşum gəldi, halal olsun kamalına
189.Bu gecə yatma oyaq qal, dua et sübhə qədər
190. Gəl yanıma ruhlarımız qarışsın
191. Şəkərdən şirinəm, baldan şipşirin
192. Yağışlı günlərdə gözün yol üstə
193. Bir uşaq təki sən, baxardın mənə
194. Yaxşı ki, qanadın yoxdur uçmağa
195. Qırmızı rənglərlə yaradıb sətir

196. Axıtdın göz yaşın, kövrəltdin məni
197. Bu sevdadan əl çəkmədin
198. Deyəsən unutdun artıq sən məni
199. Sənin gözlərini qoymuşam yolda
200.Bir də gəlmə, naz ilə, ey siması gül nazənin
201. Günay
202. İstərdim yazıla şeir şənimə
203. Dözməyib ağlayan könül məndədi
204. Sən gözəldən alıram ilhamı dəhşət yaranır
205. Mən səni həmişə arzu etmişəm
206. Şəffaf bir bulağın kənarında mən
207. Füsunkar, incəsən bir çiçək təki
208. Qoru ənənəni sən asta-asta
209. Sən getdin, ətirin qalıb yanımda
210.Nədən ey gül belə şərbətə dönüb gül camalın
211.Gəl mənim yanıma canan, seyr edim gözlərini
212. Dəyməz əməllərin inan heç nəyə
213. Sənsizlik mənimçün, sükut bir otaq
214. Səni düşünürəm oturub tənha
215. Mənim darıxmağım, mənim içimdə
216. Bir cüt mələk
217. Gələcəyəm heç narahat olma sən
218. Məndən aslı deyil ki, səni çox istəyirəm
219. Laqeyd sevgimə, qalan sevgilim.
220. Sonsuz təşəkkürü göndərdim sənə
221. Fırtına qoparır səbir içimdə
222. Etiraf etmişəm sənə sevgimi
223. Tanrının ən gözəl şah əsərisən
224. Apar məni hara getsən özünlə
225. Yenə həsrətindən üzülür bədən
226. Gözlərin canlanır, gözlərim öndə
227. Ülkər baxışları gizlətmə məndən
228. Nə qədər uzaqda olsan da məndən
229. Mənim gözlərimdən süzülən göz yaş
230.Yenə yoxsan gözəlim, hansı məkan sahibisən?
231.Gənc idim, bilməzdim, eşqi məhəbbət necədi
232. Əsa
233. Sus danışma, nəyə lazım, özünü incidəsən
234.Çox gəzirsən sən vəfa, yoxdur o səndə bivəfa
235. Əlvida
236. Bir baxış atəş yaxır, digər baxış çox sadəcə
237.Səbr edib gözlə məni, gözlərimi görmək üçün
238. Çıx get daha durma ruh ilə can arasında
239.Məndən sənə nə, ya da ki, səndən mənə nə?
240.Sənçün darıxan könlümü şad eylədin ey gül
241. Mənsiz günü qara deyən ey gül necə oldu?
242. sənsiz bu dünyada dəli olardım
243. Məni edəcəkdin xoşbəxt deyirdin
244.Nadir insan yaradıb, Tanrı səni mən görürəm
245. Darıxıram ay bəxtəvər səninçün

246. Hansı məhəbbətdən danışır dilin
247. Bayramdan bayrama görüşən kişi
248.Qorxdum səni sevmək, belə sevgi, məni tutdu
249. Fəxrəddin
250. Baxma gözlərimə belə alovla
251. Belə baxma, nə baxırsan, mənə tərs-tərs
252. Darıxır ürəyim yenə səninçün
253. Özümü həyatda xoşbəxt sayardım
254. Təəssüf
255. Gedin o nazlı nigara, nə deyirsizsə deyin
256.Gəl qapa gözlərini, baxmasın artıq mənə heç
257. Hər yerdə, hər zaman, yerin görünür
258. Sual etdim ki, sevir, söylədi canan nə bilim
259.Gəldin, duraraq gözlərim öndə, süzərək sən
260. Bayraq
261. Sevgilim
262. Qəhraman xalqımın, qəhraman oğlu
263. Bir işarən, bir istəyin bəs eylər
264.Yazmağa məcbur edir, könlum səni yad etməyə
265.Sənsən mənə həmdəm, o səbəbdən səni sevdim
266.Kim xətrinə dəydi, məni də görmədi gözlər
267. İsidə bilmirəm səni heç cürə
268. Məcbur eyləyirsən yalan deməyə
269. İncit məni dilbər, nə qədər istəsən incit
270.Dözmədi könlüm nə edim, mən sənə gəldim
271. Balaca ürəyim dözməyir yenə
272.Zilləyib gözlərini sən mənə baxma gözəlim
273.Tərk edər ruh cismimi tənhalığa atsan məni
274. Məni səndən ayıran, ayrılığa meyl eləmə
275. Vurulmuşam sənə, yoxsa bu nədir
276. Haqqım yox söyləyəm, unut sən onu
277. Deyirsən tənhalıq hökmünü verən
278.Baxdı gözlər nə əcəb, bircə sözü, dil demədi
279. Həsrətlə baxırsan yenə arxamca bəs eylər
280. Gəlsin o gözəl nazlı nigarım, yenə gəlsin
281. Heyranam ey gözəlim gözlərinin qarasına
282.İncidirsən məni, incitmə gözüm yaşla dollar
283. Narahat olma, səni gözləmirəm
284. Hörmət elə o şəxslərə, hörmət elə əsla
285. Yenə göylərdə gəzir, fikri xəyalın gözəlim
286. Haqsızlıq
287.Bu gözəl dünyamı döndərmə məşəqqət oduna
288.Durma qarşımda daha, sevgili canan yeri get
289.Günahım var susuram sorğu sual çox eləmə
290. Xəstəlik aldı başım üstünü fəryad elədim
291.Sən mənim canıma məlhəm, neyləyirəm həkimi
292. Səbri qərarımı alsan sənə əhsən deyərəm
293. Yola düşməliyik sənlə dağlara
294.Nə gedir bağdan gedir bağban pərişan olmasın
295. Kaş illər dönüb, pərvaz edəydi qarşım

296.Kim səni başa düşür ki, səni mən başa düşüm
297. Nə üçün yatmamısan sevgili canan bu gecə
298. Sizinlə bərabər keçən hər anım
299.Xəbərin var yenə qəlbim oda dönmüş yanıram
300. Dostum səni sevdi, dəyişib halı xoş haldı
301. Hər yağış yağanda düşüb yadıma

***
**Muğamlarda yaşar sevgi, intizar**
**Həsrət də, hicran da qəhramanlıq var.**

Любовь, страдание живет в мугамах
Героизм есть в тоске, разлуках.

***
**Mərhəmət sahibi, zülümkar olmaz**
**Bir qaba, iki qab həcimi dolmaz.**

Не присуще добру творить зло
Не вместится обьем двух в одно.

***
**Qarışqa zəhmətlə təpəcik qurdu**
**Okϋz ayaq basdı, üstündə durdu.**

Муравей с трудом построил дом
Бык ногой топнул, встал на нем.

***
**Əl tutub birini qaldırsan göyə**
**Gəl çox eləmə ki, bir gün də, söyə.**

Подав руку до небес поднимаешь
Усердствовать не стоит, клевету получишь.

***
**Səcdəyə getmə sən, görsən ayını**
**O basıb, əzəcək, axtar tayını.**

Медведя встретив, не пытай надежду,
За раз помнёт, ищи себя ровню.

***
**Gözləri kor olan edərkən şükür**
**Nədənsə görənlər olur naşükür.**

Слепые всё же благодарны Богу,
Почему-то зрячие бывают неблагодарны.

Корректор русского текста
Джафар Касумов

Bakının dünyası bütov bir dünya

Bakının dünyası bütov bir dünya
Burda cənnətdə var, cəhənnəmdə var

Görunən, görünməz olan sirr dünya
Yollardan ibarət keniş həm də dar

Hər səhər şəfəqlər gəlir qoynuna
Oyadır burda ki, pisi yaxşını

Yüklənib əziyyət onun boynuna
Tozlu atmasferdə, hisi, yaxşını

Yüklənib belinə bütün bölgələr
Günbəgün sıxılır, böyümür daha

Başa düşənləri bürüyür qəhər
Şəhərdən dəniz də görünmür daha

Çəkilib çəpərtək göyə göy dələn
Arxada beş, yeddi, bir mərtəbələr

Seyr edərkən bunu xaricdən gələn
Büzüb dodaqları, təccübdən gülər

elmləri doktoru, professor
Bədirxan ƏHMƏDOV,

AMEA Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri doktoru
Redaktoru və naşiri:

Müşfiq BORÇALI
"Təhsil" EİM, 2010.

RAMİZ ABDULLAYEV

101 KƏLAM
BAKI-2010

Ön sözün müəllifi:
Məməd ÇOBANOV,

Nyu-York Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor;

Rəyçilər:
Buludxan XƏLİLOV,

ADPU-nun filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor
Bədirxan ƏHMƏDOV,

AMEA Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri doktoru

Redaktoru və naşiri:

Müşfiq BORÇALI
"Təhsil" EİM, 2010